ASCO

HƏR BİRİ QƏHRƏMANDIR

27 SENTYABR-10 NOYABR



BAKI - 2021

Vətən müharibəsinin Zəfərimizlə başa çatmasında təbiət etibarı ilə cəsur, qorxmaz dənizçilərin də xidməti az olmayıb. ASCO-nun təşəbbüsü və dəstəyi ilə ərsəyə gələn “Hər biri qəhrəmandır” kitabı taleyini dəniz nəqliyyatı ilə bağlayanların, yerə-göyə meydan oxuyan dalğalarla “döyüşlər”dən qalib çıxmağı bacaranların müstəqil Azərbaycanımızın ərazi bütövlüyünün təmin olunması uğrunda savaşda göstərdikləri şücaətdən bəhs edir.

ISBN 978-9952-37-594-7

Vətən müharibəsində
qanı və canı ilə tarix yazan
dənizçilərə
böyük ehtiramla!



Mən son 17 il ərzində dəfələrlə demişdim ki, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan işğalçı qüvvələrini çıxarmasa, biz bu məsələni hərbi yollarla həll edəcəyik. Mən 2003-cü ildə Prezident vəzifəsinə seçiləndə Konstitusiyamıza və müqəddəs Qurani-Kərimə əl basaraq and içmişdim ki, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Bu gün böyük qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan öz istədiyinə nail oldu, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi...

Bu zəfər tarixi zəfərdir. Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi, 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın əmrini gözləyirdi. Mən dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, biz daha güclü olmalıyıq və nəyi nə vaxt, necə etmək lazımdır, biz bilirik. Həyat göstərdi ki, vaxtında addımlar atdıq, bütün gücümüzü səfərbər edərək bir dəmir yumruq yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi…

Hər kəs bilir ki, Ermənistan rəhbərliyi bir il bundan əvvəl demişdi ki, "Qarabağ Ermənistandır və nöqtə". Mən isə demişdim ki, "Qarabağ Azərbaycandır və nida". Bu gün bütün dünya görür ki, Qarabağ Azərbaycandır! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Türkiyə–Azərbaycan dostluğu, qardaşlığı! Yaşasın Azərbaycan əsgəri!

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti


717

Azərbaycan xalqının igid oğulları Zəfər naminə, Azərbaycanın gələcəyi naminə canlarından keçib.

Onların hər biri əsl qəhrəman, rəşadət və qorxmazlıq nümunəsidir.

Bu gün mən şəhidlərimizin ailələri ilə birlikdə kədərlənir, Vətən naminə canından keçməyə hazır olan oğullar tərbiyə etmiş valideynlərin qarşısında baş əyirəm. Şəhidlərimizin qanı nahaq yerə tökülmədi – biz tarixi ədaləti bərpa etdik, müqəddəs Qələbə qazandıq. Bu Qələbə xalqımızın tarixinə əbədi həkk olundu!

Hər birimiz bu Zəfərin nəyin bahasına qazanıldığını yadda saxlamağa borcluyuq! Biz Vətən müharibəsi şəhidlərini heç vaxt unutmayacağıq. Onlar bizim qəlbimizdə daim yaşayacaq.

Allah şəhidlərimizə rəhmət eləsin, yaralılara tezliklə şəfa, onların ailələrinə və yaxınlarına güc və səbir versin! Uca Tanrı Azərbaycanı və Azərbaycan xalqını qorusun!

Mehriban ƏLİYEVA

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti

ÖN SÖZ ƏVƏZİ



Zəfər tarixlərini sərkərdələr yazırlar. Və həm də hər sərkərdə yox. Ali Baş Komandanımız İlham Əliyev kimi dahi sərkərdələr! 44 günlük Vətən müharibəsində yazdığı kimi. 2020-ci il sentyabrın 27-də "İrəli!" əmri ilə başladı rəşadətli Ordumuzun əks hücumu və düşmən ağ bayraq qaldırana kimi davam etdi…

Ulu öndər Heydər Əliyev xalqımıza müraciətində demişdi ki, "Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümid bəsləyirəm."

Vətən müharibəsində qətiyyətli Ali Baş Komandanımızın sərkərdə məharəti sayəsində qazanılan parlaq Qələbə Ulu öndərin uzaqgörənliyini bir daha təsdiq etdi. İkinci Qarabağ savaşı başlayan ilk gündən bütün dünya müdrik olduğu qədər də cəsarətli dövlət başçımızın istər hərb meydanında, istərsə də siyasi arenada necə məharətlə döyüşdüyünü rəğbətlə izlədi.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın təbiri ilə desək: "Məhz onun sarsılmaz iradəsi, cəsarəti, əzmkarlığı və qətiyyəti sayəsində Azərbaycan Ordusu düşməni sarsıtdı, müharibənin nəticəsini müəyyən etdi və qələbə nöqtəsini qoydu. Prezidentimizin güc mənbəyi olan Azərbaycan xalqının hörməti, sevgisi, etimadı, inamı və dəstəyi ona Avrasiya məkanında ən uzunmüddətli münaqişələrdən biri olan Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsini başa çatdırmaqda kömək etdi. Onun başçılığı ilə biz xalqımızın özünəinamını qaytaran Qələbəni qazandıq! Bu Qələbənin möhtəşəmliyi Azərbaycan dövlətinin tarixində əbədi qalacaq!"

Bizə Qələbə sevincini yaşadan müzəffər Ordunu da müdrik dövlət başçımız özü qurmuşdu, dünyanın ən qüdrətli ordularından birinə də Prezident İlham Əliyev çevirmişdi, qüdrətini yenilməzliyə də Ali Baş Komandanımız özü çatdırdı!

Bu Qələbənin əsas yükünü də məhz onun müstəqil Azərbaycana rəhbərliyi dövründə vətənpərvərlik ruhunda tərbiyə alan gənclər çəkdilər. Vətən üçün hər zaman canından keçməyə hazır olan gənclər.

2021-ci il yanvarın 15-də Şuşada – Cıdır düzündə çıxışı zamanı özü də qeyd etdi ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib. On yeddi ildir ki, mən Azərbaycanın rəhbəriyəm. Bu illər ərzində yetişən insanlar bu torpaqları azad etdilər. Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27-32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi".

Əzəli və əbədi torpaqlarımızın yağı tapdağından xilas edilməsində

təbiət etibarı ilə cəsur, qorxmaz dənizçilərin də xidməti az olmadı. Vətən müharibəsi başlayanda əli silah tutan bütün dənizçilər ön cəbhəyə can atırdı. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbələrinin qapılarını kəsdirib ön cəbhəyə göndərilməsini israr edənlərin sayı minlərlə idi. ASCO-nun dənizçilər hazırlayan məktəblərində təhsilini yarımçıq qoyub könüllü cəbhəyə yollanan tələbələr də az deyildi. Onlarla dənizçi torpaqlarımızın işğaldan azad olunması əməliyyatlarında qəhrəmanlığı ilə fərqləndi. Cəsur dənizçilərin bir çoxunun sinəsini göstərdikləri şücaəti təsdiqləyən təltiflər bəzəyir. Ən böyük mükafatlarını isə Vətən müharibəsində qazanılmasına töhfələrini verdikləri Qələbəni sayırlar.

"Hər biri qəhrəmandır" kitabı da məhz onlar haqqındadır. Vətənin bütövlüyü üçün canından və qanından keçənlər və keçməyə hazır olan dənizçilər haqqında. Bizi əzəli yurd yerlərimizə qovuşdurduqları, bizə Zəfər yaşatdıqları üçün minnətdarlıq hislərinin ən alisinə layiq igidlərimiz haqqında. Namərd gülləsinə tuş gələndə də "Təki Vətən yaşasın!", – deyərək şəhadətə qovuşanlar, yaralansalar da, döyüş meydanını tərk etməyənlər və bütün müharibə boyu ölümün gözünə dik baxan, şəhid və ya qazi olmamalarını daha çox təsadüflə bağlayan dənizçilər haqqındadır bu kitab. Bütün şəhidlərimizə Uca Yaradandan rəhmət, doğmalarına səbir diləyir, qazilərimizə tezliklə sağalmalarını arzulayırıq.

Kitabın ilk – "Vətən candan şirindir" bölməsində müstəqil Azərbaycanın bütövlüyü üçün canından keçən 9 qəhrəman dənizçinin qısa, lakin şərəfli həyatı ilə tanış ola bilərsiniz.

"Düşmənə qan udduran dənizçilər" bölməsində ASCO-da çalışan və Vətən müharibəsində şərəfli döyüş yolu keçənlərdən söhbət açılır.

"Öncə Vətən!"– dedilər" bölməsində Azərbaycan Dövlət Dəniz Akademiyasının, "Əvvəl Zəfər, sonra səfər!" bölməsində isə Azərbaycan Dənizçilik Kollecinin məzunları və ya bu təhsil ocaqlarında oxuyan igid gənclərimizlə yaxından tanış ola bilərsiniz.

Böyük Qələbədən sonra biz tamamilə yeni – Qalib və məğrur Azərbaycanda yaşayırıq və bundan kiçikdən böyüyədək hamımız çox məmnunuq. Bu günümüzə görə minnətdar olduğumuz igidləri heç vaxt unutmamalıyıq. Dənizçi şəhidlər, qazilər və müharibə iştirakçılarının həyat və döyüş yollarından bəhs edən "Hər biri qəhrəmandır" kitabı onların şücaətini gələcək nəslə çatdırmaq kimi xoş bir niyyətlə qələmə alınıb.

ASCO-nun təşəbbüsü və dəstəyi ilə ərsəyə gələn "Hər biri qəhrəmandır" kitabını diqqətinizə təqdim edirik. Bu kitab oxumaq və rəşadətli Ordumuzun əsgəri və ya zabiti kimi yazdıqları Zəfərlə bizə başucalığı, Odlar yurduna şərəf gətirənləri unutmamaq üçündür.





VƏTƏN CANDAN ŞİRİNDİR



Zeynal Alim oğlu Zülfüqarlı



“Vətən uğrunda” medalı

“İgidliyə görə” medalı

“Cəbrayılın azad olunmasına görə” medalı

“Xocavəndin azad olunmasına görə” medalı

“Füzulinin azad olunmasına görə” medalı

“Qubadlının azad olunmasına görə” medalı

“Şuşanın azad olunmasına görə” medalı

“Kəlbəcərin azad olunmasına görə” medalı

Vətən üçün doğulmuşdu

Doğmalarının dediklərinə görə, uşaqlıqdan vətənpərvər olub. Sanki Vətən üçün, torpaq üçün dünyaya gəlmişdi. Çox sevdiyi Vətən yolunda da canından keçdi. Ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə göstərdiyi şücaətlə adını Azərbaycan xalqının qəhrəmanlıq salnaməsinə yazanda iyirmi beş yaşı vardı Zeynalın.

Zeynal Alim oğlu Zülfüqarlı 1995-ci il mayın 31-də Şirvan şəhərində dünyaya göz açıb.

Şirvan şəhərindəki M.İsrailov adına 18 nömrəli təbiət, humanitar təmayüllü məktəb-liseydə təhsil alıb. 2010-cu ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə qəbul olub. 2014-cü ildə kolleci "Balıqçılıq" ixtisası üzrə bitirib.

2015-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müvafiq kursu uğurla bitirdikdən sonra Azərbaycan Respublikası Xüsusi Təyinatlı Qüvvələrinin sıralarına qəbul edilib. Kiçik gizir Zeynal Zülfüqarlı xidmət etdiyi müddətdə intizamlı, cəsur və qorxmaz hərbçi kimi tanınıb. Təsadüfi deyil ki, komandiri hərbi sıra baxışında xüsusi təyinatlıların həmişə qürurla gəzdirdikləri qırmızı "beret"ini əla xidmətinə görə Zeynala təqdim edərkən "İndiyədək belə mükafatlandırdığım əsgər olmayıb", – deyə etiraf edib.

2020-ci il sentyabrın 27-də Ermənistan ordusunun genişmiqyaslı təxribatına qarşı əks-hücum əməliyyatının başladığı ilk gündən işğalçılara qarşı savaşa atılıb. Torpaqlarımıza xaincəsinə soxulan düşmənlərə göz açmağa imkan verməyən igidlərimizdən olub. Cəbrayıl, Füzuli, Zəngilan uğrunda gedən döyüşlərdə yağının xeyli canlı qüvvəsini məhv edib.

Oktyabrın 19-da qəhrəmancasına şəhid olan Zeynalın 9 gün sonra – oktyabrın 28-də oğlu dünyaya göz açıb. Ocağını Zeynalsız təsəvvür edə bilməyən doğmaları oğlunu da Zeynal adlandırıblar. Hər cizgisi ilə qəhrəman atasını xatırladan balaca Zeynalın igidlikdə də ona oxşayacağına kimsənin şübhəsi yoxdur.

Xalqına bütöv Azərbaycan bəxş edənlərin ömürlərinin yarımçıq qaldığına inanmayın. Şəhadətə ucaldıqları gündən başlayır onların ölməzliyi...

Bu da sübut. Kiçik gizir Zeynal Zülfüqarlı ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüşlərdə göstərdiyi igidlik və şücaətə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.



İnqilab Tofiq oğlu Qədirbəyli



“Vətən uğrunda” medalı

“İgidliyə görə” medalı

“Fizulinin azad olunmasına görə” medalı

“Qubadlının azad olunmasına görə” medalı

“Şuşanın azad olunmasına görə” medalı

Zəfərə saatlar qalanda şəhadətə qovuşan qəhrəman

Azərbaycan Dövlət Dəniz Akademiyasında oxuyanda ata ocağına qəfil getməyi xoşlayıb. Həm valideynlərini intizarda saxlamamaq, gözlərini yollardan yığmaq, həm də anasının bişir-düşürlə bağlı qayğılarını bir qədər azaltmaq üçün. Ana ürəyidir də. Bütün müqəddəslər kimi, anası da az qala dünyanın bütün naz-nemətlərini ona yedirtməyə çalışıb.

İnqilab Tofiq oğlu Qədirbəyli 1995-ci il martın 10-da Salyan şəhərində dünyaya göz açıb.

2012-ci ildə Salyan şəhərində Aşıq Pənah adına 1 saylı humanitar fənlər təmayüllü məktəb-liseyi bitirib.

2012–2016-cı illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasında "Menecment" ixtisasına yiyələnib.

2016–2017-ci illərdə həqiqi hərbi xidmətini Füzulidə keçib.

2020-ci ildə Vətən müharibəsi başlayanda könüllü cəbhəyə gedib.

Bütün müharibə boyu döyüşlərdə olub.

Əsgər yoldaşlarının dediyinə görə, Şuşa ətrafında gedən döyüşlərdə özünün də mühasirəyə düşmək təhlükəsinə baxmayaraq, 2 yaralı hərbçi yoldaşını döyüş meydanından çıxarıb.

Ermənistanın təslimçilik aktına qol çəkməsinə saatlar qalmış – 2020-ci il noyabrın 9-da düşmənin Şuşaya atdığı raket nəticəsində başından qəlpə yarası alaraq şəhid olub.

Şəhadətə ucalandan ata-anasının gözləri yol çəkir. Nər oğullarının itkisinə inanmadıqları, tələbəlik illərində olduğu kimi, bir gün qəfil gələ biləcəyini düşündükləri üçünmü?

Cəsur döyüşçü İnqilab Qədirbəyli ölkə başçısı cənab İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.



Bayrı Mirzə oğlu İmanov



“Vətən uğrunda” medalı

“Cəsur döyüşçü” medalı

“Cəbrayılın azad olunmasına görə” medalı

“Xocavəndin azad olunmasına görə” medalı

“Şuşanın azad olunmasına görə” medalı

Nə sudan uzaq tuta biliblər, nə oddan

Peşə seçərkən doğmaları Bayrını fikrindən daşındırmağa çox çalışıblar. Dənizçi olmasını istəməyiblər. ”Dəniz həmişə sakit olmur ki! Üzünün döndüyü vaxtlar da olur”. Həyatda bir sudan, bir də oddan uzaq olmağı məsləhət görüblər. Amma...

Nə sudan uzaq tuta biliblər, nə oddan. Ali təhsilli dənizçilər hazırlayan Azərbaycan Dövlət Dəniz Akademiyasına da arzu qanadlarında daxil olub, əzəli torpaqlarımızı erməni işğalından azad etmək istəyi ilə müharibənin od-alovuna da ürəyinin hökmü ilə atılıb.

Bayrı Mirzə oğlu İmanov 1996-cı il fevralın 5-də Salyan rayonunun Qaraçala qəsəbəsində dünyaya göz açıb.

2013-cü ildə Bakı şəhərinin Şüvəlan qəsəbəsində A.S. Makarenko adına gimnaziyanı bitirib.

Elə həmin ildə Azərbaycan Dövlət Dəniz Akademiyasına daxil olmasının sevincini yaşayıb.

2018-ci ildə ADDA-nı “Elektrik mühəndisliyi” ixtisası üzrə bitirib.

Sonra müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına çağırılıb və snayper kimi xidmət edib.

Tərxis olunduqdan sonra bir müddət Bakıda işləyib.

2020-ci ildə Vətən müharibəsi başlayanda könüllü olaraq cəbhəyə yollanıb.

Hadrut, Xocavənd, Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edib. Hərbçi yoldaşlarının dediyinə görə, düşməni gözündən vururmuş...

Qardaşı Sahillə danışanda “Bir vaxtlar uzaqdan durbinlə baxdığımız doğma ərazilərimizi indi piyada gəzirik”, – deyə iftixarla bildirib.

Müharibənin sonuna yaxın Şuşanın bir addımlığında raket zərbəsi nəticəsində şəhidlik zirvəsinə ucalıb.

Tez-tez deyirmiş ki, hər kəsin bir müqəddəs yükü olur. Daşıya biləcəyi yük. Yağını torpaqlarımızdan qovmaq da bizim nəslin çiyninə düşür. Xalqımızın yurd həsrətinə biz son qoymalıyıq.

Təkcə Bayrı yox, bütün yaşıdları belə düşünür, belə deyirdilər.

Dedilər də, dediklərini etdilər də!

İgid döyüşçü Bayrı İmanov Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə ölümündən sonra “Vətən uğrunda”, “Cəsur döyüşçü”, “Cəbrayılın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” və “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edilib.



Səxavət Zeyniş oğlu Talıbzadə



“Vətən uğrunda” medalı

“Cəsur döyüşçü” medalı

“Suqovuşanın azad olunmasına görə” medalı

Öz qisasını özü öncədən almışdı

Sinəsi Vətən sevgisi ilə döyünən Səxavət Talıbzadənin ən böyük arzusu işğal altındakı torpaqlarımızın azad edilməsi uğrunda döyüşlərdə iştirak etmək olub. Qazi və ya şəhid ola biləcəyini də göz önünə alıbmış. Zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsində öpərək gözünün üstünə qoyduğu müqəddəs üçrəngli bayrağımıza bükülü qayıdanadək qəhrəmancasına döyüşdü.

Səxavət Zeyniş oğlu Talıbzadə 1998-ci ilin ilk ayının ilk günündə Saatlı rayonunda dünyaya göz açıb.

Saatlı rayonu Ə. Əhmədov adına Qaracalar kənd tam orta məktəbini bitirib.

2015-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə qəbul olub, iki il "Gəmiqayırma" ixtisası üzrə təhsil alıb.

2017-ci ildə həqiqi hərbi xidmətə çağırılıb və Azərbaycan Silahlı Qüvvələrində xidmət etmək bu vətənpərvər gəncin ürəyinə o qədər yatır ki, müddətdən artıq xidmət edən hərbi qulluqçu (MAXE) olmaq qərarına gəlir.

Müddətdən artıq xidmət edən hərbi qulluqçu Səxavət Talıbzadə Tərtər, Ağdərə, Murov, Suqovuşan istiqamətlərində gedən döyüşlərdə xüsusi qəhrəmanlıq göstərib. 2020-ci il oktyabrın 3-də şəhidlik zirvəsinə ucalıb.

Hərbçi yoldaşlarının dediyinə görə, erməni işğalı altında olan torpaqlarımızı yağılardan təmizləmək üçün alışıb-yanan Səxavət o qədər cəsur olub ki, düşmənin sayca xeyli üstünlük təşkil etdiyi döyüşlərdən də zərrəcə çəkinməyib. Öz qisasını da özü öncədən alıb – döyüşlər zamanı düşmənin texnikası ilə yanaşı, çoxlu sayda canlı qüvvəsini məhv edib.

Səxavət Talıbzadə Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüşlərdə göstərdiyi igidlik və şücaətə görə Prezident İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.



Mirsafa Mircəlil oğlu Rzayev



“Vətən uğrunda” medalı



“Füzulinin azad olunmasına görə” medalı

Ən çətin döyüşlərə də gülə-gülə gedirmiş...

Atası Mircəlil də Vətən uğrunda canından keçməyə hazır olan igidlərimizdən olub. Könüllü getdiyi Birinci Qarabağ savaşında düşmənə qan uddurumuş. 2010-cu ildə haqq dünyasına qovuşub. Qələbəni görmək ona nəsib olmasa da, oğlu Mirsafa kimi vətənsevərlərin hesabına ölkəmizin ərazi bütövlüyünün bərpa ediləcəyinə həmişə inanıb.

Mirsafa Mircəlil oğlu Rzayev 1995-ci il fevralın 19-da Sumqayıt şəhərində dünyaya göz açıb.

2013-cü ildə Bakının Nəsimi rayonundakı Abdulla Şaiq adına 54 saylı tam orta məktəbi bitirib.

2013–2017-ci illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasında "Nəqliyyat servisi (su nəqliyyatı üzrə)" ixtisası üzrə təhsil alıb.

ADDA-nı bitirdikdən sonra müddətli həqiqi hərbi xidmətə çağırılıb, xidmət etdiyi müddətdə nümunəvi əsgər – mahir topçu kimi bir neçə dəfə mükafatlandırılıb.

Hərbi xidmətdən sonra şəhərimizin "dəniz qapısı" – Bakı Beynəlxalq Dəniz Ticarət Limanında dispetçer işləyib. İşgüzarlığı, bacarığı, səmimiyyəti ilə kollektivin sevimlisinə çevrilib.

Mirsafa Rzayev Vətən müharibəsinin ilk günü – sentyabrın 27-si səfərbərliyə cəlb olunaraq cəbhəyə yollanıb. Özü kimi igidlərlə bərabər neçə-neçə uğurlu döyüşün iştirakçısı olub. Əsgər yoldaşlarının dediyinə görə, ən çətin döyüşlərə də gülə-gülə, mahnı oxuya-oxuya getməyi xoşlayırmış.

2020-ci il oktyabrın 26-da Füzuli uğrunda gedən döyüşdə düşmənin raket zərbəsi nəticəsində aldığı ağır kəllə-beyin yarasından şəhadətə yüksəlib.

Atası vəfat edəndə Mirsafa kiçik olsa da, evin bütün qayğılarını çiyninə götürməyi bacarıb. Kiçik bacısı Təranənin dediyi kimi, sözün əsl mənasında ata əvəzi olub: "Mən həm qardaşımı, həm də sanki təzədən atamı itirdim. Qardaşımın yoxluğu mənim üçün bir dünyanın yoxluğu deməkdir. Ömrümün sonuna qədər gözlərim onu axtaracaq. Hər işimdə mənə dəstək olurdu. Heç vaxt atasızlığı mənə hiss etdirmədi. Heç kim onun yerini doldura bilməyəcək mənim üçün".

Xalqımızın igid oğlu Mirsafa Rzayev ölkə başçısı cənab İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.



Ələkbər İsgəndər oğlu Ələsgərov



“Vətən uğrunda” medalı

“Füzulinin azad olunmasına görə” medalı

“Öncə Vətən!” deyən oğul

Cəmi bir neçə il bundan əvvəl bəlkə də yalnız doğmalarının, tanışlarının sevimlisi idi Ələkbər. Bu gün isə... Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda qəhrəmanlıqla döyüşən və şəhidlik zirvəsinə ucalan bu nur üzlü igidlə bütün Azərbaycan fəxr edir.

Azərbaycanın Milli Qəhrəmanı, general-mayor Polad Həşimov şəhidlik zirvəsinə ucalanda könüllü Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Nəsimi rayon şöbəsinə müraciət edib. Vətən müharibəsinin ilk günündən döyüşlərə atılıb.

Top komandiri olan Ələkbər 2020-ci il oktyabrın 1-də Füzuli–Cəbrayıl istiqamətində gedən qızğın döyüşdə qəhrəmancasına əbədiyyətə qovuşub. Ən çətin günlərdə də üzündən təbəssüm əskik olmayan Ələkbər şəhidlik zirvəsinə ucaldıqdan sonra polkovnik-leytenant Zaur Cəfərov qəhrəmanın adını tankın uzərinə yazıb. Təkcə bu fakt Ələkbərin igidliyi, necə döyüşdüyü barədə çox şey deyir...

Uşaq vaxtlarından ASCO-nun Xəzərdə üzən müxtəlif təyinatlı gəmilərini seyr etməkdən yorulmayan Ələkbərin ən böyük arzularından biri tikəcəyi gəmilərin dünya sularında üzdüyünü görmək-eşitmək olub.

Dənizə, ləngərli gəmilərə marağı isə təsadüfi deyildi. Dənizçi övladı olması ilə fəxr edirdi. Atasının söz-söhbətlərindən sevmişdi dənizi. Sonra o, qardaşı Tərlanı eyni qaydada “yoldan çıxarmışdı”. Evdəkilər xəbər tutanda Tərlan artıq Azərbaycan Dənizçilik Kollecinin tələbəsi idi.

Ailənin ilk övladı olan Ələkbər rəşadətli Ordumuzun sıralarına çağırılmazdan 10 gün əvvəl nişanlanıbmış. Min gözəlin içindən bir gözəl seçibmiş... Görünür bizə qanla keçən Vətən sevgisi digər sevgilərdən daha güclüdür. Yəqin elə buna görə işğal altında olan torpaqlarımızı yağı tapdağından xilas etmək üçün könüllü cəbhəyə getmək istədiyini dilə gətirəndə də, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Nəsimi rayon şöbəsinə üz tutanda da heç kəs onu fikrindən daşındırmağa çalışmayıb.

Ələkbər isə Vətənə sonsuz sevgisi ilə dünyanın ən gözəli hesab etdiyi nişanlısı da daxil olmaqla bütün sevdiklərinə həm də başucalığı gətirdi. Elə bu sevgi də onu həmişə yaşadacaq: doğmalarının qəlbində istiqanlı və qayğıkeş övlad kimi, silahdaşlarının xatirəsində mərd, qorxmaz döyüşçü kimi, xalqımızın yaddaşında qanı ilə şanlı tarix yazan igidlərimizdən biri kimi!

Cəsur əsgər Ələkbər Ələsgərov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüşlərdə göstərdiyi şücaətə görə Prezident İlham Əliyevin sərəncamları ilə ölümündən sonra “Vətən uğrunda” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif edilib.



Əfqan Hüseyn oğlu Axundov



“Vətən uğrunda” medalı

“Cəsur döyüşçü” medalı

“Suqovuşanın azad olunmasına görə” medalı

Vətən sevgisi ilə döyünən ürəyinin üstündə üçrəngli bayrağımızı gəzdirən igid

Vətən müharibəsində torpaqlarımızı erməni işğalçılarından azad edərkən şəhidlik zirvəsinə ucalan igid dənizçi döyüşçülərdən biri də Əfqan Axundovdur. Hər bir azərbaycanlı kimi, onun da ən böyük arzusu ölkəmizin ərazi bütövlüyünün təmin olunması, üçrəngli bayrağımızın yağı tapdağı altında olan bütün əzəli torpaqlarımızda dalğalanması idi. Vətən sevgisi ilə döyünən ürəyinin üstündə də üçrəngli bayrağımızı gəzdirirmiş ki, qalalar qalası Şuşada özü sancacaq.

Əfqan Hüseyn oğlu Axundov 2000-ci il fevralın 16-da Salyan rayonunda anadan olub. Salyan şəhərində Aşıq Pünhan adına 1 saylı humanitar fənlər təmayüllü məktəb-liseyin 9-cu sinfini bitirərək, Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə daxil olub. Bu təhsil ocağında "Gəmilərin təmiri" ixtisasına yiyələnib.

Həyatı sevib, dostcanlı, qohumcanlı olub.

2020-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb, əsgər yoldaşları və zabitlər arasında cəsarəti və qorxmazlığı ilə dərin hörmət qazanıb.

Əsgər Əfqan Axundov rəşadətli Ordumuzun sözlə başa düşməyən, işğal altında saxladığı torpaqlarımızdan öz xoşu ilə çıxmayan düşmənin üzərinə bir gün Zəfər yürüşünə çıxacağına əmin idi. Bu yürüşün onun xidmət dövrünə təsadüf etməsi isə ikiqat ürəyincə olub.

Cəbhə xəttində həqiqi hərbi xidmət etdiyindən 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsinin ilk günündən döyüşə atılıb və xain qonşularımızı əzəli torpaqlarımızdan qaçmağa məcbur edən neçə-neçə uğurlu əməliyyatlarda şücaəti ilə fərqlənib.

Oktyabrın 16-da Suqovuşan uğrunda gedən qızğın döyüşlərin birində şəhidlik zirvəsinə ucalıb, lakin bir müddət nəşini məkrli düşmənin fasiləsiz atəş altında saxladığı mövqedən çıxarmaq mümkün olmayıb. Uğrunda canından keçdiyi torpağa oktyabrın 29-da tapşırılıb.

– Balam müddətli həqiqi hərbi xidmətdən 63 gün tez gəldi, – deyir anası Xoşgül xanım. – Tərxisinə o qədər qalmışdı. Əfqan deyirdi ki, qayıdanda göstərdiyi şücaətə görə hamı onu ayaq üstə qarşılayacaq. Elə də oldu. Müqəddəs üçrəngli bayrağımıza bükülü tabutu gələndə ehtiramdan bütün şəhər ayaq üstə idi...

Özü hər kəsdən çox inandığı Böyük Qələbə sevincini yaşaya bilməsə də, ruhu şaddır. Çünki çiyin-çiyinə vuruşduğu silahdaşları ən böyük arzusunu yerinə yetirdilər: Şuşada, Cəbrayılda, Kəlbəcərdə, Laçında... müstəqil Azərbaycanın bayrağı dalğalanır.

Bu dünyada hər kəsin ucala bilməyəcəyi bir zirvə var. Əfqan Axundovun fəth etdiyi zirvəyə ucala biləni sonra xalq özü o zirvədə saxlayır. Həm də əbədi!

İgid əsgər Əfqan Axundov ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüşlərdə göstərdiyi igidlik və şücaətə görə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.



Allahverdi Bəhram oğlu Novruzov



“Vətən uğrunda” medalı

“İgidliyə görə” medalı

“Füzulinin azad olunmasına görə” medalı

Ölməzliyə qovuşmağa tələsirmiş...

Bir atanın təkcə dayağı, bir ananın yalnız gözünün çırağı, bir bacının ancaq iftixarı deyildi. Hər birinin cəmi 26 bahar görən Allahverdi ilə bağlı neçə arzu-diləyi vardı.

Halal çörəklə böyüyən Allahverdinin isə həyatda ən böyük arzusu müstəqil Azərbaycanımızı bütöv görmək idi. Uzun illər erməni işğalı altında olan əzəli torpaqlarımızın geri qaytarılması üçün canından keçməyə hazır idi. Keçdi də. Zəfərimizlə başa çatan 44 günlük Vətən savaşında məhz Allahverdi kimi igidlərimizin sayəsində Odlar yurdu bütövlüyünə qovuşdu...

Allahverdi Bəhram oğlu Novruzov 1994-cü il mayın 17-də Salyanda dünyaya göz açıb.

2011-ci ildə Salyan şəhərindəki Nizami Gəncəvi adına 2 saylı tam orta məktəbi bitirib.

Həmin ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının "Dəniz naviqasiyası mühəndisliyi" ixtisasına daxil olub.

2017-ci ildə Ordu sıralarına yollanıb. Müddətli həqiqi hərbi xidmət zamanı kəşfiyyatçı bacarığına yiyələnib. Qüsursuz xidməti təşəkkürnaməyə layiq görülüb.

2018-ci ildə Ordudan tərxis olunduqdan sonra mühafizəçi işləyib. Bunun da öz tarixçəsi var. Sən demə, aylarla üzünü görməyəcəkləri üçün valideynləri Allahverdinin dənizdə işləməsinə razı deyilmişlər. Yalvar-yaxar ediblər ki, o da hər axşam evə gələ biləcəyi bir işin qulpundan yapışsın. Nə çox quruda belə işlər?! Allahverdi də onunla nəfəs alan valideynlərinin qəlbini qırmamağa çalışır. Bir müddət dənizdə işləmək fikrindən daşınır. Taleyin hökmünə baxın. Yeganə oğullarını hər gün görə bilməyəcəkləri üçün dənizə buraxmaq istəməyən atası Bəhram kişi, anası Məlahət xanım müharibənin ölümlü-itimli olduğunu bilsələr də, haqq savaşında "Təki Vətən sağ olsun!", – deyə arxasınca su atıblar.

Xalqımızın igid oğlu Allahverdi Novruzov müharibənin ilk günündən canını Vətən uğrunda sipər edib və savaşın üçüncü günü şəhadətə ucalıb.

Cəsur əsgər Allahverdi Novruzov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüşlərdə göstərdiyi şücaətə görə ölkə rəhbəri cənab İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.



Kamil Ələddin oğlu Kərimov



“Vətən uğrunda” medalı

“Kəlbəcərin azad olunmasına görə” medalı

Hər şeyin sərhədini bilən Kamilin Vətən sevgisi sərhəd tanımırdı

Yüz igidə dəyən oğul olub Kamil. Uşaqlıqdan davranışı, qabiliyyəti ilə seçilib. Yaxşı oxuyub, pis vərdişlərdən uzaq olub. Tərbiyəsi, təhsili ilə ailəsinə, müəllimlərinə hər zaman başucalığı gətirib. Valideynlərini çox sevib, heç vaxt onların bir sözünü iki eləməyib. Bununla belə, iki il əvvəl, ali dənizçi təhsili olan Kamilin müddətdən artıq xidmət edən hərbi qulluqçu (MAXE) olmaq istədiyini eşidəndə, qərarının əleyhinə getməyiblər. Getsəydilər belə, yəqin ki, heç nə dəyişməyəcəkdi. Çünki Kamilin Vətən sevgisi sərhəd tanımırdı...

Kamil Ələddin oğlu Kərimov 1995-ci il iyulun 2-də Qazax rayonunun Ürkməzli kəndində dünyaya göz açıb.

Orta məktəbi bitirdikdən sonra 2013-cü ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının "Gəmiqayırma və gəmi təmiri" ixtisasına qəbul olub.

Həqiqi hərbi xidmətdən sonra müddətdən artıq xidmət edən hərbi qulluqçu kurslarında oxuyub. Onun MAXE olmaq istəyinin əsas səbəbi torpaqlarımızın 20 faizinin uzun illər düşmən tapdağında olması idi. Rəşadətli Ordumuzun bir gün ölkəmizin ərazi bütövlüyünün təmini üçün savaşa atılacağına əmin idi. Onda peşəkar hərbçi kimi daha faydalı ola biləcəyini düşünüb. Atası Ələddin kişi, anası Həbibə xanım da Kamili daha çox Vətən üçün böyütdüklərinin fərqində idilər.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda düşmənin hücumlarına sinəsini qalxan edən igidlərimizdən olub Kamil.

Cəbhəyə gedəndə valideynlərinə "Özünüzə yaxşı baxın. Mənə görə narahat olmayın, sağ-salamat qayıdacağam", – demişdi. İlk və son dəfə sözünün üstündə durmadı... Murovdağ uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucaldı.

İgid çavuş Kamil Kərimov ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüşlərdə göstərdiyi şücaətə görə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Doğulduğu Qazax rayonunda torpağa tapşırılıb.



DÜŞMƏNƏ QAN UDDURAN DƏNİZÇİLƏR



Nəzrəddin Murad oğlu Əhmədzadə



“Füzulinin azad olunmasına görə” medalı

“Qubadlının azad olunmasına görə” medalı

“Laçının azad olunmasına görə” medalı

“11 yaşımda ayrıldığım evimizə qayıtmaq möcüzə kimi gəlirdi”

Zəfərlə bitən Vətən müharibəsi bizə sonsuz sevinc bəxş etməklə yanaşı, həm də torpaqlarımızın azadlığı uğrunda canından keçməyə hazır olan neçə-neçə igidi tanıtdı. “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC sədrinin müavini Nəzrəddin Əhmədzadə də haqq savaşımızın ilk günündən silaha sarılan Vətən övladları arasında idi.

Nəzrəddin Murad oğlu Əhmədzadə 1982-ci ildə Qubadlı rayonunun Dəmirçilər kəndində dünyaya göz açıb. 2003-cü ildə Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin bakalavr, 2005-ci ildə magistr pilləsini, 2012-ci ildə hüquq fakültəsini bitirib. 2012-ci ildən Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi rəisinin rejim üzrə müavini, 2014-cü ilin iyunundan “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC sədrinin rejim üzrə müşaviri vəzifələrində çalışıb.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 2 sentyabr tarixli Sərəncamı ilə “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC sədrinin müavini təyin edilib.

Doğulduğu ata-baba ocağından uşaq olanda məcburi köçkün kimi ayrılan ASCO sədrinin müavini, ehtiyatda olan zabit Nəzrəddin Əhmədzadə doğma yurduna, el-obasına, Qarabağ torpağına yenidən qayıtmağın sevincini bölüşərkən deyib:

– İkinci Qarabağ savaşı düşmən təxribatı nəticəsində 2020-ci il sentyabrın 27-də başladı. Elə həmin gün qərar verdim ki, müharibədə iştirak etməliyəm. Sentyabrın 28-də könüllü olaraq rəşadətli Ordumuzun sıralarına qoşuldum. Bu, mənim üçün qürurverici idi. Çünki, təxminən 30 il işğalda olan doğma Qarabağımıza, doğulub, boya-başa çatdığım, daha doğrusu, 11 yaşımadək çörəyini yediyim, suyunu içdiyim, havasını udduğum Qubadlıya qovuşmağa tələsirdim.

Döyüş yolu Cəbrayılın Cocuq Mərcanlı kəndindən, Lələtəpə yüksəkliyindən başlayıb. Sonra Mehdili, Nüzgar, Şəybəy, Quycaq, Horovlu kəndlərindən... keçib. Cəbrayıl işğaldan azad edildikdən sonra Daş Veysəlli, Minbaşılı, Hovuslu, Sofulu, Dağ Tumas, Dağ Maşanlı istiqamətində irəliləyiblər. Nəhayət, Qubadlıya ayaq basıb. Balasoltanlı, Xanlıq kəndləri və Qubadlı rayonunun mərkəzi uğrunda döyüşlərdə iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə “Füzulinin azad olunmasına görə”, “Qubadlının azad olunmasına görə” və “Laçının azad olunmasına görə” medallarına layiq görülüb.

Nəzrəddin Əhmədzadə deyir ki, bu Qələbə bizim birliyimizin nəticəsi idi. Və əlbəttə ki, ölkə başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətli addımı, uğurlu siyasəti nəticəsində biz şanlı Zəfəri qazandıq. Birliyimiz, bütövlüyümüz əbədi olsun!



Rəşad Kamil oğlu Hüseynov



“Füzulinin azad olunmasına görə” medalı

Müdrik dövlət başçımız daha qüdrətli və daha təhlükəsiz bir Azərbaycan inşa edir

"Biz çox xoşbəxt xalqıq. Çünki cənab İlham Əliyev kimi hər şeyin vaxtını dəqiq bilən müdrik dövlət başçımız, qətiyyətli Ali Baş Komandanımız var. Məhz onun sərkərdəlik məharəti xalqımıza Zəfər sevincini yaşatdı. Yenilməz Ordumuz işğal altında olan əzəli torpaqlarımızı qısa müddətdə geri qaytarmaqla ölkəmizin ərazi bütövlüyünü təmin etdi. Məhz möhtərəm prezidentimizin qətiyyəti, cəsarəti sayəsində bu gün başıuca gəzirik, hər yerdə fəxrlə "Mən Azərbaycanlıyam!" deyirik."

Bu sözləri "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də şöbə rəisi işləyən Rəşad Hüseynov söyləyib.

Rəşad Kamil oğlu Hüseynov 1977-ci il fevralın 2-də Bakı şəhərində dünyaya göz açıb.

Orta təhsilini Yasamal rayonundakı 21 saylı tam orta məktəbdə alıb. 2001-ci ildə Azərbaycan Respublikası Prezidentinin yanında Dövlət İdarəçilik Akademiyasını bitirib.

2003-cü ildən 2005-ci ilədək Tərtər rayonundakı "N" saylı hərbi hissədə xidmət edib və baş leytenant kimi tərxis olunub.

ASCO-nun Məxfi rejim və hərbi səfərbərlik şöbəsinin rəisi vəzifəsində çalışır.

Qismən səfərbərlik elan edildikdən iki gün sonra – 2020-ci il sentyabrın 29-da Ordu sıralarına çağırılıb.

Şərəfli döyüş yolu Cəbrayıldan, Füzulidən, daha sonra Hadrutdan keçib.

Kapitan Rəşad Hüseynovun sinəsini ölkə rəhbəri cənab İlham Əliyevin Sərəncamı ilə təltif edildiyi "Füzulinin azad olunmasına görə" medalı bəzəyir.

Rəşad Hüseynovun dilindən çıxan bu sözlərlə razılaşmamaq mümkün deyil: "Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyünü təmin etməklə, yurd həsrətimizə birdəfəlik son qoyan müdrik dövlət başçımız bu gün daha müqəddəs bir işlə – gələcək nəsillər üçün daha qüdrətli və daha təhlükəsiz bir Azərbaycan inşa etməklə məşğuldur. Bu işdə Tanrı ona yar olsun!"

Amin!



Emin Süleyman oğlu Əlizadə



“Suqovuşanın azad olunmasına görə” medalı

Nə qədər ki, Vətən uğrunda canından keçməyə hazır igidlərimiz var, düşmənimiz də "Qarabağ Azərbaycandır!" deyəcək

"Rəşadətli Ordumuzun Vətən müharibəsində qazandığı parlaq Qələbə ilə təkcə mən yox, bütün Azərbaycan fəxr edir. Xalqımıza bütöv Azərbaycan bəxş edənlərin igidliyinə, cəsarətinə heyran qalmamaq mümkün deyil."

Bu sözlər ASCO-da departament rəisinin müavini işləyən və İkinci Qarabağ savaşında zabit kimi döyüşən Emin Əlizadənin dilindən çıxıb.

Emin Süleyman oğlu Əlizadə 1979-cu il sentyabrın 18-də Bakı şəhərində anadan olub.

Bakıda 107 saylı tam orta məktəbdə təhsil alıb.

2001-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasını "İnformatika və hesablama texnikası" ali peşə istiqaməti üzrə bakalavr dərəcəsi ilə bitirib.

2002-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. Ordudan ehtiyatda olan zabit kimi tərxis edilib.

2014-cü ildən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də çalışır, İnformasiya texnologiyaları departamentinin rəis müavinidir.

Vətən müharibəsinin ilk günündən ehtiyatda olan zabit kimi rəşadətli Ordumuzun sıralarına qatılıb. Tərtər, Suqovuşan, Talış yüksəkliyi istiqamətində gedən döyüşlərdə iştirak edib.

Leytenant Emin Əlizadəni o günlərə qaytararkən dedi:

– Heç bir döyüş asan keçmədi. Həddindən artıq hiyləgər olan düşmən bizimlə yalnız və yalnız çirkin üsullarla savaş aparırdı. Bizim bölmələrimiz ağır artilleriya bölmələri olduğuna görə, məsuliyyətimiz də böyük idi: irəlidə gedən piyadaların daha təhlükəsiz hərəkət edə bilmələri üçün şərait yaratmalıydıq və bu vəzifəni layiqincə yerinə yetirdik.

Əsgər və zabitlərin çox yüksək döyüş ruhunun Qələbəyə gedən yolu qısaltdığına toxunan Emin daha sonra bildirdi:

– Yenilməz Ordumuz bütün dünyaya sübut etdi ki, Qarabağ Azərbaycandır! Nə qədər ki, Vətən yolunda, ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçməyə hazır igidlərimiz var, düşmənimiz də "Qarabağ Azərbaycandır!" deyəcək.

Leytenant Emin Əlizadə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.



Oyrad Məmmədrəhim oğlu Abdullayev



“Cəbrayılın azad olunmasına görə” medalı

Dar günündə Vətənə lazım olduğuna sevinən direktor

"Vətən müharibəsinin ilk günündən əlinə silah alan hər kəs çiyinlərini necə məsuliyyətli missiyanın altına verdiyini yaxşı anlayırdı. Xalq cəsur, qəhrəman oğullarından Qələbə gözləyirdi. Və həm də otuz illik bütün ağrı-acılarına birdəfəlik son qoyacaq Qələbə! Rəşadətli Ordumuz da Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə xalqımıza misli görünməmiş Qələbə ərməğan etdi."

Bu sözləri ASCO-nun Xəzər Dəniz Nəqliyyatı Layihə-Axtarış və Elmi-Tədqiqat İnstitutunun direktoru Oyrad Abdullayev söyləyib.

Oyrad Məmmədrəhim oğlu Abdullayev 1974-cü il mayın 1-də Bakı şəhərində dünyaya göz açıb.

1988-ci ildə daxil olduğu Bakı Maşınqayırma Texnikumunu 1993-cü ildə bitirib.

1993-cü ildən 1999-cu ilədək Azərbaycan Texniki Universitetinin bakalavr və magistr pillələrində təhsil alıb.

2011–2013-cü illərdə oxuduğu Həştərxan Dövlət Texniki Universitetini fərqlənmə diplomu ilə bitirib.

2013-cü ildən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də çalışır.

Xəzər Dəniz Nəqliyyatı Layihə-Axtarış və Elmi-Tədqiqat İnstitutunun direktorudur.

Füzuli, Cəbrayıl, Hadrut, Zəngilan istiqamətlərində gedən döyüşlərdə zabit kimi iştirak edən baş leytenant Oyrad Abdullayev Vətən müharibəsində hər şeyin saat mexanizmi kimi dəqiq işləməsindən, Ordumuzdakı ruh yüksəkliyindən, gənclərin qorxmazlığından, döyüşə böyük həvəslə can atmalarından, doğma torpaqlarımızın mənfur düşməndən azad edilməsinin xalqımıza gətirdiyi başucalığından söz açır...

– Ulu öndərimiz Heydər Əliyevin layiqli davamçısı, Ali Baş Komandanımızın müəllifliyi ilə qazandığımız bu Qələbə həm də ədalətin Qələbəsi idi, – deyir Oyrad müəllim. – Torpaqlarımız azad olunanda keçirdiyimiz hisləri isə ifadə etməyə söz tapmıram – qeyri-adi, müqəddəs hislər idi. Vətən müharibəsi təkcə Azərbaycan Ordusunun qüdrətini, yenilməzliyini nümayiş etdirmədi. Eyni zamanda, güclü dövlətlərin belə savaşla bağlı mövcud müdafiə-hücum sistemlərinə baxışlarını tamam dəyişdi. Əminəm ki, möhtərəm prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə geri qaytarılmış torpaqlarımızda tezliklə həyat da əvvəlki axarına düşəcək. Otuz il həsrəti ilə yaşadığımız Qarabağdan bundan sonra yalnız gülüş səsləri gələcək.

Özü haqqında danışmağı xoşlamasa da, bu kəlmə Xəzər Dəniz Nəqliyyatı Layihə-Axtarış və Elmi-Tədqiqat İnstitutunun direktoru Oyrad Abdullayevin dilindən çıxıb: "Sevinirəm ki, dar günündə Vətənə lazım oldum."

Baş leytenant Oyrad Abdullayev Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Cəbrayılın azad olunmasına görə" medalına layiq görülüb.



Atabala Mahir oğlu Kərimli



“Xocavəndin azad olunmasına görə” medalı

“Qubadlının azad olunmasına görə” medalı

Müharibəyə gedəndə də, vuruşanda da yalnız Qələbə haqqında düşünən mühəndis-konstruktor

"Havadarlarının köməyi ilə ərazimizin beşdə birini işğal edən xain ermənilər uzun illər əzəli torpaqlarımızda at oynatdılar. Yeraltı, yerüstü sərvətlərimizi taladılar. Dünyanın böyük gücləri də haqq səsimizə səs vermək, faşist ermənilərdən işğalçılıq siyasətinə son qoymalarını tələb etmək əvəzinə, haqdan, ədalətdən, insafdan tamam uzaq bir yol tutdular: bizi mövcud vəziyyətlə barışdırmağa çalışdılar. Barışmayacağımızı, bir qarış torpağımızdan belə keçməyəcəyimizi bilə-bilə! Və bir gün müdrik dövlət başçımızın da, xalqımızın da səbri tükəndi..."

ASCO-nun Xəzər Dəniz Nəqliyyatı Layihə-Axtarış və Elmi-Tədqiqat İnstitutunda çalışan Atabala Kərimlinin bu sözləri təkcə onun deyil, hər birimizin o dövrdə yaşadığı ağrı-acıları dəqiq ifadə edir.

Atabala Mahir oğlu Kərimli 1991-ci il noyabrın 28-də Sabirabad şəhərində anadan olub.

2011–2015-ci illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasında "Dəniz texnikası və texnologiyası mühəndisliyi" ixtisası üzrə bakalavr təhsili alıb. 2018-ci ildə isə "Gəmiqayırma" ixtisası üzrə magistr pilləsini bitirib.

2016-cı ildən Xəzər Dəniz Nəqliyyatı Layihə-Axtarış və Elmi-Tədqiqat İnstitutunda mühəndis-konstruktor vəzifəsində çalışır.

Sentyabrın 29-dan ön cəbhədə olub, minaatan batareyanın əsgəri kimi Zəngilan və Xocavənd rayonları istiqamətlərində gedən döyüşlərdə, sonralar Laçın və Qubadlı rayonlarının müdafiə və mühafizəsində iştirak edib.

Deyir ki, müharibəyə gedəndə də, vuruşanda da yalnız Qələbə haqqında düşünürdük. İkinci Qarabağ savaşında qardaşlıq və dostluğun ən bariz nümunəsini gördük. Döyüş zamanı hər əsgər özündən daha çox silahdaşını qoruyurdu. Bəzən bir əsgər bir neçə hərbçi yoldaşının işini elə böyük şücaətlə yerinə yetirirdi ki... Qətiyyətli Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi altında qazandığımız bu Qələbə təkcə xalqımıza sonsuz sevinc bəxş etmədi, həm də yenilməz Ordumuzun nəyə qadir olduğunu bütün dünyaya göstərdi.

Atabala Kərimli ölkə rəhbərinin müvafiq sərəncamları ilə "Xocavəndin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə"medalları ilə təltif edilib.



Dəryanur Azad oğlu Heybətov



“Cəsur döyüşçü” medalı

“Xocavəndin azad olunmasına görə” medalı

Düşmən əsgər və zabitlərimizin Vətən sevgisindən qaynaqlanan yüksək döyüş ruhundan daha çox qorxurdu

ASCO-nun Dəniz Nəqliyyatı Donanmasının "Professor Əziz Əliyev" gəmisinin ikinci mexaniki Dəryanur Azad oğlu Heybətov Vətən müharibəsində adını tarixə yazdıran igidlərimizdəndir. Müharibənin qanlı-qadalı olduğunu bilsə də, ölkəmizin ərazi bütövlüyünün bərpası üçün canından keçməyə hazır olduğundan döyüşlərə ilk gündən qatılıb. Füzulinin Aşağı Veysəlli kəndindən başlayıb döyüş yolu. Xocavənd istiqamətində qızğın döyüşlərdə iştirak edib. 2020-ci il oktyabrın 8-də düşmən üzərinə növbəti hücum zamanı yaralanıb.

44 günlük Vətən müharibəsində əldə olunan Böyük Qələbə ilə bağlı təəssüratlarını bölüşərkən Dəryanur Heybətov deyib:

– Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin əks-hücum əmrindən sonra Ordumuzun qısa müddətdə bu qədər irəliləməsinin başlıca səbəbi əzəli torpaqlarımızdan güc alan əsgər və zabitlərimizin Vətən sevgisi idi. Onların bu sevgidən qaynaqlanan yüksək döyüş ruhu, sarsılmaz əzmi düşməni silahlarımızdan daha çox qorxudurdu. Təsəvvür edin, yaralanan əsgərlərimiz döyüş meydanını tərk etmir, Vətən uğrunda son damla qanına qədər vuruşmaq istəyirdilər. Ordan-burdan muzdlu döyüşçülər yığmaqla kəm-kəsirini düzəltmək istəyən düşmən bunları böyük təəccüblə izləyir, bəzən isə Azərbaycan əsgərləri ilə üz-üzə gəlməkdənsə, qaçmağa üstünlük verirdi.

İgid dənizçi, baş leytenant Dəryanur Heybətov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə "Cəsur döyüşçü" və "Xocavəndin azad olunmasına görə" medallarına layiq görülüb.

Dəryanur Heybətov 1993-cü il avqustun 23-də Salyanda anadan olub.

2012–2016-cı illərdə ADDA-da "Gəmi energetik qurğuları və onların istismarı" ixtisasına yiyələnib.

Əmək fəaliyyətinə 2016-cı ildə böyük motorçu kimi başlayıb. Sonra üçüncü, ikinci mexanik işləyib...



Nəbi Əziz oğlu Qurbanlı



“Cəbrayılın azad olunmasına görə” medalı

“Qubadlının azad olunmasına görə” medalı

"Düşmənin atıb qaçdığı silahların sayı-hesabı yox idi..."

"Qələbəmizdən sonra düşmən məğlubiyyətini bəzən silah-sursatının azlığı ilə izah etməyə çalışırdı. Sizi inandırım ki, Ermənistan silahlı birləşmələrinin silah-sursatı heç də bizdən az deyildi. Maraqlı ölkələr işğalçını qədərindən artıq hər cür silahla təmin etmişdilər. Təkcə onlara "qara qaşlarına görə" bağışlanılan silahların dəyəri milyardlarla ölçülürdü. Azərbaycan Ordusu isə ərazi bütövlüyümüzün təminə "minimum itki, maksimum nəticə" prinsipi ilə hazırlaşmışdı. Ən müasir silahların, pilotsuz uçuş sistemlərinin əldə edilməsinə xüsusi diqqət yetirmişdi. Savaşa yeni texnoloji yanaşma elə ilk saatlardan özünü doğrultdu. Yeni ərazilərimizi işğal etmək istəyi ilə hücuma keçən düşmənə qısa vaxt kəsiyində endirilən dəqiq cavab zərbələri onları elə aciz duruma saldı ki, baxa-baxa, yana-yana qaldılar..."

İkinci Qarabağ savaşında keçdiyi şərəfli döyüş yolu ilə haqlı olaraq fəxr edən ASCO-nun Dəniz Nəqliyyatı Donanmasının işçisi Nəbi Qurbanlının bu sözləri ilə razılaşmamaq mümkün deyil.

Nəbi Əziz oğlu Qurbanlı 1993-cü il yanvarın 13-də Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində anadan olub. Cəbrayıl rayonu 8 saylı tam orta məktəbdə təhsil alıb. 2011–2015-ci illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasının "Dəniz naviqasiyası və menecmenti" fakültəsini "Nəqliyyat servisi" ixtisası üzrə bitirib.

2016-cı ilin fevralından "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Dəniz Nəqliyyatı Donanmasında yüklərin daşınması üzrə ekspeditor vəzifəsində çalışır.

Vətən müharibəsi başlayanda döyüşlərə könüllü qatılıb. Bunu özünə borc bilib. Cəbrayıl və Qubadlı rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə hesablayıcı manqa komandiri kimi iştirak edib.

Vuruşduğu divizionun bütün heyəti əsasən çağırışçılar və könüllülərdən ibarət olub. Döyüşə Cəbrayıl rayonunun Dağ Tumas kəndi ətrafından başlayıblar. İlk atışlardan da düşmənin canına elə qorxu salıblar ki... Xeyli canlı qüvvəsini və texnikasını məhv ediblər. Qubadlı rayonunun Qaracallı kəndinin yağılardan təmizlənməsi əməliyyatlarında da namərd qonşularımıza göz açmağa imkan verməyiblər.

– Torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə iştirak etdiyimə görə qürur hissi keçirirəm, – deyir Nəbi Qurbanlı. – Müharibədə hər şey ola bilər: sən yaralana bilərsən, şəhid ola bilərsən... Döyüşlərə könüllü kimi qatılmamışdan əvvəl hamısını gözümün önünə gətirmişdim. Özüm ailəliyəm və bir qızım var. Uşaqlarımızın təhlükəsiz şəraitdə yaşaması üçün bu döyüşlər və bu Zəfər bizə çox lazım idi. Şükürlər olsun ki, biz düşməni torpaqlarımıza soxulmağına peşman etdik – Qələbə çaldıq!

Kiçik çavuş Nəbi Qurbanlı Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.



Toğrul Beytulla oğlu Hüseynzadə

Bu savaş Qələbəmizlə bitməli idi…

"Bu savaşı çoxdan gözləyirdik. Elə buna görə, ön cəbhəyə can atan hədsiz dərəcədə çox idi. Əlinə silah alan hər bir azərbaycanlı isə yaxşı anlayırdı ki, bu haqq savaşımız yalnız və yalnız işğal altında olan əbədi və əzəli torpaqlarımızın azad edilməsi ilə bitməlidir. Şükürlər olsun ki, elə də bitdi."

Bu sözləri dənizçi Toğrul Hüseynzadə Vətən müharibəsindəki Qələbəmizdən danışarkən söyləyib.

Toğrul Beytulla oğlu Hüseynzadə 1995-ci il aprelin 10-da Astarada anadan olub.

2012–2016-cı illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasında təhsil alıb.

2018-ci ildən ASCO-nun Dəniz Nəqliyyatı Donanmasının gəmilərində kapitanın növbə köməkçisi işləyir.

Toğrul Hüseynzadə qəti əmindir ki, hər kəsin ən müqəddəs borcu doğulduğu torpağı qorumaqdır. Özü də məhz bu inamla İkinci Qarabağ müharibəsi başlayanda könüllü Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə üz tutub. Zəruri təlimlərdən sonra döyüş bölgəsinə göndərilib. Kəşfiyyat taborunda xidmət edib. Asan olmayan döyüş yolu keçib.

Xocavəndin, Ağdamın və Qubadlının azad olunması əməliyyatlarında iştirak edən Toğrul Hüseynzadə deyir ki, heç bir film müharibə dəhşətlərini olduğu kimi əks etdirə bilməz. Hər qarış torpağımız uğrunda ölüm-dirim savaşı gedirdi. Müzəffər Ordumuz Ali Baş Komandanımızın rəhbərliyi ilə çox fərqli döyüş üslubu ilə düşməni darmadağın etdi.



Vüsal Güloğlan oğlu Məlikov



“Laçının azad olunmasına görə” medalı

“Özgə torpaqlarının dəlisi olan düşməni bu sevgisinə görə peşman etdik”

Dənizçi Vüsal Məlikov yenilməz Ordumuzun Zəfər yürüşündən danışarkən xüsusi ilə vurğulayıb ki, sınaq günlərimizdə hər kəs Qələbə üçün əlindən gələni etməyə çalışırdı. Səhhəti, yaşı imkan verməyənlərin isə duası bizimlə idi.

Vüsal Güloğlan oğlu Məlikov 1991-ci il mayın 15-də Ağsu rayonunun Hacıqədirli kəndində dünyaya göz açıb.

Ağsu şəhərindəki Soltan Umbayev adına 2 saylı tam orta məktəbdə təhsil alıb.

2011-ci ilin martından Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin Dəniz Nəqliyyatı Donanmasında çalışır. Son illər sular qoynunda səfərlərə “Mahmud Rəhimov” gəmisinin motorçusu kimi çıxır.

Oktyabrın 2-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən çağırış vərəqəsi alanda, Vüsal Məlikov da özgə torpaqlarının dəlisi olan düşməni peşman etmək üçün ön cəbhəyə gedəcəyinə sevinib. Oktyabrın 5-dən sıravi əsgər kimi Qubadlı və Laçın uğrunda gedən döyüşlərdə iştirak edib.

Vətən müharibəsində əsgəri borcunu layiqincə yerinə yetirdiyini sinəsini bəzəyən “Laçının azad olunmasına görə” medalı təsdiqləyir.

– Xalqımızın ən böyük arzusu 30 ilə yaxın işğal altında olan doğma torpaqlara qayıtmaq, ata-baba yurdlarında yaşamaq haqlarına sahib olmaq idi, – deyir Vüsal Məlikov. – Müdrik dövlət başçımız İlham Əliyev də xalqımızın bu arzusunun dinc yolla gerçəkləşdirilməsinə çox çalışdı. Yeni ərazilər işğal etmək xülyası ilə yaşayan düşmən isə razılaşmadı. Nəticədə dahi sərkərdəmizin rəhbərliyi ilə rəşadətli Ordumuz savaş yolu ilə əzəli torpaqlarımızı geri qaytardı. Sevinirəm ki, ölkəmizin ərazi bütövlüyünü təmin etmək kimi şərəfli missiyanı yerinə yetirərkən mən də yenilməz Ordumuzun sıralarında idim.



Anar Hafiz oğlu Behbudov

Bir-birindən cəsur övladları olan Vətən basılmaz!

"Azərbaycanın işğalla heç zaman barışmayacağını, torpaqlarının bir qarışını belə güzəştə getməyəcəyini yaxşı bilən namərd qonşularımız müxtəlif bəhanələrlə işğal dövrünü uzatmağa çalışırdılar. Hiyləgər yağının vaxt uzatmaq oyunu Ali Baş Komandanımızın dəmir yumruğu işə düşənədək davam etdi."

Bu fikri ASCO-nun "Səməd Vurğun" gəmisinin ikinci mexaniki Anar Behbudov iştirakçısı olduğu İkinci Qarabağ savaşından danışarkən deyib.

Anar Hafiz oğlu Behbudov 1989-cu il mayın 2-də Sumqayıt şəhərində dünyaya göz açıb.

2007-ci ildə Sumqayıtda Tofiq İsmayılov adına 29 saylı tam orta məktəbi bitirib.

2007–2011-ci illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasında "Gəmi mexaniki" ixtisasına yiyələnib.

2013-cü ilin aprelindən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində çalışır. İlk səfərinə Dəniz Nəqliyyatı Donanmasının "Abşeron" gəmisində motorçu kimi çıxıb. Sonralar müxtəlif gəmilərdə üçüncü mexanik işləyib. Son illər "Səməd Vurğun" gəmisinin ikinci mexaniki kimi ona olan inamı layiqincə doğruldur.

2020-ci il sentyabrın 21-də Silahlı Qüvvələrimizin təlimlərinə cəlb edilib. Müharibə başlayanda "N" saylı hərbi hissədə tankadrom rəisi olub. Silahdaşları ilə arxa cəbhədə yerləşən hərbi hissəni qoruyublar.

– Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında şanlı Ordumuzun 44 günlük Zəfər yürüşünün düşmənin acı məğlubiyyəti ilə bitməsi fərəhdən hər birimizin qəlbini dağa döndərdi, – deyir Anar Behbudov. – Bu müharibədə dünya həm də azərbaycanlıların doğma yurda sonsuz sevgisinin şahidi oldu. Belə övladları olan Vətən basılmaz ki!

Anar Behbudov 2020-ci il dekabrın 26-da Ordudan tərxis olunub. Fəxri fərmanla təltif edilib.



Namiq Muradağa oğlu Mövsümov

Xain qonşularımızın çirkin niyyətləri çirkli ürəklərində də qalacaq

"Nə qədər ki, Azərbaycanın onun uğrunda canından keçməyi bacaran övladları var, bir yağı torpaqlarımıza əl uzada bilməz. Nə qədər ki, Azərbaycan qadını tək oğlunu da ölüm-itim savaşına göndərəndə "Arxadan vurulsan, südümü sənə halal etmərəm"– deyir, xain qonşularımızın bizim ata-baba yurdumuz hesabına öz ərazilərini genişləndirmək kimi çirkin niyyətləri ürəklərində qalacaq. Mən özüm çətin sınaq günlərində xalqımızın böyüklüyünə, yurd sevgisinə həsəd apardım. Vətən müharibəsində ən yaxınını – həyat yoldaşını itirən Azərbaycan qadını da, oğlunu itirən ana da, qardaşını itirən bacı da əsgər və zabitlərimizə yalvarırdı ki, "Nə olur-olsun, siz barmağınızı tətikdən çəkməyin. Əzizlərimizin də qisasını almaq istəyirsinizsə, siz Qələbəyə kimi dayanmayın!"

Bu sözlər ASCO-nun gəmilərində mexanik işləyən və İkinci Qarabağ savaşının iştirakçısı olan Namiq Mövsümova məxsusdur.

Namiq Muradağa oğlu Mövsümov 1996-cı il yanvarın 5-də Siyəzən şəhərində anadan olub.

Siyəzəndə Mikayıl Müşfiq adına 2 saylı tam orta məktəbi bitirib.

2012–2016-cı illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasında "Dəniz texnikası və avadanlıqlarının istismarı mühəndisliyi" ixtisasına yiyələnib.

Ali təhsilni başa vurduğu 2016-cı ildə müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb.

Dənizçilik fəaliyyətinə 2018-ci ildə ASCO-da motorçu kimi başlayıb. 2019-cu ildən Dəniz Nəqliyyatı Donanmasının bir sıra gəmilərində növbə mexaniki işləyib.

İkinci Qarabağ müharibəsinin ilk günündə müvafiq qurumlara müraciət edərək könüllü ön cəbhəyə getmək istədiyini bildirib. Oktyabr ayında ehtiyat qoşunlarında təlimlərə cəlb edilib.

– Biz təlimlərə qatılanda qətiyyətli Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında rəşadətli Ordumuz artıq düşmənin nəfəsini kəsmişdi, – deyir Namiq Mövsümov. – Buna görə mənə düşmənlə açıq döyüşdə üz-üzə gəlmək qismət olmadı. Amma ölkəmizin ərazi bütövlüyü uğrunda canını fəda edənlərin arasında dostlarım da var idi. Onların qəhrəmanlığı hesabına əbədi və əzəli torpaqlarımıza qayıtdıq.



Şükür Müzəffər oğlu Mahmudzadə



“Suqovuşanın azad olunmasına görə” medalı

"Bu gün təkcə şəhidlərin deyil, Qarabağ həsrəti ilə dünyasını dəyişmiş bütün azərbaycanlıların ruhları şaddır"

Şükür Müzəffər oğlu Mahmudzadə 1995-ci il martın 28-də Sumqayıt şəhərində dünyaya göz açıb.

2001–2012-ci illərdə Sumqayıtdakı 16 saylı tam orta məktəbdə təhsil alıb.

2012-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasına daxil olub və 2016-cı ildə "Elektrik mexaniki" ixtisası üzrə bitirib. Sonra Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

2019-cu ildən ASCO-da çalışır. Dəniz Nəqliyyatı Donanmasının "Şahdağ" gəmisinin elektrik mexanikidir.

Vətən müharibəsi başlayan gündən döyüşə can atıb və könüllü cəbhəyə getmək istəyini əlaqədar qurumların rəsmi saytlarında qeydiyyatdan keçməklə təsdiqləyib. Çağırış vərəqəsi alan kimi böyük sevinclə silaha sarılmağa tələsib. Qismətinə sıravi əsgər kimi Ağdərə–Talış–Suqovuşan istiqamətində döyüşmək düşüb.

Çətin döyüşləri çox olub. Belə döyüşlərin birində Fərid Şamilov kimi neçə illik dostunu itirib. Sağ qalmaq şansının az olduğunu düşündüyü bir döyüşdən qabaq isə sevdiyi qıza zəng edib. Səsini sonuncu dəfə eşitmək istəyib. Başqa bir döyüşdən əvvəl daha yaxın olduğu hərbçi dostlarından xahiş edib ki, görsəniz ağır yaralanmışam, məni özünüzə yük etməyin, irəli gedin. Xalqımız bizdən Qələbə gözləyir.

– Ağdərə istiqamətində döyüşə gedəndə qəfildən bizim trayektoriyanı dəyişib Xocavəndin arxası ilə getməyi tapşırdılar, – deyir Şükür Mahmudzadə. – Bu əmr 30 dəqiqə geciksəydi, igidlərimizlə dolu maşınlarımız düz düşmən raketlərinin üstünə gedəcəkdi. Bütün bunlara baxmayaraq, bir əsgərimizin belə gözündə qorxu, tələş yox idi. Bu gün təkcə şəhidlərin deyil, Qarabağ həsrəti ilə dünyasını dəyişmiş bütün azərbaycanlıların ruhları şaddır. Çünki üçrəngli bayrağımız doğma Qarabağımızda dalğalanır. Qələbəmiz Azərbaycan xalqının nə qədər qürurlu xalq olduğunu, şanlı Ordumuzun yenilməzliyini bir daha təsdiqlədi. Sədr Rauf Vəliyevin timsalında ASCO-nun bütün ailəsinə dərin təşəkkürümü bildirirəm. Daim bizi, ailəmizi diqqət mərkəzində saxladılar. Bu da bizə əlavə güc verirdi.

Şükür Mahmudzadə deyir ki, cənab İlham Əliyev kimi müdrik dövlət başçısı, dahi sərkərdəsi olan xalqın sabahı üçün narahatlığına əsas yoxdur. Yetər ki, biz yumruq kimi bir olaq.

Düz sözə nə deyəsən!

Cəsur əsgər Şükür Mahmudzadə ölkə başçısının Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.



Cəfər Mübariz oğlu Səfərli



“Cəsur döyüşçü” medalı

“Cəbrayılın azad olunmasına görə” medalı

“Xocavəndin azad olunmasına görə” medalı

“Füzulinin azad olunmasına görə” medalı

“Şuşanın azad olunmasına görə” medalı

Bəzi döyüşlərdən sağ çıxdığına bu gün də inana bilmir

Tarixin ən ağır sınaqlarından şərəflə çıxmağı bacarmış məmləkətimizin var olmasının kökündə bu torpağın övladlarının Vətənə sonsuz sevgisi durur. Dənizçilər də xalqımızın vətənpərvərliyi ilə seçilən övladlarındandırlar. Onlar dünyanın harasında üzmələrindən asılı olmayaraq, hər zaman qəlbən və ruhən doğma Azərbaycanımıza bağlı olublar.

ASCO-nun Xəzər Dəniz Neft Donanmasının "Şahdağ" gəmisinin gənc motorçusu Cəfər Səfərli kimi! 44 günlük Vətən müharibəsində vətənpərvərliyi, mərdliyi və qorxmazlığı bir daha sübut olundu.

Cəfər Mübariz oğlu Səfərli 1994-cü il iyulun 11-də Hacıqabul rayonunda doğulub.

Rayonun Allahverdi Dadaşov adına 5 nömrəli məktəbini bitirdikdən sonra 2012-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasına qəbul olub. Dörd illik təhsildən sonra hərbi xidmətə gedib, 2018-ci ildə Xəzər Dəniz Neft Donanmasında əmək fəaliyyətinə başlayıb. O vaxtdan gəmiçi kimi Xəzərdə neft-qaz hasilatının inkişafına töhfə verir.

2020-ci il sentyabrın 20-də təlimlərə cəlb olunub. Bir həftə sonra Vətən müharibəsi başlayanda döyüşlərə Füzuli istiqamətində piyada döyüş maşınının (PDM) desantı kimi qatılıb. Çətinliklə də olsa, elə ilk gündən düşmənin müdafiə postunu yarıblar. İçində olduğu döyüş maşını vurulsa da, bəxti gətirir, ona xətər dəymir.

– Füzulidən sonra Cəbrayıl istiqamətinə irəlilədik, – deyir Cəfər Səfərli. – Bəzi yüksəklikləri geri qaytardıq. Ardınca gizli yollarla Hadruta üz tutduq. İki gün sonra gecə Hadruta çatdıq. Özümüzə mövqe seçib səhərin açılmasını gözlədik. Lakin səhər qəfildən düşmən iki istiqamətdən bizə hücum etdi. Həmin vaxt qolumdan güllə yarası aldım. Döyüş yoldaşlarımdan da yaralanan və şəhidlik zirvəsinə yüksələnlər oldu. İki gün yaralı vəziyyətdə döyüşdük. Doğrusu, hələ də inana bilmirəm ki, elə döyüşlərdən sağ-salamat çıxdım. Bu, Allahın möcüzəsi idi. Yaralansam da, fəxr edirəm ki, İkinci Qarabağ müharibəsində iştirak etmişəm və şanlı tarixin yazılmasında mənim də əməyim olub.

Cəfər Səfərli deyir ki, yaralanıb xəstəxanaya yerləşdikdən sonra dənizçi yoldaşları tez-tez onunla əlaqə saxlayıblar. ASCO-nun rəhbərliyi isə bütün dənizçi döyüşçülər kimi, ona da xüsusi diqqət göstərib. Əlbəttə ki, döyüşçülərə belə münasibət Vətənin çətin günündə əlinə silah alan hər kəsi hədsiz sevindirir. Bütün bunlar həm də xalqımızın həmrəyliyinin sübutudur.

İgid dənizçi Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Hazırda Cəfər Səfərli üçüncü mexanik kimi Xəzər Dəniz Neft Donanmasının "Şirvan-2" kran gəmisində iş başındadır.



Zaur Aydın oğlu Əskərov



“Xocavəndin azad olunmasına görə” medalı

“Füzulinin azad olunmasına görə” medalı

Azərbaycan əsgəri bir, Ali Baş Komandanı isə eyni vaxtda bir neçə cəbhədə, həm də çox uğurla vuruşurdu

Zaur Aydın oglu Əskərov 1988-ci il martın 11-də Bakı şəhərində anadan olub.

1995–2006-cı illərdə Bakı şəhərindəki 18 saylı tam orta məktəbdə təhsil alıb.

2006–2008-ci illərdə Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

2009-cu ildə 4 saylı peşə liseyində təhsil alıb.

2013–2017-ci illərdə Odessa Milli Dəniz Universitetində "Gəmi energetik qurğularının istismarı mühəndisliyi" ixtisasına yiyələnib. ASCO-nun gəmilərində ilk səfərinə yeddi il əvvəl motorçu kimi çıxıb.

Vətən müharibəsi başlayanda könüllü cəbhəyə yollanıb.

Motoatıcı manqa komandiri olan Zaur Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Horadiz, Yuxarı Əbdürrəhmanlı, Mərdinli kəndlərinin, Xocavənd rayonunun Hadrut qəsəbəsi və Tuğ kəndinin işğaldan azad olunması, Şuşa şəhəri istiqamətində bir sıra yüksəkliklərin düşməndən təmizlənməsi döyüşlərində iştirak edib.

İgid çavuş Zaur Əskərov deyir:

– Vətən müharibəsində xalq rəşadətli Ordumuza güvənirdi, Ordumuz da Ali Baş Komandanımıza! Əsgər və zabitlərimizin işi daha rahat idi, çünki biz yalnız bir cəbhədə vuruşurduq, düşmənimizin də torpaqlarımıza soxulan erməni işğalçıları olduğu bizə bəlli idi. Ali Baş Komandanımız cənab İlham Əliyev isə eyni vaxtda bir neçə cəbhədə – həm işğalçı Ermənistanla, həm erməni lobbisi ilə, həm də ermənipərəst ölkələrlə vuruşurdu... Və bütün cəbhələrdə də uğurla!

Zaur Əskərov torpaqlarımızın mənfur düşmənlərdən azad edilməsində göstərdiyi şücaətə görə dövlət başçımızın sərəncamları ilə "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.



Qabil Yaşar oğlu Sadıqov



“Cəbrayılın azad olunmasına görə” medalı

“Xocavəndin azad olunmasına görə” medalı

Ərazi bütövlüyümüzü ən böyük mükafatımız sayan qəhrəman dənizçi

Həyatı dərk edəndən dənizçi Qabil Sadıqov üçün müstəqil Azərbaycanımızın ərazi bütövlüyü hər şeydən öndə gəlib. Daim yağı tapdağı altında olan torpaqlarımızın azadlığı sevdası ilə yaşayıb və haqq savaşında özünü öndə görüb.

Qabil Yaşar oğlu Sadıqov 1988-ci il martın 11-də Ucar rayonunun Qazıqumlaq kəndində doğulub.

Azərbaycan Dövlət Dəniz Akademiyasının Dənizçilik Kollecində üç aylıq kursu bitirib. 2008-ci ildən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Xəzər Dəniz Neft Donanmasında motorçu işləyir.

Kiçik çavuş Qabil Sadıqovun döyüş yolu 2020-ci il oktyabrın 20-dən başlayıb. Füzuli, Cəbrayıl və Xocavəndin erməni işğalından azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmanlığı ilə fərqlənib. Hər döyüşdə neçə düşməni cəhənnəmə vasil edib, neçəsini torpaqlarımıza tamah saldığı üçün peşman edib... Xocavənddə qızğın döyüşlərin birində yaralanıb.

– Biz döyüşlərə ərazi bütövlüyümüzü bərpa etmək, Qarabağ nisgili ilə dünyadan köçənlərimizin ruhlarını şad etmək üçün atılmışdıq, – deyir Qabil Sadıqov. – Şükürlər olsun ki, misli görünməmiş Zəfərlə arzumuza çatdıq. İnanmıram ki, Odlar yurduna qəlbən bağlı adamlar üçün bundan böyük hədiyyə olsun".

İgid döyüşçü Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.



Nadir Tərlan oğlu Qasımov

İkinci Qarabağ savaşında yağı havadarlarına, xalqımız isə Ordumuzun yenilməzliyinə arxalanırdı

"Azərbaycanda əsgər və zabitlərə həmişə hörmətlə yanaşılıb. Son illər onlara göstərilən xüsusi ehtiram isə Vətənimizin bütövlüyünü təmin etmək kimi müqəddəs vəzifəni daha böyük qəhrəmanlıqla yerinə yetirmələrində yəqin ki, az rol oynamadı."

Bu sözlər ASCO-da dalğıc işləyən və İkinci Qarabağ savaşında şərəfli döyüş yolu keçən Nadir Qasımova məxsusdur.

Nadir Tərlan oğlu Qasımov 1994-cü il yanvarın 4-də Bakı şəhərində dünyaya göz açıb.

2010–2014-cü illərdə Azərbaycan Milli Konservatoriyası nəzdində Asəf Zeynallı adına Musiqi Kollecində "Klarnet ifaçılığı" ixtisası üzrə təhsil alıb.

2014–2016-cı illərdə Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

2018-ci ildən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində dalğıc işləyir.

İkinci Qarabağ savaşından əvvəl – 2020-ci il sentyabrın 21-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən təlimlərə cəlb edilib.

Vətən müharibəsi zamanı Füzuli rayonu istiqamətində gedən döyüşlərdə tank bölüyündə manqa komandiri kimi iştirak edib.

– Bu müharibədə yağı daha çox havadarlarına, biz isə möhtərəm prezidentimiz İlham Əliyevin müdrikliyinə və dünyanın ən güclü Silahlı Qüvvələrindən birinə çevirdiyi Ordumuzun yenilməzliyinə arxalanırdıq, – deyir Nadir Qasımov. – Məhz Ali Baş Komandanımızın qətiyyəti və sərkərdəlik məharəti sayəsində xalqımız Zəfər sevincini yaşadı. Rəşadətli əsgər və zabitlərimiz yağını qabağına qatıb dahi sərkərdəmizin "Qarabağ Azərbaycandır və nida" kəlməsini deyənə kimi qovdular...

Nadir Qasımov Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlər zamanı vəzifə borcunu layiqincə yerinə yetirdiyinə görə hərbi hissə komandiri tərəfindən Fəxri fərmanla təltif olunub.



Ağahüseyn Mirlətif oğlu Məmmədov

Dənizçi Ağahüseyn də özünü həmişə Zəfər yürüşünə çıxacaq igidlərin sırasında təsəvvür edib

Gündən-günə qüdrətlənən müstəqil Azərbaycanın savaş yolu ilə də olsa, öz ərazi bütövlüyünü gec, ya da tez bərpa edəcəyinə həmişə inanıb Ağahüseyn. Özünü də Zəfər yürüşünə çıxacaq igidlərin sırasında təsəvvür edib.

Ağahüseyn Mirlətif oğlu Məmmədov 1995-ci il sentyabrın 21-də Sumqayıt şəhərində dünyaya göz açıb.

2002–2013-cü illərdə Sumqayıt şəhərindəki 1 saylı tam orta məktəbdə təhsil alıb.

Dənizçi olmaq, dor ağacında üçrəngli bayrağımız dalğalanan gəmilərdə səfərlərə çıxmaq arzusu ilə 2013-cü ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının "Gəmi energetik qurğularının istismarı mühəndisliyi" fakültəsinə qəbul olub.

2017-ci ildə ADDA-da təhsilini bitirdikdən sonra müddətli həqiqi hərbi xidmətə yollanıb.

2018-ci ildə Ordu sıralarından tərxis olunub.

2019-cu ildə ASCO-nun Xəzər Dəniz Neft Donanmasının "Mühəndis Balarza Məmmədov" gəmisində motorçu kimi işə başlayıb.

2020-ci il sentyabrın 21-də qeydiyyatda olduğu Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sumqayıt şöbəsi tərəfindən təlimlərə qatılmaq üçün dəvət alır və sınaq günlərində Vətənə daha faydalı ola biləcəyi düşüncəsi onu sevindirir.

İkinci Qarabağ savaşı başlayanda hərbi qulluqçu kimi əsas işi döyüşən bölmələrin silah-sursat, yanacaq və digər maddi-texniki təminatının təşkil edilməsindən ibarət olub. Xüsusi təyinatlı hərbi birləşmələr və digər Quru qoşunlarımız düşməni işğal altında saxladıqları əzəli torpaqlarımızdan qovduqca, sürücü Ağahüseyn Məmmədovun xidmət etdiyi hərbi hissə də artıq bayrağımız dalğalanan həmin ərazilərdə çöl şəraitində müvəqqəti olaraq məskunlaşıb. Müxtəlif zaman aralıqları ilə Cəbrayıl, Xocavənd, Füzuli və Şuşa istiqamətində döyüş tapşırığını icra ediblər.

– Bizim ata-baba torpaqlarımızı azad etmək üçün başqa yolumuz qalmamışdı, – deyir Ağahüseyn Məmmədov. – Sülh danışıqlarına əməl etməyən məkrli düşməni başa düşəcəyi dildə anlatmağa məcbur olduq. Hər bir Azərbaycan əsgəri torpaqlarımızın yağı tapdağından azad olunması üçün canını belə qurban verməyə hazır idi. Ümid edirəm ki, ölkəmizin ərazi bütövlüyünü təmin edən şanlı Zəfərimizlə həm də bütün şəhidlərimizin qisasını ala bildik.



Ərəstun Əli oğlu Əbilzadə



“Xocavəndin azad olunmasına görə” medalı

Qismən səfərbərlik elan ediləndə həyatında ilk dəfə dənizdə olmadığına sevinən kapitan köməkçisi

"Biz dənizə çıxarkən hər bir təhlükəni gözümüzün önünə gətiririk: fırtına, dənizin ortasında qəza və sair. Döyüşlərə də bu hislərlə gedirdim. Məni heç bir çətinlik, düşmənin təxribatı qorxutmurdu. Digər tərəfdən dəniz bizim iradəmizi, səbrimizi möhkəmləndirdiyi üçün döyüşlər çətin olmadı. Və əlbəttə, dənizçilərimizin vətənpərvərliyi hamıya məlumdur. Bunu elə gəmilərin adlarına baxsaq, bilmək olar. Əksəriyyəti şəhid dənizçilərin, Qarabağdakı əzəli yaşayış məntəqələrimizin adlarını daşıyır."

Bu sözlər 44 günlük haqq savaşında qəhrəmanlıqla döyüşən və gəmiçilərin fədakarlığını bu dəfə dənizin ortasında deyil, döyüş meydanında sübuta yetirən kapitanın ikinci köməkçisi Ərəstun Əbilzadəyə məxsusdur.

Ərəstun Əli oğlu Əbilzadə 1993-cü il mayın 13-də Biləsuvar rayonunun Bəydili kəndində doğulub. 2010-cu ildə orta məktəbi bitirərək Azərbaycan Dövlət Dəniz Akademiyasına qəbul olub. Burada "Gəmiçilik və gəmilərin hərəkətinin idarəedilməsi" ixtisasına yiyələnib.

Şanlı Azərbaycan Ordusu sıralarında müddətli həqiqi hərbi xidmət keçib. 2015-ci ildə ASCO-nun "Ramiz Hacıyev" gəmisində matros kimi işə başlayıb. Sonra kapitanın üçüncü köməkçisi vəzifəsinə irəli çəkilib. Bir müddət sonra isə sorağı "Şahdağ" gəmisindən kapitanın ikinci köməkçisi kimi gəlib.

Vətən müharibəsindən təxminən 10 gün əvvəl kapitanın böyük köməkçisi sertifikatını almaq üçün məzuniyyət götürür. Az sonra qismən səfərbərlik elan olunur və Ərəstun bu ərəfədə həyatında ilk dəfə dənizdə olmadığına sevinir. Böyük həvəslə təlimlərə qatılan gənc dənizçinin döyüş yolu Xocavənddən başlayır. Daha sonra Ağdam istiqamətində gedən döyüşlərdə iştirak edir.

– Döyüş ruhumuzun yüksək olmasında əlbəttə ki, arxa cəbhədən gələn dəstəyin böyük rolu vardı, – deyir Ərəstun Əbilzadə. – Əsasən də mənəvi dəstək döyüşçüləri çox qürurlandırırdı. Mülki şəxslərdən aldığımız məktubları açıb oxuyanda nə qədər şərəfli bir iş gördüyümüzün fərqinə daha çox varırdıq. Qardaşımla danışanda isə deyirdi ki, bütün dənizçi dostlarım mənimlə maraqlanır və necə dəstək verə biləcəklərini soruşurlar. Bunları eşidəndə, həm dənizçi dostlarımla qürur duyurdum, həm də döyüş ruhum artırdı.

Gənc dənizçi Ərəstun Əbilzadə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif olunub.



Vüqar Zahid oğlu Əhmədov



“Suqovuşanın azad olunmasına görə” medalı

Rəşadətli Ordumuzun 44 gündə verdiyi dərsi işğalçılar 44 ildən sonra da unuda bilməyəcəklər

"Torpaqlarımız yağı tapdağı altında olanda nələr çəkdiyimizi bircə Allah bilirdi. Bütün itkilərin ən ağırı olan torpaq itkimiz azmış kimi, xain, məkrli qonşularımız həm də xislətlərinə uyğun davranışları, yalan və iftiraları ilə iki gündən bir bizə yanıq verirdilər. Dözmək çox çətin idi."

Dənizçi – qazi Vüqar Əhmədovun dilindən çıxan bu sözlər hər bir soydaşımızın o dövrdə çəkdiyi ağrı-acıları çox dəqiq ifadə edir.

Vüqar Zahid oğlu Əhmədov 1992-ci il martın 10-da Bakı şəhərində anadan olub.

Bakıda Zakir Yusifov adına 194 nömrəli tam orta məktəbi bitirib.

Hazırda Getman Pyotr Konaşeviç-Sqaydaçnı adına Kiyev Dövlət Su Nəqliyyatı Akademiyasında "Gəmi energetik qurğularının istismarı" ixtisası üzrə təhsil alır.

2016-cı ildən ASCO-nun Xəzər Dəniz Neft Donanmasının "Zülfi Hacıyev" gəmisində motorçu işləyir.

Vətən müharibəsinə yağının xalqımıza çəkdirdiyi əzab və iztirablara birdəfəlik son qoymaq imkanı kimi baxıb və ön cəbhəyə tələsib. Sentyabrın 28-dən Ordu sıralarına sıravi əsgər kimi qatılıb, Suqovuşan, Tərtər, Ağdərə, Ağdam istiqamətlərində gedən döyüşlərdə igidliyi ilə fərqlənib, düşmənin xeyli canlı qüvvəsini məhv edib.

Qəhrəman tabor komandiri mayor Anar Şükürov şəhidlik zirvəsinə ucalandan sonra onun nəşini düşmənin aramsız atəş altında saxladığı zonadan çıxarmağa nail olub. Suqovuşanın azad edilməsi uğrunda gedən döyüşlərin birində minaatan mərmisinin qəlpələri ilə sol gözündən və qabırğasından xəsarət alıb.

Vüqar Əhmədov deyir:

– Sevinirəm ki, Qarabağımızın fatehi, mahir sərkərdə cənab İlham Əliyevin komandanlığı ilə ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etdim və Qələbə qazandıq. Tarixi ədaləti bərpa edən bu Qələbə bütün ağrı-acılarımızı unutdurdu. Yaddaşları nə qədər zəif olsa da, torpaqlarımıza soxulan xainlərə 44 gündə verdiyimiz dərsi ən azı 44 il unutmayacaqlar.

İgid döyüşçü Vüqar Əhmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunub.



Səbuhi Çingiz oğlu Kazımov



“Suqovuşanın azad olunmasına görə” medalı

“Şuşanın azad olunmasına görə” medalı

Qələbə inamı ilə silaha sarılan mühəndis-dispetçer

Sentyabrın 27-də torpaqlarımızın azadlığı uğrunda başlayan haqq savaşında cəsurluğu ilə seçilən gənclərdən biri də ASCO-nun Xəzər Dəniz Neft Donanmasının mühəndis-dispetçeri Səbuhi Kazımov oldu.

Səbuhi Çingiz oğlu Kazımov 1988-ci il dekabrın 8-də Bakı şəhərində dünyaya göz açıb.

2006–2010-cu illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasında "Nəqliyyatda daşımaların və idarəetmənin təşkili mühəndisliyi" ixtisasına yiyələnib.

2010–2011-ci illərdə Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

Səbuhi Kazımov əmək fəaliyyətinə 2011-ci ildə DND-də dispetçer kimi başlayıb. Sonra iki il Abşeron Neft Donanması İdarəsinə məxsus sərnişin gəmisində matros, bir il isə sahil matrosu işləyib.

2013-cü ildən Xəzər Dəniz Neft Donanmasında mühəndis-dispetçer kimi çiyninə düşən vəzifənin öhdəsindən layiqincə gəlir.

2020-ci il sentyabrın 29-dan Qələbə inamı ilə silaha sarılıb. Tərtər–Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak edib. Səbuhi Kazımovun sinəsini bəzəyən "Suqovuşanın azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları onun Vətən müharibəsində şərəfli döyüş yolu keçdiyini təsdiqləyir.

– "böyük Ermənistan" xülyası xain qonşularımızın başını elə xarab etmişdi ki, işğal etdikləri əzəli torpaqlarımızdan çıxmayacaqlarını söyləməkdən çəkinmirdilər, – deyir Səbuhi Kazımov. – Mənfur düşmənlərimizin kimə güvəndikləri bəlli idi. Biz də bir olanda, nə boyda gücə çevrildiyimizi yaxşı bilirdik. Haqq savaşımızda uşaqdan böyüyədək bütün xalqımız Ordumuzun arxasında dağ kimi dayandı, rəşadətli Ordumuz da xalqımızın! Dağ dağa söykəndi və bu, qanımıza susayanların sinəsinə dağ çəkməyə kifayət etdi…



Vüsal Rəhim oğlu Mikayılov



“Suqovuşanın azad olunmasına görə” medalı

Müstəqil Azərbaycanın ərazisi daha heç vaxt işğalçıların təcavüzünə məruz qalmayacaq

Bir çox gənclər kimi Vüsal Mikayılov da general-mayor Polad Həşimovun şəhadətindən sonra müzəffər Azərbaycan Ordusu sıralarına könüllü yazılıb. Amma arzusuna qismən səfərbərlik elan olunduqdan sonra çatıb. Əyninə əsgər paltarı geyindiyi gündən döyüşlərə can atıb.

Dediyinə görə, iki aya yaxın Tərtər–Ağdərə istiqamətindəki meşələrdə mövqe tutublar və verilən tapşırıqları layiqincə yerinə yetiriblər. Düşmənin təslim olması xəbərini də Ağdərə istiqamətində növbəti hücuma hazırlaşarkən eşidiblər.

– Rəşadətli Ordumuz 44 gün ərzində yağını diz çökdürməklə tarixi ədaləti bərpa etdi, – deyir Vüsal Mikayılov. – Ordumuzun yenilməzliyinin təcəssümü olan bu Qələbə "dənizdən dənizə" kimi sərsəm xülyalarla yaşayanlara anlatdı ki, müstəqil Azərbaycanın ərazisi daha heç vaxt işğalçıların təcavüzünə məruz qalmayacaq. Yurdumuza göz dikənləri dünya işığına həsrət qoyacağıq.

Çavuş Vüsal Rəhimovun Vətən müharibəsində xidməti borcunu layiqincə yerinə yetirdiyini ölkə rəhbəri cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə təltif edildiyi "Suqovuşanın azad olunmasına görə" medalı təsdiqləyir.

Vüsal Rəhim oğlu Mikayılov 1992-ci il fevralın 4-də Bakı şəhərində dünyaya göz açıb.

2010-cu ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Neft Akademiyasına daxil olub və 2014-cü ilədək "Neft-qaz mühəndisliyi" ixtisasına yiyələnib.

2017-ci ildən ASCO-nun Xəzər Dəniz Neft Donanmasının Gəmi təmiri emalatxanasında nəzarət-ölçü cihazlarının çilingəri işləyir və istehsalatdan ayrılmadan Azərbaycan Dövlət Dəniz Akademiyasında "Gəmi energetik qurğularının istismarı mühəndisliyi" ixtisasına yiyələnir.



Rüfət Feyzulla oğlu Bağırov



“Qubadlının azad olunmasına görə” medalı

"Torpaqlarımıza göz dikənin gözünü ovcuna tökərik"

"Azərbaycan əsgərinin cəsarəti, igidliyi, özünəinamı Qələbənin qazanılmasında çox böyük rol oynadı. Bizim başqalarının torpaqlarında gözümüz yoxdur. Torpaqlarımıza göz dikənin isə gözünü ovcuna tökərik."

Bu fikirləri ASCO-nun İkinci Qarabağ savaşında qəhrəmanlıqla döyüşən dənizçisi Rüfət Bağırov söyləyib.

Rüfət Feyzulla oğlu Bağırov 1994-cü il yanvarın 23-də Bakı şəhərində anadan olub.

2014-cü ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecini bitirib və müddətli həqiqi hərbi xidmətə yollanıb.

Tərxis olunduqdan sonra müxtəlif sahələrdə çalışıb. 2018-ci ildən ASCO ailəsinin üzvüdür. Bir müddət "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunun "Neptun" üzən tərsanəsində, sonra Xəzər Dəniz Neft Donanmasının "Yarenqa" gəmisində matros işləyib. Kapitanın növbə köməkçisi imtahanlarını müvəffəqiyyətlə verib.

Vətən müharibəsi başlayan gün müzəffər Ordumuzun sıralarına çağırılan Rüfət də Qələbə inamı ilə ön cəbhəyə yollanıb. Cəbrayıl və Qubadlı rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə igidlik göstərib.

Döyüşlərə sıravi əsgər kimi qatılıb, sonra minaatanların komandiri kimi iştirak edib. Rüfət Bağırovun İkinci Qarabağ savaşında göstərdiyi şücaət "Qubadlının azad olunmasına görə" medalı ilə qiymətləndirilib.

O günləri xatırlayan Rüfət Bağırov deyir:

– Hər gün işğaldan azad edilən yeni ərazilərə ayaq basanda keçirtdiyimiz hisləri sözlə ifadə etmək çətindir. Torpaqlarımızın hər qarışı uğrunda Azərbaycan əsgəri öz qanını-canını verirdi. Hər kəs bunun əbəs olmadığını bilirdi. Bizim məqsədimiz əzəli torpaqlarımıza qayıtmaq idi. Ali Baş Komandanımızın sərkərdəlik məharəti, Ordumuzun rəşadəti hesabına ona da nail olduq.



Namiq Əzizxan oğlu Hüseynov



“Suqovuşanın azad olunmasına görə” medalı

“Özləri haqqında mif yaradan düşmən nəyi vardısa, atıb gedirdi”

Namiq Əzizxan oğlu Hüseynov 1990-cı il iyulun 16-da İsmayıllı rayonunun Sulut kəndində anadan olub.

1996-cı ildən Bakının 283 saylı orta məktəbində, 2006-cı ildən isə 248 saylı gecə məktəbində təhsil alıb.

2008–2010-cu illərdə Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

2013–2014-cü illərdə 6 saylı Bakı peşə liseyində matros peşəsinin sirlərinə yiyələnib.

2016-cı ildən ASCO-nun Xəzər Dəniz Neft Donanmasında matros işləyir.

2020-ci ilin fevralından Rusiyanın Həştərxan şəhərindəki Xəzər Dəniz və Çay Nəqliyyatı İnstitutunda təhsil alır.

– Vətəni ana Vətən adlandırırıq, – deyir Namiq Hüseynov. – Kimsə anamıza hücum etsə, dayanıb baxacağıq? Yox! Elə ona görə, İkinci Qarabağ savaşı başlayarkən özümə yer tapa bilmirdim. Ön cəbhəyə can atırdım. Oktyabrın 5-də artıq düşmənlə üz-üzə idim. İlk döyüşüm Suqovuşan uğrunda oldu. Sonra Ağdam və Ağdərə istiqamətində döyüş əməliyyatlarında iştirak etdim. Evdə 3 aylıq Uğur balamı qoyub cəbhəyə getmişdim. Fikirləşirdim ki, erməni faşistlərinin Birinci Qarabağ savaşında amansızlıqla qətlə yetirdikləri uşaqlar da kiminsə Uğuru olub. O körpələrin qisasını almaq üçün əliyalın da döyüşməyə hazır idik. Hər savaşa ürəklə atılırdıq. Özləri haqqında mif yaradan düşmən heç qaçmağı da bacarmırdı. Nəyi vardısa, atıb gedirdi...

Cəsur əsgər Namiq Hüseynov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə “Suqovuşanın azad olunmasına görə” medalı ilə təltif olunub.



Nicat Azad oğlu Babayev



“Suqovuşanın azad olunmasına görə” medalı

İgid döyüşçülərimizlə qürur duyan igid dənizçi

Nicat Azad oğlu Babayev 1992-ci il mayın 1-də Mingəçevirdə dünyaya göz açıb.

2008-ci ildə dənizçi olmaq arzusu ilə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə daxil olub və bu təhsil ocağını 2012-ci ildə bitirib.

2017-ci ildən ASCO-nun Xəzər Dəniz Neft Donanmasının gəmilərində elektrik kimi çalışıb. Cəbhəyə yola düşməzdən əvvəl "Mühəndis Balarza Məmmədov" gəmisində elektrik mexaniki işləyib.

2020-ci il sentyabrın 21-də təlimlərə cəlb edilib.

Vətən müharibəsinin ilk günündən ön cəbhədə olub. Giziri olduğu kəşfiyyat bölüyü Talış kəndi, Suqovuşan, Ağdərə, Kəlbəcər istiqamətlərində gedən döyüşlərdə iştirak edib. Kəşfiyyatçı kimi hər bir tapşırığı vaxtında və dəqiq yerinə yetirməsi uğurlu əks-hücum əməliyyatlarımızda çox böyük rol oynayıb.

O günləri xatırlayan Nicat Babayev deyir:

– Kəşfiyyatçı düşmən arxasında döyüş tapşırıqlarını yerinə yetirərkən gözə görünməməlidir ki, əldə etdiyi məlumatları komandanlığa çatdıra bilsin. Bu məlumatlar sayəsində düşmənin tutduğu mövqelər hədəfə alınır və darmadağın edilirdi. Günlərlə düşmən arxasında dayanmadan hərəkət edir, hətta bəzən onlara o qədər yaxınlaşırdıq ki, nəfəslərini hiss edirdik. Ehtiyac yarananda düşmənlə üzbəüz döyüşlərə də girir, strateji yüksəkliklərin alınmasında bilavasitə iştirak edirdik. İgidlərimizlə qürur duyurdum, çünki hər kəs döyüşə ürəklə atılırdı.

Ağdərə ərazisində döyüşlərin birində hiyləgər düşmənin qurduğu tələyə düşürlər və tələdən çıxmaq üçün yağının nəzarətində olan ərazinin daha dərinliyinə getmək məcburiyyətində qalırlar. Meşədə gecələyirlər, 3 müxtəlif minalanmış ərazini keçirlər. Düşmənin minaatan artilleriyasına hədəf olmaqdan qorunmağı bacarırlar…

İgid kəşfiyyatçı Nicat Babayev deyir ki, komandirimizin döyüşdən sonrakı salamlaşması bizdə qürur hissi oyadırdı: "Salam, Qalib Ordunun Qalib Əsgəri!"

Vətən müharibəsində şərəfli döyüş yolu keçən gizir Nicat Babayev Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalına layiq görülüb.



Xəyyam Cəfər oğlu Köçəriyev

Qətiyyətli Ali Baş Komandanımız və rəşadətli Ordumuzla fəxr edən motorçu

"İllərdir yağı tapdağında qalan torpaqlarımızın azad edilməsində xalqımız rəşadətli Ordumuza güvəndi. Ordumuz da bu haqq savaşında xalqımızdan güc aldı."

Vətən müharibəsinin iştirakçısı olan igid dənizçi Xəyyam Köçəriyevin fikrincə bu güc də əsgər və zabitlərimizə xalqımızın Qarabağ həsrətinə son qoymalarına kifayət etdi.

Xəyyam Cəfər oglu Köçəriyev 1989-cu il yanvarın 18-də Biləsuvar rayonunun Ağalkənd kəndində anadan olub.

Orta təhsil aldıqdan sonra motorçu ixtisasına yiyələnib.

2010-cu ilin yanvarından Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin gəmilərində çalışır, motorçu kimi çiyninə düşən işin öhdəsindən layiqincə gəlir.

Vətən müharibəsinə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin çağırışı əsasında yollanıb.

Füzuli rayonu istiqamətində gedən döyüşlərdə və işğaldan azad edilmiş ərazilərin müdafiəsinin təmin olunmasında sıravi əsgər kimi iştirak edib.

– Hələ 2016-cı ildəki Aprel döyüşləri zamanı xalqımız bir daha əmin olmuşdu ki, rəşadətli Ordumuz istənilən vaxt ərazi bütövlüyümüzü bərpa etmək qüdrətindədir, – deyir Xəyyam Köçəriyev. – Ona görə işğalçının 2020-ci il 27 sentyabr təxribatı zamanı düşmənə layiqli cavab verilməsini istəyirdi. Ali Baş Komandanımızın əks-hücum əmri uşaqdan böyüyədək hamımızın ürəyindən oldu və Zəfərimizlə başa çatdı. Bütün xalqımız kimi, mən də rəşadətli Ordumuzla fəxr edirəm.



Ceyhun Tofiq oğlu Əhmədov



“Cəsur döyüşçü” medalı

Ərazi bütövlüyümüz üçün canından keçməyə hazır olan baş istehkamçı

"Otuz il məğlubedilməzliyindən dəm vuran düşmənin müzəffər Ordumuzun gücü qarşısında aciz qalaraq geri çəkilməsini, bəzən isə hər şeyini atıb qaçmasını müşahidə etmək çox qürurverici idi. Hər bir əsgərimizin işğal altındakı torpaqlarımızı azad etmək üçün canından keçməyə hazır olduğunu görmək də məni az duyğulandırmırdı".

Bu kəlmələr Vətən müharibəsində şərəfli döyüş yolu keçən dənizçi Ceyhun Əhmədova məxsusdur.

Ceyhun Tofiq oğlu Əhmədov 1995-ci il noyabrın 22-də Göyçay rayonunda anadan olub.

2002–2013-cü illərdə Ləkçıplaq kənd 1 saylı tam orta məktəbində təhsil alıb.

Sular qoynunda yaxın-uzaq səfərlərə çıxmaq arzusu onu Azərbaycan Dövlət Dəniz Akademiyasına gətirib çıxarıb. 2013–2017-ci illərdə "Dəniz naviqasiyası mühəndisliyi" fakültəsində dənizçi peşəsinin sirlərinə yiyələnib.

ADDA-nı bitirdikdən sonra həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb. 2018-ci ildə tərxis olunub. Həmin ilin noyabrından ASCO-da çalışır. Dənizçilik fəaliyyətinə Xəzər Dəniz Neft Donanmasının "Atlet-8" gəmisində matros kimi başlayıb. Sonralar müxtəlif vaxtlarda "Aura", "Azərbaycan" kran və "Mühəndis Balarza Məmmədov" gəmilərində işləyib.

2020-ci il sentyabrın 21-də təlimlərdə iştirak etmək üçün Ordu sıralarına çağırılıb. Altı gün sonra İkinci Qarabağ savaşı başlayıb və o da baş istehkamçı kimi qisas döyüşlərinə qatılıb.

Tərtər–Ağdərə istiqamətində gedən döyüşlərdə "N" saylı hərbi hissənin tərkibində minaaxtaran olub. Döyüşlər zamanı düşmən səngərinə keçid açıblar və ya açılan keçidi minalardan təmizləməklə genişləndiriblər. Baş istehkamçı Ceyhun Əhmədov Tapqaraqoyunlu kəndi, Gülüstan meşəsi, Polad postu uğrunda gedən döyüşlərdə, Suqovuşanın və Ağdamın minalardan təmizlənməsində iştirak edib.

Ceyhun Əhmədov deyir:

– Biz döyüşlərə Tərtər rayonunun Bürc meşəsindən qoşulduq. Orada düşərgə qurmuşduq. Qruplar halında tapşırığı icra etməyə gedərkən sakinlər bizə qəhrəman kimi baxırdılar və bu, bizə əlavə güc verirdi. Azərbaycan xalqı bir yumruq kimi birləşərək mənfur düşmənə həddini göstərdi. Və mən belə bir xalqın oğlu olmağımla fəxr edirəm.

Şərəfli döyüş yolu keçmiş baş istehkamçı Ceyhun Əhmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə "Cəsur döyüşçü" medalına layiq görülüb.



Ziya İsrəfil oğlu Əliyev



“Xocavəndin azad olunmasına görə” medalı

“Füzulinin azad olunmasına görə” medalı

Erməni terrorçularının xalqımıza qarşı törətdiyi vəhşiliklərin qisasının alındığını düşünən kranmeyster

"Belə bir deyim var: "Ordun varsa, yurdun var." Biz həm də rəşadətli Ordumuzun dünyanın ən qüdrətli ordularından biri olmasının qürurunu yaşayırıq."

Bu sözlər Vətən sevgisini İkinci Qarabağ savaşında keçdiyi şərəfli döyüş yolu ilə sübut edən Ziya Əliyevə məxsusdur.

Ziya İsrəfil oğlu Əliyev 1986-cı il noyabrın 27-də Ucar rayonunun Məlikballı kəndində anadan olub. Doğulduğu kənddə orta təhsil alıb. 2016-cı ildən ASCO-nun Xəzər Dəniz Neft Donanmasında kranmeyster işləyir.

İkinci Qarabağ savaşı başlayan kimi könüllü olaraq hərbi əməliyyatlara qatılıb və bununla çox böyük qürur duyur. Özü demişkən, müharibəyə də ölmək üçün getməmişdi. Tarix boyu erməni terrorçularının xalqımıza qarşı törətdiyi vəhşiliklər onu qisasa səsləyib. Müharibənin getdiyi ən qızğın nöqtələrdə – Füzuli, Cəbrayıl, Xocavənd istiqamətində vuruşub.

Cəsur döyüşçü Ziya Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Ordumuzun göstərdiyi misilsiz şücaətdən danışarkən bildirib ki, hətta yaralı əsgərlər döyüşü tərk etmək istəmirdilər. Yaralarını sarıyaraq yenidən döyüşə atılırdılar. Heç kəs ev, ailə və başqa şeylər barədə düşünmürdü. Ermənilərin "basılmaz" ordusunu və onların özləri haqda uydurduqları əfsanələri Azərbaycan əsgəri darmadağın edirdi.

– Ermənilər keçən əsrin doxsanıncı illərindəki uğurlarının "xumarını" yaşayırdılar, güman edirdilər ki, bizim öhdəmizdən asanlıqla gələcəklər, – deyir Ziya Əliyev. – Onlar bizim bu qədər güclü olduğumuzu ağıllarına belə gətirmirdilər. Həsrətində olduğumuz o torpaqlara uzun ayrılıqdan sonra ilk ayaq basan azərbaycanlılardan olduğum üçün özümü xoşbəxt sayıram. Sözsüz ki, bu Qələbə ilk növbədə Ali Baş Komandanımız İlham Əliyevin düzgün hərbi strategiyası sayəsində əldə edildi. Azərbaycan xalqının əsgər və zabitlərimizə olan inamı, maddi və mənəvi dəstəyi də Qələbənin qazanılmasında çox mühüm rol oynadı.



Nəbi Nüsrət oğlu Hacıyev



“Cəbrayılın azad olunmasına görə” medalı



“Zəngilanın azad olunmasına görə” medalı

Torpaqlarımız işğal altında olanda özünü günahkar sayan gəmi təmirçisi

"Torpaqlarımız işğal altında olanda özümüzü günahkar sayırdıq. Bir qarış torpağımızı da güzəştə getmək fikrimiz yox idi. Döyüş ruhumuz, Vətən sevgimiz qarşısında düşmənin çox duruş gətirə bilməyəcəyinə də əmin idik. Məkrli qonşularımızın növbəti təxribatından sonra biz əzəli torpaqlarımızın qurtuluş tarixini yazmaqla həm də vicdanımız qarşısında rahatlıq tapdıq".

Bu sözlər ASCO-nun "Bibiheybət" Gəmi Təmiri Zavodunun işçisi Nəbi Hacıyevə məxsusdur. İkinci Qarabağ savaşının igid döyüşçüsünü siz də yaxından tanıyın.

Nəbi Nüsrət oğlu Hacıyev 1991-ci il noyabrın 16-da Balakən rayonunun Katex kəndində anadan olub.

Azərbaycan Memarlıq və İnşaat Universitetində "Elektrik mühəndisliyi" ixtisasına yiyələnib.

2015-ci ildən "Bibiheybət" Gəmi Təmiri Zavodunda elektrik quraşdırıcısı işləyir.

Vətən müharibəsindən əvvəl könüllü olaraq Azərbaycan Ordusu sıralarına yazılıb. 2020-ci il sentyabrın 27-də işğalçı Ermənistanın silahlı qüvvələri ölkəmizə qarşı növbəti təxribata yol verəndə Nəbi Hacıyevə çağırış vərəqəsi gəlib. Sentyabrın 29-dan Qələbəmizə böyük inamla silaha sarılıb. Minaatan batareyanın baş çavuşunun döyüş yolu Füzulidən başlayıb, sonra Xocavənd, Cəbrayıl və Zəngilanın azadlığı uğrunda savaşıb.

Nəbi Hacıyev ölkə rəhbəri cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif olunub.

– 44 gün davam edən Vətən müharibəsi yenilməz Ordumuzun Qələbəsi ilə nəticələndi, – deyir Nəbi Hacıyev. – Ali Baş Komandanımızın rəhbərliyi ilə məkrli qonşularımızın tapdağı altında olan əzəli torpaqlarımızın işğaldan azad edilməsi təkcə döyüşçü kimi deyil, həm də Odlar yurdunun övladı kimi məni hədsiz qürurlandırır. Bu, bizim haqq savaşımız idi. Şükürlər olsun ki, istədiyimiz kimi də başa çatdı.



Ramiz Ziyadxan oğlu Qocayev



“Qubadlının azad olunmasına görə” medalı

Yağı əzəli ərazilərimizi bizə unutdura biləcəyini düşünürdü

"Hələ 2016-cı ildə Aprel döyüşləri sübut etdi ki, ən müasir silah və texnikalarla təchiz olunan Azərbaycan Ordusunun peşəkarlıq səviyyəsi və Qələbə əzmi Ali Baş Komandanın bütün döyüş tapşırıqlarını uğurla yerinə yetirməyə imkan verir. Torpaqlarımızı işğal altında saxlayan yağıdan başqa bütün dünya buna əmin idi. Onu da dikbaşlığına görə biz peşman etdik."

Qürur doğuran bu sözlər ASCO-nun gəmilərinə ikinci həyat bəxş edən Ramiz Qocayevin dilində səslənib.

Ramiz Ziyadxan oğlu Qocayev 1991-ci il noyabrın 7-də Qobustan rayonunun Cəyirli kəndində anadan olub.

1998–2009-cu illərdə Ayaz Quliyev adına Cəyirli kənd tam orta məktəbində təhsil alıb.

2010–2012-ci illərdə həqiqi hərbi xidmət keçib.

2012-ci ildə daxil olduğu Azərbaycan Dövlət Neft Akademiyasını 2016-cı ildə bitirib.

2017-ci ildən ASCO-nun "Bibiheybət" Gəmi Təmiri Zavodunun Elektrik quraşdırma sexində yardımçı fəhlə kimi işə başlayıb. Hazırda ikinci dərəcəli elektrik quraşdırıcısı işləyir.

Ramiz Qocayev Zəfərlə bitən Vətən müharibəsinin iştirakçılarındandır. Cəbhəyə çağırışla sıravi əsgər kimi yollanıb. Cəbrayıl, Qubadlı uğrunda gedən döyüşlərdə iştirak edib.

Hərbi hava qüvvələrinə aid hava hücumundan müdafiə sistemində əvvəlcə doldurucu, sonra bölük komandirinin əmri ilə tuşlaycı vəzifəsini icra edib.

– Özünü məğlubedilməz hesab edən, öz xoşu ilə torpaqlarımızdan geri çəkilmək istəməyən məkrli düşmən sülh danışıqlarını uzatmaqla əzəli ərazilərimizi bizə unutdura biləcəyini düşünürdü, – deyir Ramiz Qocayev. – Azərbaycanlıların ata-baba ocaqlarına nə qədər bağlı olduqlarını diqqətindən qaçırmışdı. Bu səhv də onlara baha başa gəldi. Müzəffər Ordumuzun işğalçılar üzərində qazandığı parlaq Qələbə ölkəmizin ərazi bütövlüyü ilə yanaşı, həm də xalqımızın özünəinamını bərpa etdi.

Cəsur döyüşçü Ramiz Qocayev Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Qubadlının azad olunmasına görə" medalı ilə təltif olunub.



Mahmud Umudəli oğlu Məmmədov

Ön cəbhəyə göndərilməsi üçün inadkarlıq göstərən gəmi təmirçisi

Mahmud Məmmədov haqqında yazılanlara bəlkə inanmayacaqsınız, amma həqiqətdir. Bu da həqiqətdir ki, məhz belə igidlərimizin yurd sevgisi hesabına işğal altında olan torpaqlarımızı 44 günə Vətən edə bildik.

Mahmud Məmmədov Vətən müharibəsi başlayan ilk gündən hər səhər Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Masallı şöbəsinə gələrək ön cəbhəyə göndərilməsini israr edib. Ürəyi Azərbaycanın bütövlüyü eşqi ilə döyünən iyirmi səkkiz yaşlı gəncin vətənpərvərliyini yüksək qiymətləndiriblər və ona ehtiyac olarsa, çağrılacağını deyiblər. Lakin bu cavab özünə Xocalının qisasını alacağına söz verən gənci qane etməyib. Ardıcıl yeddi gün şöbənin qapısını döyüb və hər dəfə də eyni cavabı eşidib. Səkkizinci gün tək olmayıb: vətənpərvərliyinə yaxşı bələd olan ərazi nümayəndəsi də Mahmud üçün belə demək mümkünsə, xahişə gəlib. O gündən Ağdam–Ağdərə istiqamətində döyüşən igidlərlə çiyin-çiyinə verib.

Mahmud Umudəli oglu Məmmədov 1992-ci il yanvarın 27-də Yardımlı rayonunun Telavar kəndində dünyaya göz açıb.

Masallı rayonunun Agakişibəyli kəndində orta məktəbi bitirib.

2010-cu ildə müddətli həqiqi hərbi xidmətə çağrılıb və "N" saylı hərbi hissədə nümunəvi xidməti ilə seçilib.

2017-ci ilin aprelindən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin "Bibiheybət" Gəmi Təmiri Zavodunda rəngsaz işləyir.

– Qanlı-qadalı olduğu üçün bütün müharibələrdə ordudan yayınma halları həmişə baş verib, – deyir Mahmud Məmmədov. – Lakin İkinci Qarabağ savaşında belə hal müşahidə edilmədi, əksinə, döyüşə getmək üçün könüllü müraciət edənlər hədsiz dərəcədə çox idi. Bunu gənclərimizin sonsuz Vətən sevgisi, müdrik Ali Baş Komandanımıza və qüdrətli Ordumuza böyük inamı ilə izah etmək olar. Şəxsən mən könüllü cəbhəyə getmək üçün neçə gün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Masallı şöbəsinə yalvar-yaxar etmişəm. Bu gün də sevinirəm ki, Vətən müharibəsində işğalçıları dabanlarına tüpürüb qaçmağa məcbur edən igidlərimizin sırasında mən də var idim.



Kənan Aydın oğlu Haqverdiyev

Qarabağı yenə cənnətə döndərəcəyik

"44 günlük haqq savaşında arxalı düşmənə qarşı bir yumruğa çevrilməyimiz bizə təkcə bu gözəl, müdrik xalqın bir parçası olmağımızın qürurunu deyil, həm də Böyük Zəfər sevincini yaşatdı."

Bu sözləri Vətən müharibəsinin iştirakçısı Kənan Haqverdiyev söyləyib.

Kənan Aydın oğlu Haqverdiyev 1976-cı il noyabrın 15-də Bakı şəhərində doğulub. 1997-ci ildə Bakı Dövlət Universitetinin "Beynəlxalq münasibətlər" fakültəsini bitirib. 2007-ci ildən "Bibiheybət" Gəmi Təmiri Zavodunda eletrik quraşdırıcısı işləyir.

Vətən müharibəsinin ilk günündən döyüşlərə könüllü qatılmaq üçün dəfələrlə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şəbəsinə müraciət edib. Hər dəfə ona hələlik əsgərə ehtiyac olmadığını söyləyiblər. Doğrusu, vəziyyətin belə olması Kənana da maraqlı gəlib. Adətən müharibə zamanı döyüşçü qıtlığı yaranır. Bizdə isə hərbi komissarlıqların qarşısında əsl izdiham var idi. Gənclər ön cəbhəyə göndərilmələri üçün onların qarşısında gecələyirdilər.

Nəhayət bu şərəf Kənan Haqverdiyevə də qismət olur və oktyabrın 28-də cəbhəyə yollanır. Amma düşmənə açıq döyüşdə qan uddurmaq ona nəsib olmur. Əlinə silah aldıqdan bir müddət sonra düşmən ağ bayraq qaldırır. Olduğu hərbi hissə Qubadlı və Laçın istiqamətinə göndərilir. Bir aydan çox düşmənlə üz-üzə qalırlar. İmzalanmış sənədə əsasən işğalçılar müəyyən olunmuş müddətə qədər ərazilərimizi tərk etməli idilər.

– Düşmən işğal altında saxladığı ərazilərimizdən geri çəkildikdən bir ay sonra Dövlət Sərhəd Xidməti bizi burada əvəz etdi və mən 2021-ci il fevralın 3-də tərxis olundum, – deyir Kənan Haqverdiyev. – Tez-tez böyük bəstəkarımız Vasif Adıgözəlovun bu sözlərini xatırlayırdım: "Qarabağı qaytarmaq yox, Qarabağa qayıtmaq lazımdır!" Biz həm Qarabağı qaytardıq, həm də Qarabağa qayıtdıq. İşğal altında olduğu 30 ildə Qarabağda həyat tamamilə sönmüşdü. İnanıram ki, müdrik dövlət başçımız İlham Əliyevin rəhbərliyi ilə Qarabağı yenə cənnətə döndərəcəyik.



Tural Böyükağa oğlu Fətəliyev

Ön cəbhədə olan heç bir dənizçinin gözləri arxada qalmadı

Müharibədən qabaq ermənilər məsxərə ilə deyirmişlər ki, "Məgər azərbaycanlılar vuruşmağı bacarır? İrəli gəlsələr, biz Bakıya qədər gedəcəyik!". Tural Fətəliyev kimi igidlərimiz də belə sarsaq danışıqlarına görə müharibənin ilk günündən düşməni elə peşman etdilər ki, dilləri söz tutmadı...

Tural Böyükağa oğlu Fətəliyev 1990-cı il yanvarın 30-da Bakıda anadan olub.

2010-cu ildən ASCO-nun "Bibiheybət" Gəmi Təmiri Zavodunun Mexaniki təmir bölməsində gəmi təmiri çilingəri işləyir.

Bir çox qeyrətli və cəsur oğullarımız kimi, o da cəbhəyə könüllü yollanıb və bunu Vətən qarşısında övladlıq borcu hesab edib.

– Hələ uşaq ikən bədnam qonşularımızın xalqımızın başına gətirdikləri müsibətlər barədə çox eşitmişdim, – deyir Tural Fətəliyev. – Erməni faşistlərinin vəhşicəsinə qətlə yetirdikləri günahsız azərbaycanlıların ruhu bizi torpaqlarımızı yağı işğalından azad etməyə çağırırdı. Odur ki, ön cəbhəyə getmək fikrimdə bir an olsa belə, tərəddüd etmədim.

Xocavənd və Füzuli rayonları uğrunda gedən döyüşlərdə iştirak edib. Qorxunun nə olduğunu bilməyib. Daim irəliyə can atıb.

Tural Fətəliyev deyir ki, Ali Baş Komandanın hər bir çıxışı, çağırışı və düşmənə göstərdiyi yumruq bizim qollarımıza qüvvət verirdi. ASCO-nun rəhbərliyinin isə dənizçi döyüşçülərin ailələrini daim diqqətdə saxlaması, onlara hər cür qayğı göstərməsi doğmaları ilə bağlı narahatlıqlarını tamam aradan qaldırmışdı. Ön cəbhədəkilərin işi torpaqlarımızı yağılardan təmizləmək idi. Bunun da öhdəsindən layiqincə gəldilər. Çünki, gözləri arxada deyildi...



Vəfadar Həşim oğlu İbrahimov



“Cəsur döyüşçü” medalı

“Cəbrayılın azad olunmasına görə” medalı

“Füzulinin azad olunmasına görə” medalı

Hospitalda müalicə olunanda da bütün fikri cəbhədə idi

İkinci Qarabağ savaşında hiyləgər, məkrli düşmənə layiq olduğu cəzanı vermək üçün rəşadətli Ordumuzun gücünə güc qatmağa tələsən qəhrəman oğullarımızdan biri də Vəfadar İbrahimov olub.

Vəfadar Həşim oğlu İbrahimov 1986-cı il mayın 26-da Göyçayda dünyaya göz açıb. 2004-cü ildə orta məktəbi bitirib, sonra Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib. 2017-ci ildən "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunun Mexaniki təmir bölməsinin Takelaj sahəsində çalışır.

2020-ci il sentyabrın 28-də çağırış vərəqəsi alıb və səhəri gün böyük ruh yüksəkliyi ilə cəbhə bölgəsinə yollanıb. Həqiqi hərbi xidmətdə tankçı olsa da, müharibədə quru qoşunların tərkibində sıravi əsgər kimi döyüşüb. Döyüş yolu Füzuli rayonundan başlayıb. Qarğabazar (qədim adı Qarğıbazar), Kürdlər, Aşağı Əbdürrəhmanlı, Yuxarı Əbdürrəhmanlı və s. kəndlərin düşmən əsarətindən azad edilməsində fəal iştirak edib. Sonra Cəbrayıla sarı istiqamət götürüblər. "Dostlar bulağı" adlanan yerdə yağıya göz açmağa imkan verməyiblər. Burada mənfur düşmənin silahlarını, yaralanmış yoldaşlarını döyüş meydanında qoyub necə qaçdığının şahidi olublar.

Silahdaşları ilə Cəbrayılın da bir sıra Arazqırağı kəndlərini azad etdikdən sonra Hadrut və Xocavənd uğrunda gedən döyüşlərə qatılıb. Bu ərazilərdə gedən qızğın döyüşlərdə düşmən igidlərimizi hər növ silahdan atəşə tutub. Buna baxmayaraq, məğrur Ordumuz yağının hər həmləsinin qarşısını alıb və irəliləyib.

İşğaldan azad olunmuş ərazilərdə müdafiə postları qurub bayrağımızı sancandan sonra, oktyabrın 24-də yenidən Füzuliyə qayıdıblar. Yuxarı Əbdürrəhmanlıda gedən döyüşlərdə Vəfadar yaralanıb. Bütün fikri cəbhədə olduğu üçün hospitalda onu müalicə edən tibb işçilərindən tez sağaltmalarını xahiş edib. Artıq noyabrın 7-də Daşaltıda olub. Noyabrın 10-da isə Şuşaya gəlib... Bir müddət Şuşanın müdafiəsinin təminində iştirak edib. Dekabrın 11-də tərxis olunub.

İkinci Qarabağ savaşında şərəfli döyüş yolu keçən Vəfadar İbrahimovun sinəsini "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları bəzəyir.



Araz Famil oğlu İslamov



“Hərbi xidmətlərə görə” medalı

“Suqovuşanın azad olunmasına görə” medalı

Hər qarış torpağın azad edilməsinin öz sevinci vardı

Torpaqlarımızın 20 faizinin ermənilər tərəfindən işğalı bütün xalqımız kimi, Araz İslamovu da çox üzürdü. Müstəqil Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, bütün torpaqlarımızda üçrəngli bayrağımızın dalğalanması üçün əlindən gələn hər şeyə hazır idi. Müdrikliyinə, qətiyyətinə, sərkərdəlik məharətinə Aprel döyüşlərində bir daha heyran olduğu Ali Baş Komandanımızın "İrəli!" əmrini gözləyirdi...

Araz Famil oğlu İslamov 1993-cü il dekabrın 31-də Bakı şəhərində dünyaya göz açıb.

Qaradağ rayonunun Ələt qəsəbəsində Seyfulla Məmmədov adına 110 saylı tam orta məktəbdə təhsil alıb. 2012-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasına daxil olub. 2016-cı ildə ADDA-nı "Dəniz texnikası və texnologiyası mühəndisliyi" ixtisası üzrə bitirib və müddətli həqiqi hərbi xidmət keçmək üçün şanlı Azərbaycan Ordusu sıralarına çağırılıb. 2017-ci ildə Ordu sıralarından tərxis olunub.

2018-ci ilin aprelindən ASCO-nun "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda gəmi gövdə təmirçisi kimi işə başlayıb. 2020-ci ilin martından Texniki nəzarət şöbəsində usta köməkçisi vəzifəsində işləyir.

Vətən müharibəsinin üçüncü günü könüllü cəbhəyə yollanıb. Oktyabrın 3-dən döyüşlərə qatılıb. Kəşfiyyat bölüyündə qrup komandiri kimi Ağdərə, Tərtər istiqamətində gedən döyüşlərdə, Talış kəndinin, Suqovuşanın azad edilməsi əməliyyatlarında iştirak edib.

Cəsur döyüşçü deyir ki, bizim əsgər və zabitlərimizin Vətən sevgisinin qarşısını heç kim və heç nə ala bilməzdi. Yalnız irəli getmək barədə düşünürdük. Yağının əlçatmaz hesab etdiyi yüksəkliklərə bayrağımızı sancmaqla düşmənin sinəsinə dağ çəkirdik. Hər qarış torpağın azad edilməsinin də öz sevinci vardı. Bizə elə gəlirdi ki, işğaldan azad etdiyimiz müqəddəs torpaqlarımız əzəli sahiblərinin gəlişinə bizdən heç də az sevinmir. Çox gözəl hislər idi...

İgid kəşfiyyatçı Araz İslamov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Hərbi xidmətlərə görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.



Rais Niyazi oğlu Teyyublu



“Füzulinin azad olunmasına görə” medalı

“Şuşanın azad olunmasına görə” medalı

İlk gündən yağını qabağına qatıb qovanlarla çiyin-çiyinə vermişdi

"Möhtərəm prezidentimiz İlham Əliyev ən mötəbər tədbirlərdə, ən yüksək tribunalarda əzəli torpaqlarımızda heç vaxt və heç bir şərtlə ikinci erməni dövlətinin yaradılmasına imkan verilməyəcəyini dəfələrlə bildirmişdi. Hər çıxışında Ermənistan rəhbərliyini ölkəmizə qarşı işğalçılıq siyasətinə son qoymağa, torpaqlarımızı öz xoşları ilə tərk etməyə çağırırdı. Təəssüf ki, xalqımızın təbiətindən doğan bu sülhsevər təklifləri qanımıza susayanlar düzgün qiymətləndirməyə qadir olmadılar. Öz günahları üzündən döyüş meydanında ağır məğlubiyyətin acısını yaşadılar."

Bu sözlər ASCO-nun gəmi təmiri zavodunun işçisi və Vətən müharibəsinin ilk günündən əlinə silah alan igid döyüşçü Rais Teyyublunun dilindən çıxıb.

Rais Niyazi oğlu Teyyublu 1993-cü il iyunun 1-də Kürdəmir rayonunun Qarasu kəndində dünyaya göz açıb.

Qarasu kənd tam orta məktəbində və Bakıdakı 6 saylı peşə liseyində təhsil alıb.

2013-cü ilin iyununda həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına çağırılıb. Tərxis olunduqdan sonra – 2015-ci ilin yanvarından sığorta şirkətində çalışıb.

2017-ci ilin fevralından taleyini ASCO ilə bağlayıb, "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda rəngsaz işləyir.

Vətən müharibəsinin ilk günü sıravi əsgər kimi Ordu sıralarına qatılıb.

Döyüş yolu Füzuli rayonunun Alxanlı kəndindən başlayıb. Xocavənd, Füzuli, Hadrut və Şuşa istiqamətlərində gedən döyüşlərdə iştirak edib.

– Dövlət başçımızın müdrik siyasəti bizə Qalibiyyət bəxş etdi, – deyir Rəis Teyyublu. – Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə işğal altında inləyən doğma torpaqlarımız öz həqiqi sahiblərinə qaytarıldı. Zəfərimizlə başa çatan Vətən müharibəsində dünya həm də Azərbaycan xalqının necə igidlər yetirdiyini gördü. Şadam ki, həmin günlərdə mən də yağını qabağına qatıb qovanlarla çiyin-çiyinə vermişdim.

Ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda gedən döyüşlərdə göstərdiyi şücaətə görə Rais Teyyublu ölkə başçısı cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.



Elçin Rəfael oğlu Abbaszadə



“Laçının azad olunmasına görə” medalı

Laçını anasının qucağında tərk etmişdi

Elçin Rəfael oğlu Abbaszadə 1991-ci il dekabrın 6-da Laçın şəhərində anadan olub. Laçında doğulsa da, Laçını doğmalarının söz-söhbətlərindən sevib. 1992-ci il mayın 18-dən məcburi köçkün taleyi yaşayıb. Yurd-yuvaları erməni faşistləri tərəfindən işğal olunduqdan sonra ailəsi Bakıya üz tutub və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Xətai rayonunda yerləşən yataqxanasında məskunlaşıb.

2013-cü ildən ASCO-nun "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunun Gövdə-qaynaq bölməsində çalışır. Gəmi takelajçısı kimi işin öhdəsindən layiqincə gəldiyindən kollektivdə xətrini istəyirlər.

Arzuları çox olub, sayı-hesabını bilməyib. Elə arzusu olub ki, Elçini yaşadıb, elə arzusu da olub ki, Elçin yaşadıb. Ən böyük arzusu beşaylıq körpə ikən anasının qucağında tərk etdiyi doğma Laçına yenilməz Azərbaycan Ordusunun əsgəri kimi qayıtmaq olub. Bu arzu ilə yatıb, bu arzu ilə durub. Elə bu arzunu gerçəkləşdirmək niyyəti ilə də 2020-ci il iyulun 14-də könüllü Ordu sıralarına yazılıb. Vətən müharibəsi başlayandan dörd gün sonra – oktyabrın 1-də artıq əlində silah olub. Doğulduğu Laçın istiqamətində gedən döyüşlərə cəngavər kimi atılıb.

Sıravi əsgər Elçin Abbaszadə deyir ki, erməni işğalı nəticəsində əzəli torpaqlarından didərgin düşənlərin 28–30 illik yurd həsrətinə son qoyduğu üçün ilk növbədə Ali Baş Komandanımıza minnətdarıq. Məhz cənab İlham Əliyevin böyük sərkərdəlik məharəti şanlı Ordumuza 44 günə belə möhtəşəm Qələbəyə imza atmağa imkan verdi.

Ölkə rəhbəri cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə təltif edildiyi "Laçının azad olunmasına görə" medalı igid döyüşçü Elçin Abbaszadəyə həmin günlərdən xatirədir.



Ramil Vahid oğlu Bədəlov



“Qubadlının azad olunmasına görə” medalı

“Düşmənin qurduğu maneə və istehkamları başlarına uçura-uçura irəliləyirdik”

Xain qonşularımız 30 il işğal etdiyi torpaqlarımızda bütün vasitələrlə möhkəmlənməyə çalışanda ağıllarına belə gəlmirdi ki, Ramil Bədəlov kimi igidlərimizin Vətən sevgisinin qarşısını heç nə ala bilməz... Ala bilmədi də!

Ramil Vahid oğlu Bədəlov 1990-cı il noyabrın 28-də Gürcüstanda anadan olub. Odlar Yurdu Universitetinin “Beynəlxalq iqtisadi münasibətlər” fakültəsində təhsil alıb. Sonra tale onu Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinə gətirib çıxarıb. “Zığ” Gəmi Təmiri və Tikintisi Zavodunun Tərsanə bölməsində rəngsaz işləyir. Peşəsini çox sevir. Ailəlidir, iki övladı – 8 yaşlı qızı və 6 yaşlı oğlu var.

Hərbi əməliyyatlar başlayan ilk gündən döyüşə can atıb. İki övladı olduğu üçün tanış-bilişin onu fikrindən daşındırmaq cəhdi nəticəsiz qalıb. 2020-ci il sentyabrın 30-da könüllü olaraq cəbhəyə yollanıb.

Goranda müəyyən təlimlər keçib. Oktyabrın 6-da Ramilin heyət üzvü olduğu 120 mm-lik minaatan batareya Füzulinin Əhmədbəyli kəndi uğrunda döyüşlərə qatılır. Düşmənin burnunu ovandan sonra, oktyabrın 20-də Cəbrayılın Ağtəpə yüksəkliyinə doğru üz tuturlar. Burada daha ağır döyüşlər gedir. Yağı hər növ silahdan və ağır artilleriyadan istifadə etsə də, sarsıdıcı zərbələr alır. Hər zərbədən sonra yaralılarını, şəhidlərini və silahlarını ataraq geriyə çəkilməyə məcbur olur. Oktyabrın 26-dan isə Cəbrayılın Dağ Tumas kəndi uğrunda döyüşlərdə düşmənin nəfəsini kəsməyə nail olurlar.

Həmin günləri xatırlayan Ramil Bədəlov deyir:

– Oktyabrın 30-da Qubadlının Xanlıq kəndinə üz tutduq. Orada da hərbi uğurlara imza atdıq. Noyabrın 4-də Qubadlının Çərəli kəndinə çatdıq. Düşmənin qurduğu maneə və istehkamları başlarına uçura-uçura irəlilədik və Qubadlının mərkəzini, habelə bütün strateji yüksəkliklərini ələ keçirdik.

Ramil deyir ki, həm ASCO-dan, həm də çalışdığı zavoddan onunla müntəzəm maraqlanıblar, ailəsi ilə əlaqə saxlayıb, hər cür köməklik göstəriblər. Sağ olsunlar!

Təltifləri ilə maraqlananda da cavabı ibrətamiz oldu:

– Ən böyük təltifim qazanılmasında mənim də payım olan Qələbəmizdir. Bundan böyük mükafat?!

Vətənpərvər igidin sinəsini ölkə başçısı cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə təltif edildiyi “Qubadlının azad olunmasına görə” medalı bəzəyir.



Kamal Şakir oğlu Hətəmov

Ali Baş Komandanımızın "İrəli!" əmrini sevinclə qarşılayan igid qaynaqçı

"Ali Baş Komandanımız cənab İlham Əliyev faşist xislətli ermənilərin 27 sentyabr təxribatı günü "İrəli!" əmrini verəndə sanki dünyanı bizə bağışladılar. Neçə il idi dahi sərkərdəmizin bu əmrini gözləyirdik. Bu əmrlə son illər işğal həvəsi daha da artan düşmənin təkcə xeyli canlı qüvvəsini və texnikasını məhv etmədik, diz çöküb, yalvarana kimi qovduq".

Bu sözləri ASCO-nun "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunun işçisi Kamal Hətəmov İkinci Qarabağ savaşında döyüş yoldaşlarının rəşadətindən danışarkən söyləyib.

Kamal Şakir oğlu Hətəmov 1994-cü il oktyabrın 30-da Yardımlı rayonunun Gərsəva kəndində dünyaya göz açıb.

2001-ci ildə Gərsəva kənd orta məktəbinin birinci sinfinə daxil olub. 2009-cu ildə doqquzuncu sinfi bitirdikdən sonra 3 il 6 ay oxuduğu Qaradağ rayonunun Sahil qəsəbəsindəki peşə liseyində "Elektrik maşınlarının mexanizmi, elektrik çilingəri və elektrik-qaz qaynaqçısı" ixtisaslarına yiyələnib.

2013–2015-ci illərdə müddətli həqiqi hərbi xidmət keçib.

2016-cı ilin fevralından "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda yardımçı fəhlə kimi işə başlayıb. 2017-ci ildən bu "gəmi müalicəxanası"nda qaynaqçı işləyir.

Hələ Tovuz döyüşləri zamanı cəbhəyə getmək istəyib, könüllü kimi qeydiyyata da götürülüb. Vətən müharibəsi başlayan gün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Yardımlı rayon şöbəsinin qapısını döyüb. Sentyabrın 29-dan müstəqil ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərə qatılıb.

Tank əleyhinə qumbaraatan əsgər kimi Kəlbəcər, Ağdərə istiqamətlərində gedən döyüşlərdə iştirak edib.

– İgidlərimiz düşmən üzərində qazandıqları parlaq Qələbə ilə təkcə müstəqil Azərbaycanın ərazi bütövlüyünü bərpa etmədilər, – deyir Kamal Hətəmov. – Bu misilsiz Zəfərlə həm də bütün dünyaya sübut etdilər ki, Qarabağ Azərbaycanın olub, Qarabağ Azərbaycandır və Qarabağ həmişə Azərbaycanın olacaq!



Elməddin Namiq oğlu Fərmanov



“Cəbrayılın azad olunmasına görə” medalı

“Xocavəndin azad olunmasına görə” medalı

"Xalqımıza yalnız Qələbə yaraşır. Həm də belə Qələbə!"

"Deyirlər ki, düşmən təslim oldu. Düşməni Ali Baş Komandanımızın rəhbərliyi ilə xalqımızın bir-birindən igid, cəngavər oğulları diz çökdürdülər. Haqq-ədalətin bərpası naminə aparılan döyüşlərdə rəşadətli Ordumuzun sürətlə irəliləməsi, işğal altında olan hər qarış torpağımızda düşməni ağır itkilərə məruz qoyması xain, məkrli qonşumuzu ağ bayraq qaldırmağa vadar etdi. Yağı çox yaxşı bilirdi ki, gec-tez, biz öz torpaqlarımıza qayıdacağıq."

Bu fikirlər 44 günlük Vətən müharibəsində əldə olunan Böyük Qələbə ilə bağlı təəssüratlarını bölüşərkən ASCO-nun işçisi Elməddin Fərmanovun dilində səslənib.

Xüsusilə vurğulayıb ki, əsgərlərimiz üçün Vətənimizin ərazi bütövlüyü, torpaqlarımızın azadlığı hər şeydən öndə gəlirdi. Uşaq yaşlarından bu sevda ilə yaşadıqlarından, bu yolda canlarından keçməyə də mənəvi cəhətdən hazır idilər.

Elməddin Namiq oğlu Fərmanov 1995-ci il noyabrın 2-də Bakıda anadan olub.

Halal çörəyi hər şeydən üstün tutan, bu dünyada ən çox əllərinin qabarına güvənən gənclərimizdəndir. 2015-ci ildən taleyini ASCO ilə bağlayıb. "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunun Tərsanə bölməsində rəngsaz işləyir.

Vətənin dar günündə səsinə hay verməyi ən müqəddəs borcu sayıb. Elə buna görə, İkinci Qarabağ savaşı başlayanda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə müraciət edərək könüllü döyüşlərə qatılmaq istədiyini bildirib. Müraciəti müsbət qarşılanıb.

Müzəffər Ordumuzun tərkibində Cəbrayıl, Xocavənd, Füzuli, Zəngilan və Qubadlı uğrunda gedən döyüşlərdə iştirak edib.

– Çox şükür ki, dogma Azərbaycana Qələbə qismət oldu, – deyir Elməddin Fərmanov. – Xalqımıza yalnız Qələbə yaraşır. Həm də belə Qələbə!

Şərəfli döyüş yolu keçmiş Elməddin Fərmanov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.



Ramazan Yaşar oğlu İslamov



“Laçının azad olunmasına görə” medalı

İgid qumbaraatan da xalqımızın birliyi ilə əsgərlərin döyüş ruhunun Qələbəni daha tez əldə etməyə imkan verdiyini düşünür

Əzəli-əbədi torpaqlarımıza soxulan və bütün əməlləri ilə çıxmaq fikrində olmadıqlarını bildirən erməni işğalçılarını dəmir yumruqla başa salan qeyrətli oğullarımızdan biri də ASCO-nun "gəmi müalicəxanası"nda çalışan Ramazan İslamov olub.

Ramazan Yaşar oğlu İslamov 1994-cü il fevralın 9-da Bakı şəhərində dünyaya göz açıb.

2011-ci ildə daxil olduğu Azərbaycan Dövlət Dəniz Akademiyasında "Prosseslərin avtomatlaşdırılması" ixtisası üzrə bakalavr təhsili alıb.

2017-ci ildən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunun İstehsalat-dispetçer şöbəsində çalışır. Sənədlərə nəzarət üzrə mütəxəssisdir.

Hələ 2016-cı ildə Aprel döyüşlərində iştirak edib. Döyüşün nə olduğunu bildiyindən, düşməni gözündən vurmağı bacaran igidimiz Vətənin onun köməyinə ehtiyacı olanda tərəddüdsüz yenidən əlinə silah alıb. Sentyabrın 28-dən qumbaraatan kimi Füzuli, Xocavənd istiqamətində gedən döyüşlərdə, sonralar Suşa və Laçının müdafiəsində iştirak edib.

– Savaşa bu inamla başlamışdıq ki, Qarabağ həmişə Azərbaycanın olub və həmişə də Azərbaycanın olacaq, – deyir Ramazan İslamov. – Bu inamla da vuruşurduq. Bütün Azərbaycan xalqının müdrik, qətiyyətli dövlət başçımız İlham Əliyevin ətrafında sıx birləşməsi, rəşadətli Silahlı Qüvvələrimizə hər cür dəstək göstərməsi Zəfər tariximizi xeyli qabağa çəkdi. İşğaldan azad etdiyimiz hər bir yaşayış məskənimizdə Odlar yurdunun üçrəngli bayrağının dalğalandığını görmək isə çox böyük sevinc idi...

İgid döyüşçü Ramazan İslamovun sinəsini Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə təltif edildiyi "Laçının azad olunmasına görə" medalı bəzəyir.



Elşən Eldar oğlu Əlisoltanov



“Xocavəndin azad olunmasına görə” medalı

“Qubadlının azad olunmasına görə” medalı

Vətən sevgisi çox şeyi həll etdi

"Şübhəsiz ki, müxtəlif növ ən yeni silah və texnikalar Azərbaycan Silahlı Qüvvələrinin gücünü artırır. Amma şanlı Ordumuzu belə qüdrətli edən ilk növbədə əsgər və zabitlərimizin Vətən sevgisidir. Bunu rəşadətli Ordumuzun Vətən müharibəsində Zəfəri də təsdiqlədi. Mədəniyyət mərkəzimiz Şuşanı isə igidlərimiz demək olar ki, yalın əllə işğalçılardan təmizlədilər."

"Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunun gəmi təmiri çilingəri Elşən Əlisoltanovun bu fikri ilə razılaşmamaq mümkün deyil. Özü də ürəyi məhz Vətən sevgisi ilə və Vətən üçün döyünən igidlərimizdəndir.

Elşən Eldar oğlu Əlisoltanov 1992-ci il dekabrın 11-də Bakı şəhərinin Bayıl qəsəbəsində dünyaya göz açıb.

1999-cu ildə Badamdar qəsəbəsindəki Tofiq Məmmədov adına 239 saylı orta məktəbin birinci sinfinə daxil olub və 2008-ci ildə doqquzuncu sinfini bitirib.

Uşaqlıqdan Xəzərdə üzən gəmiləri seyr etməyi xoşlayıb. 2008-ci ildə daxil olduğu Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecində "Gəmilərin təmiri" ixtisasına yiyələnib.

2017-ci ildən ASCO-nun "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda gəmi təmiri çilingəri işləyir.

Vətənin igidlərə ehtiyacı olanda Elşən Əlisoltanov da övladlıq borcunu yerinə yetirmək üçün ön cəbhəyə tələsib. Sıravi əsgər kimi Xocavənd istiqamətində gedən döyüşlərdə, Qubadlı və Zəngilanın müdafiə və mühafizəsində iştirak edib.

Ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüşlərdə göstərdiyi şücaətə görə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə Elşən Əlisoltanov "Xocavəndin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

– Qələbənin qazanılmasında sözsüz ki, əsgər və zabitlərimizin hünəri, cəsarəti, qorxmazlığı böyük rol oynadı, bu, danılmazdır, – deyir Elşən Əlisoltanov. – Amma, düşmənin belini qırdığımız kimi qırmaq üçün igidlərimizə Ali Baş Komandanımız kimi hər şeyin vaxtını, məqamını dəqiq bilən dahi sərkərdə lazım idi. Məhz cənab İlham Əliyevin müdrik rəhbərliyi 27–30 il hiyləgər ermənilərin işğalı altında olan Qarabağımızı 44 günə azad etməyə imkan verdi.



Pünhan Qafur oglu Əhədov



“Xocavəndin azad olunmasına görə” medalı

Bütün döyüşlərə Vətən sevgisi ilə atılan cəsur çavuş

Pünhan Qafur oğlu Əhədov 1988-ci il noyabrın 29-da Sabirabad rayonunun Ulacalı kəndində anadan olub.

1994–2005-ci illərdə Böyükağa Ağayev adına kənd tam orta məktəbində təhsil alıb.

2007-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2008-ci ildə Ordu sıralarından tərxis olunduqdan sonra bir müddət Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Qarasu neft yataqlarında çalışıb. 2009-cu ildə 6 saylı Bakı peşə liseyini "Motorçu-elektrik" ixtisası üzrə bitirdikdən sonra taleyini Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi ilə bağlayıb. 2012-ci ildən isə ASCO-nun "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda gəmi boruçəkəni işləyir.

Vətən müharibəsi başlayan gün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə üz tutub və könüllü olaraq ön cəbhəyə getmək istədiyini bildirib. Yaşına və ailə vəziyyətinə görə "yox" cavabı alıb. Azərbaycanın ərazi bütövlüyünün təmin olunması əməliyyatlarında iştirak etmək istədiyini sentyabrın 27-dən hər gün komissarlığın qapısını döyməklə sübut edib. Oktyabrın 1-də istəyinə nail olub.

Çavuş Pünhan Əhədov Füzuli, Xocavənd istiqamətlərində gedən döyüşlərdə baş atıcı kimi iştirak edib. Sərrast atəşləri ilə düşməni torpaqlarımıza soxulmağına peşman edib. Qələbədən sonra isə Xocavəndin, Ağdamın kəndlərinin müdafiəsini təmin edən igidlərlə bir-birinə arxa-dayaq durublar. Vətən qarşısında övladlıq borcunu layiqincə yerinə yetirən igid çavuş 2020-ci il dekabrın 26-da Ordudan tərxis olunub.

Vətən torpaları uğrunda gedən döyüşlərdə göstərdiyi şücaətə görə Pünhan Əhmədov ölkə rəhbəri İlham Əliyevin Sərəncamı ilə "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilib.

Pünhan Əhədov deyir ki, döyüşlərə Vətən sevgisi ilə atılıb və elə bu sevgi də bütün çətinlikləri dəf etməkdə ona yardımçı olub.



Yusif Dmitriyeviç Spasyuk

Xalqımıza Qələbə sevincini yaşadanların sırasında olmaqdan bu gün də qürur duyur

İkinci Qarabağ savaşında doğma torpaqlarımız uğrunda canından keçməyə hazır olan cəsur gənclərimizdən biri də Yusif Spasyuk idi. Mətin Ali Baş Komandanın rəhbərliyi altında qəhrəmanlıq tarixi yazan yenilməz Ordumuz işğal altında olan torpaqlarımızı qarış-qarış azad etdikcə, o, həm də Odlar yurdunun övladı olması ilə fəxr edirdi.

Yusif Dmitriyeviç Spasyuk 1996-cı il fevralın 21-də Bakı şəhərində dünyaya göz açıb.

Paytaxtın Nizami rayonundakı 220 nömrəli məktəb-liseyində təhsil alıb.

2016-cı ildə Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kollecini bitirib.

2016–2018-ci illərdə Azərbaycan Ordusu sıralarında müddətli həqiqi hərbi xidmətdə olub.

2018-ci ilin oktyabrından "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda tornaçı işləyir.

İkinci Qarabağ savaşı başlayanda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə müraciət edərək könüllü cəbhəyə getmək istədiyini bildirib. Əvvəlcə həmlə taborunda sıravi əsgər, sonra kəşfiyyatçı kimi təlim keçib. Döyüş tapşırıqlarını həmişə dəqiq yerinə yetirib.

– Cəbhəyə könüllü yola düşən bütün gənclərin bir arzusu var idi, – deyir Yusif Spasyuk. – Vətən qarşısında övladlıq borcunu layiqincə yerinə yetirmək və haqq savaşımızda xalqımıza çoxdan gözlədiyi Qələbə sevinci yaşadanların sırasında olmaq! Həqiqətə kor olmuş dünya gücləri, ermənipərəst dairələr haqq-ədalətin zəfər çala bilməməsi üçün çox çalışdılar, müxtəlif vasitələrlə mane oldular. Amma heç nə müstəqil Azərbaycanın ərazi bütövlüyünü bərpa etməyə söz verən müdrik dövlət başçımız cənab İlham Əliyevi qətiyyətindən döndərə bilmədi. Dahi sərkərdənin rəhbərliyi ilə rəşadətli Ordumuz çiyninə düşən vəzifəni şərəflə yerinə yetirdi. Uca Yaradan bizi dünyaya Qalib Xalq kimi tanıdan Ali Baş Komandanımızı, Azərbaycan xalqını və şanlı Ordumuzu qorusun!



Marat Kamiloviç Akçurin

Odlar yurdunun övladı olması ilə həmişə fəxr edib

"Biz bir olsaq, dünyanı mat qoyan birliyimizi unutmasaq, dərd-sərin nə olduğunu birdəfəlik unudarıq. Vətən müharibəsində də biz hamımız əvvəlcə bir olduq və sonra bütün dünyaya sübut etdik ki, Qarabağ Azərbaycandır!"

Bu sözlər doğulduğu Odlar yurdu uğrunda canından keçməyə həmişə hazır olan Marat Akçurinə məxsusdur.

Marat Kamiloviç Akçurin 1971-ci il avqustun 26-da Bakı şəhərində doğulub. 1988-ci ildə orta məktəbi, 1994-cü ildə isə Azərbaycan Texniki Universitetini bitirib.

1997–2000-ci illərdə hərbi xidmətdə taqım komandiri olub. 2001–2017-ci illərdə "Caspian Shipyard Company" şirkətində çalışıb. 2018-ci ildən ASCO-nun "Zığ" Gəmi Təmiri və Tikintisi zavodunda işləyir. Anbar təsərrüfatının müdiridir.

– Vətən müharibəsi başlayanda mənə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən çağırış gəldi, – deyir Marat Akçurin. – Bu çağırışı 30 il idi gözləyirdim. İkinci Qarabağ savaşında iştirak edən döyüşçülərin əksəriyyəti Birinci Qarabağ savaşı dövründə və ya ondan sonrakı illərdə doğulmuş gənclər idi. Və həmin dövr haqqında yalnız televiziya ekranından və ya tarix kitablarından məlumat əldə ediblər. Mən isə o dövrün canlı şahidi idim. Xalqımızın başına gətirilən zülmü görmüşdüm. Heç bir kamera gördüklərimi tam əks etdirə bilməz, heç bir yazıçı həmin ağrı-acıları olduğu kimi çatdıra bilməz. Gördüklərim məni qisasa səsləyirdi.

Vətən çağıranda köməyinə tələssə də, təəssüflənir ki, döyüşlərdə iştirak etmək ona nəsib olmayıb. Amma artilleriya divizionunun tərkibində işğaldan azad edilmiş Zəngilan rayonunun müdafiəsində çiyninə düşən vəzifə borcunu layiqincə yerinə yetirib. Bu xidmətlərinə görə Fəxri fərmanla təltif olunub.

Marat Kamiloviç Akçurin deyir ki, şanlı Qələbədən əvvəl də Odlar yurdunun övladı olması ilə fəxr edib. Bu gün də fəxr edir. Uca Yaradan nə qədər ömür veribsə, o qədər də fəxr edəcək.



Rəşid
Emil oğlu
Abdullazadə

Xalqımıza yaraşan Zəfərin qazanılmasında payı olan qumbaraatan

"Qarabağdan uzaqda doğulsam da, bütün xalqımız kimi, mənim də qəlbim həmişə Qarabağla döyünüb. Mən ərazi bütövlüyümüzü bərpa edəcəyimizə adımın Rəşid olduğuna inandığımdan daha çox inanmışam. Erməni xislətinə bələd olduğum üçün, bunun danışıqlar yolu ilə gerçəkləşəcəyinə həmişə şübhə ilə yanaşmışam. Ona görə, müharibənin nə vaxt başlayacağından asılı olmayaraq, özümü əvvəlcədən qanlı-qadalı döyüşlərə hazırlamışdım."

Bu kəlmələr xalqımızın vətənpərvər oğlu – "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin işçisi Rəşid Abdullazadənin dilində səslənib.

Rəşid Emil oğlu Abdullazadə 1995-ci il sentyabrın 17-də Sumqayıt şəhərində anadan olub.

2001–2012-ci illərdə Sumqayıt şəhəri 1 saylı tam orta məktəbdə təhsil alıb.

2012–2016-cı illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasında "Dəniz texnikası və texnologiyasının istismarı mühəndisliyi" ixtisasına yiyələnib.

2018-ci ildən "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunun Gövdə-qaynaq bölməsində qaynaqçı işləyir. Həmçinin 2019-cu ildən istehsalatdan ayrılmadan Azərbaycan Dövlət Dəniz Akademiyasında ikinci – "Gəmi energetik qurğularının istismarı mühəndisliyi" ixtisasına yiyələnir.

Vətən müharibəsinin ilk günündən "N" saylı hərbi hissənin ehtiyat taborunda qumbaraatan əsgər kimi xidmət edib. Daim döyüşlərə can atıb. Zəngilanın mühafizə-müdafiəsində yaxından iştirak edib. Şanlı Qələbədən sonra həm də sərhədlərin bərpası zamanı düşmənin minaladığı ərazilərə 30 ildən sonra ilk dəfə ayaq basan Azərbaycan əsgəri olmasının qürurunu yaşayıb.

– Cənab İlham Əliyev kimi Ali Baş Komandanımızın olması əslində Vətən müharibəsində Ordumuzun işini xeyli yüngülləşdirmişdi, – deyir Rəşid Abdullazadə. – Məhz dövlət başçımızın böyük sərkərdəlik məharəti şanlı Ordumuza qısa zamanda misli görünməmiş qəhrəmanlıq səhifəsi yazmağa imkan verdi. Üçrəngli bayrağımıza uca zirvələrdə dalğalanmaq yaraşdığı kimi, xalqımıza da bu Zəfər çox yaraşır.



Bəxtiyar Fikrət oğlu Əliyev

“Elə bir gün olmayıb ki, doğmalarımın qayğıları ilə maraqlanmasınlar”

Vətən sevgisi sonsuz olan gəmi təmirçilərimizdən biri də Bəxtiyar Əliyevdir. Azərbaycan tarixinin və yenilməz Ordumuzun ən şərəfli dövrünün şahidi olduğu üçün özünü xoşbəxt sayır.

Bəxtiyar Fikrət oğlu Əliyev 1977-ci il noyabrın 18-də Quba rayonunda dünyaya göz açıb.

1995-ci ildə Bakıda orta məktəbi bitirdikdən sonra Azərbaycan Texniki Universitetinə daxil olub.

2000-ci ildə müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb. Tərxis olunduğu 2001-ci ildən “Zığ” Gəmi Təmiri və Tikintisi Zavodunda gəmi elektrikquraşdırıcısı işləyir.

İkinci Qarabağ müharibəsi başlayanda elan edilmiş qismən səfərbərliyə görə Ordu sıralarına çağırılıb. Otuz ildən sonra yağı tapdağından azad edilmiş Qubadlı rayonunun müdafiəsində iştirak edib.

O günləri xatırlayan Bəxtiyar Əliyev deyir:

– Mənim üçün o ərazilərə ayaq basmaq əsl xoşbəxtlik idi. Həsrət bitmişdi, arzularımız artıq reallaşmışdı. Mən Qələbə qazanacağımıza inanırdım və onu həsrətlə gözləyirdim. Hələ Aprel döyüşlərində rəşadətli Ordumuzun göstərdiyi şücaət məni bu Qələbəyə inandırmışdı. Başqa cür ola bilməzdi, haqq-ədalət gec və ya tez – həmişə öz yerini tapır. Əlbəttə ki, xalqımızın da rolu burada böyük oldu. Ordunun hərtərəfli və yüksək səviyyədə təmin edilməsinə baxmayaraq, arxa cəbhədən bizə böyük maddi və mənəvi dəstək var idi.

2021-ci il fevralın 2-də Ordudan tərxis edilən Bəxtiyar Əliyev deyir ki, ön cəbhədə olduğu aylarda ailəsi ASCO-nun və zavodun rəhbərliyi tərəfindən daim diqqət və qayğı görüb. Elə bir gün olmayıb ki, doğmalarının ehtiyacları ilə maraqlanmasınlar.

– Qələbənin əldə olunmasında mənim rolum elə də böyük olmadı, – deyir Bəxtiyar Əliyev. – Buna baxmayaraq, Qələbə sevincim nəhayətsiz idi.



Bəhlul Nadir oğlu Rəsulov

Azərbaycan əsgər və zabitlərinin döyüş ruhu ən uca zirvələri əliyalın fəth etməyə də kifayət edərdi

"Döyüş meydanında Qələbənin təmin olunması üçün vacib tələblər var. Amma həmin tələblər düşmənə də bəllidirsə, onda necə? Bax, bu halda Qələbə döyüş ruhu daha yüksək tərəfə qismət olur. İkinci Qarabağ savaşında Azərbaycan əsgər və zabitlərinin döyüş ruhu ən uca zirvələri əliyalın fəth etməyə də kifayət edərdi. İnanmırsınız? Alınmaz qala sayılan Şuşanı igidlərimiz demək olar, əliyalın geri qaytarmadılar ki?!"

Bəhlul Rəsulovun bu sözlərində böyük həqiqət var. Elə bu ruh da bizə itirdiklərimizin hamısını geri qaytarmaqla ərazi bütövlüyümüzü təmin etməyin sevincini yaşatdı.

Bəhlul Nadir oğlu Rəsulov 1970-ci il noyabrın 1-də Ağdam rayonunun Novruzlu kəndində anadan olub.

1988–1993-cü illərdə Azərbaycan Dövlət Neft Akademiyasında təhsil alıb.

2015-ci ildən ASCO-nun "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda elektrik montyoru işləyir.

2020-ci il sentyabrın 21-də ehtiyatda olan zabit kimi təlimlərə qatılıb.

Vətən müharibəsində rabitəçi olub, Talış–Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak edib.

İgid rabitəçi deyir ki, döyüşlərin ən çətin, ən ağır günlərində belə əsgər, gizir və zabitlərimizin Qələbəyə inamı sonsuz idi. Hər kəs Azərbaycanın cənnəti olan Qarabağı azad etmək üçün canını verməyə, şəhidlik zirvəsinə ucalmağa hazır idi. Bir zabit kimi Vətən müharibəsində qazandığımız parlaq Qələbəmizlə yanaşı, milli birlik, həmrəylik əldə etdiyimizə görə xalqımızla, dövlətimizlə qürur duydum.



Ötərxan Vüqar oğlu Rüstəmli

Qeyrətli, cəsur oğulların sayəsində Qələbə sevincini yaşadıq

Vətən müharibəsinin ilk günündən döyüşlərə atılan Ötərxan Rüstəmli 30 ilə yaxın işğal altında olan torpaqlarımızın məhz müdrik Ali Baş Komandanımız İlham Əliyevin cəsarəti, aslan kimi vuruşan qəhrəman Azərbaycan əsgərinin hünəri ilə azad edildiyi qənaətindədir.

Ötərxan Vüqar oğlu Rüstəmli 1993-cü il mayın 25-də Göyçay rayonunda dünyaya göz açıb.

Orta təhsilini Bakının Suraxanı rayonunda alıb.

Hərbi xidmətdən sonra 2015-ci ildə "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunun Tərsanə bölməsində işə qəbul olunub. Elə həmin ildə Odessa Milli Dəniz Universitetinin "Gəmiqayırma" fakültəsinə daxil olub və 2020-ci ildə bitirib. Hazırda fəaliyyətini zavodda davam etdirir.

2020-ci il sentyabrın 21-də təlimlərə cəlb edilib. İkinci Qarabağ müharibəsi başlayanda Ağdərə istiqamətində gedən döyüşlərə qatılıb.

– Həmin ərazidə şiddətli döyüşlər gedirdi, – deyir Ötərxan Rüstəmli. – Mütəmadi olaraq ağır artilleriyadan və snayperlər tərəfindən atəşə tutulurduq. Amma şanlı Ordumuzun qarşısını heç nə kəsə bilmirdi. Yaralanan döyüşçülər də mübarizəni davam etdirirdilər. Belə qeyrətli, cəsur oğulların sayəsində Qələbənin dadını daddıq, bayrağımız Şuşada, digər ərazilərdə dalğalandı...

Bu gün təkcə ona təəssüflənir ki, bir səngərdə döyüşdüyü igidlərdən bəziləri Qələbə sevincini yaşaya bilmədi. Ötərxan Rüstəmov deyir ki, işğaldan azad etdiyimiz torpaqlarda yenidən həyatı bərpa etməklə şəhidlərimizin, Qarabağ nisgili ilə dünyadan köçənlərimizin hamısının ruhlarını şad edə bilərik.



Cavid Niyazi oğlu Böyükzadə

Azərbaycan əsgəri yağının "Dənizdən dənizə" xam xəyalını quruda basdırdı

Cavid Niyazi oğlu Böyükzadə 1995-ci il fevralın 23-də Bakı şəhərində anadan olub.

2013-cü ildə Arif Hüseynzadə adına 20 nömrəli tam orta məktəb-liseyi bitirib.

2013–2018-ci illərdə Odessa Milli Dəniz Universitetində təhsil alıb.

2017-ci ildən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində çalışır. İstehsalat Xidmətləri İdarəsinin İnformasiya texnologiyaları xidməti şöbəsinin mühəndisidir.

2020-ci il sentyabrın 30-da Ordu sıralarına çağırılıb.

Kütləvi Qırğın Silahlarından Müdafiə Taborunda xidmət edib.

Taborun əsgərləri müharibənin ilk günlərindən 2 ay təlimlərdə iştirak ediblər, zəruri döyüş hazırlığı keçib və təcrubə toplayıblar. O günləri xatırlayan Cavid Böyükzadə deyir:

– "Dənizdən dənizə" xam xəyalı ilə yatıb-duran namərd qonşularımızın könlündən nə keçməsindən, onların havadarlarının məkrli oyunlarından asılı olmayaraq biz işğal altında olan əzəli torpaqlarımıza qayıtmalı idik və qayıtdıq! Yenilməz Ordumuz böyük sərkərdə İlham Əliyev cənablarının komandanlığı ilə xalqımızın 30 illik yurd həsrətinə son qoydu. Əminəm ki, erməni vandalları tərəfindən bilərəkdən xaincəsinə dağıdılan, viran qoyulan yaşayış məskənlərimiz də müdrik dövlət başçımızın rəhbərliyi altında yenidən dirçəldiləcək.



Cavid Azər oğlu Qəndilov



“Cəbrayılın azad olunmasına görə” medalı

“Xocavəndin azad olunmasına görə” medalı

Vətənin çətin günündə silaha sarılmağı müqəddəs borcu hesab edən sistem inzibatçısı

"Ən müasir silah-sursatlarla təmin olunan qüdrətli Ordumuzun tətbiq etdiyi yeni müharibə strategiyası torpaqlarımıza göz dikən məkrli düşməni gözlədiyimizdən daha tez aciz duruma saldı. Hər dəqiq və sarsıdıcı zərbəmizdən sonra böyük itki ilə üzləşən "məğlubedilməzlər" geri çəkildikcə, bizim döyüş ruhumuz daha da yüksəlirdi."

Bu sözləri ASCO ailəsinin üzvü – sistem inzibatçısı işləyən Cavid Qəndilov Vətən müharibəsində qazanılan Qələbəmizdən danışarkən söyləyib.

Vətəni qorumağı suyunu içən, havasını udan hər kəsin borcu hesab edir Cavid. Elə buna görə, İkinci Qarabağ savaşı başlayan gün tərəddüd etmədən Ordu sıralarına qatılıb, Cəbrayıl, Zəngilan, Xocavənd, Hadrut, Qubadlı istiqamətlərində gedən döyüşlərdə atıcı-sanitar kimi iştirak edib. Həm vuruşub, həm də yaralılara ilkin tibbi yardım göstərib.

Cavid Azər oğlu Qəndilov 1993-cü il avqustun 4-də Bakı şəhərində dünyaya göz açıb.

2010-cu ildə Azərbaycan Dövlət İqtisad Universitetinin "Texnologiya və dizayn" fakültəsinə daxil olub.

2017-ci ildən ASCO-nun Azərbaycan Dövlət Dəniz Akademiyasının Təlim-Tədris Mərkəzində sistem inzibatçısı vəzifəsində çalışır.

– Vətənin çətin günündə əlinə silah almaq ilk növbədə biz gənclərin müqəddəs borcu idi, – deyir Cavid Qəndilov. – Sevinirəm ki, xəcalətli qalmadım. Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu keçirdiyi əks-hücum əməliyyatı nəticəsində işğal altındakı ərazilərimizi qısa müddətdə azad etməklə erməni mifini də darmadağın etdi. Təkcə məkrli düşmən üzərində deyil, həm də onu hər cür himayə edənlərin üzərində qazanılan bu Böyük Zəfər biz birlikdə olanda daha güclü olduğumuzu bir daha təsdiq etdi.

Cavid Qəndilovun İkinci Qarabağ savaşında şərəfli döyüş yolu keçdiyini ölkə rəhbəri cənab İlham Əliyevin müvafiq sərəncamları ilə təltif edildiyi "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları təsdiqləyir.



Elvin Qənimət oğlu Hüseynov



“Xocavəndin azad olunmasına görə” medalı

“Füzulinin azad olunmasına görə” medalı

“Şuşanın azad olunmasına görə” medalı

Ata-baba ocağını məcburi tərk edəndə uşaq, qayıdanda rəşadətli Ordumuzun zabiti idi

"Otuz il beynəlxalq hüquq normalarına məhəl qoymayan, işğal etdiyi torpaqlarımızda xislətinə xas olan bütün iyrənc yollar və vasitələrlə möhkəmlənməyə çalışan xain qonşularımız İkinci Qarabağ savaşında yenilməz Ordumuzun qarşısında heç bircə gün də davam gətirə bilmədilər. Əks-hücum əməliyyatımızın ilk saatlarından yalnız geri çəkilməyi, bir də namərdcəsinə döyüş xəttindən çox uzaqda yerləşən yaşayış məskənlərimizi atəşə tutmağı bacardılar".

Bu kəlmələr "ASCO Mühafizə" MMC-də çalışan və Vətən müharibəsində şərəfli döyüş yolu keçən Elvin Hüseynovun dilində səslənib.

Doğulduğu ata-baba ocağını doğmalarının qucağında məcburi tərk edəndə 3 yaşı olduğundan nə baş verdiyini anlamayıb. Sonralar anlayıb və anlayandan ən böyük arzusu əlində silah dogma yurda qayıtmaq olub. Allah o günü ona 2020-ci ilin payızında nəsib edib.

Elvin Qənimət oglu Hüseynov 1990-cı il martın 31-də Füzuli rayonunun Mərdinli kəndində anadan olub.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin məzunudur.

2016-cı ildən "ASCO Mühafizə" MMC-də işləyir. Növbə rəisidir.

Vətən müharibəsi başlayanda ehtiyatda olan zabit kimi Azərbaycan Ordusu sıralarına çağırılıb. Füzuli, Xocavənd və Şuşa uğrunda gedən döyüşlərdə iştirak edib. Döyüşlərə leytenant kimi qatılan taqım komandiri savaşı bas leytenant rütbəsində bitirib.

– Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin sərkərdəlik məharəti sayəsində Qələbə sevincini yaşadıq, – deyir Elvin Hüseynov. – Böyük Zəfərlə başa çatan 44 günlük haqq savaşı günlərində birlik və həmrəyliyimizə bütün dünya həsəd aparırdı. Valideynlər yeganə övladlarını belə ön cəbhəyə göndərməyə tərəddüd etmirdilər. Elə bu birlik və həmrəylik də Qələbənin daha tez əldə olunmasında mühüm rol oynadı.

Cəsur zabit Elvin Hüseynovun sinəsini Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə təltif edildiyi "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları bəzəyir.



Hüseyn Kamal oğlu Salmanov



“Cəbrayılın azad olunmasına görə” medalı

“Xocavəndin azad olunmasına görə” medalı

“Füzulinin azad olunmasına görə” medalı

Cəsur döyüşçü

"İşğalçı Ermənistan otuz il idi ki, havadarlarına arxayın olub yalnız güc dili ilə danışırdı. Rəşadətli Ordumuz da haqq savaşında faşist Ermənistana və onun havadarlarına həm öz gücünü, həm də ədalətin gücünü göstərməyə məcbur oldu."

Bu sözləri "ASCO Mühafizə" MMC-də çalışan və İkinci Qarabağ savaşının ilk günündən Vətən uğrunda sinəsini qalxana çevirən Hüseyn Salmanov söyləyib.

Hüseyn Kamal oğlu Salmanov 1997-ci il avqustun 22-də Bakı şəhərində dünyaya göz açıb. Halal dənizçi çörəyi ilə böyüyüb. Atası Kamal Salmanov ASCO-nun sayılıb-seçilən kapitanlarındandır.

Hüseyn 2003-cü ildə 250 nömrəli tam orta məktəbin qapısını birinci sinif şagirdi kimi açıb. 2012-ci ildə doqquzuncu sinfi bitirdikdən sonra Bakı Kompüter Kollecinə daxil olub və 2016-cı ildə bu təhsil ocağını "İnformasiya texnologiyası sistemləri" ixtisası üzrə bitirib. Həmin ilin iyulunda müddətli həqiqi hərbi xidmətə yollanıb. Ordu sıralarından tərxis olunduğu 2018-ci ilin dekabrından "ASCO Mühafizə" MMC-də işləyir.

2020-ci il sentyabrın 21-də təlimlərə cəlb edilib.

Vətən müharibəsinin ilk günündən sıravi əsgər kimi ön cəbhədə olub. Təminat taqımında xidmət etdiyindən əsas işləri Füzuli, Cəbrayıl, Xocavənd rayonları istiqamətində döyüşən igidlərimizi silah-sursat və yeməklə təchiz etmək olub. Hər an partlaya bilən mərmi dolu yollarla gündə 2 dəfə 10–15 km piyada getmək də, bir-birindən uca yüksəkliklərə qalxmaq da hər oğulun işi deyil.

– Səhərlər qaranlıq, bəzən də qatı duman olduğuna görə yağının gözündən yayınmaq mümkün olurdu, – deyir Hüseyn Salmanov. – Gündüz isə düşmənin gözlərinin əhatə dairəsində olduğumuzdan hər an snayper, avtomat və ya minamyot atəşinə tuş gəlmək mümkün idi. Yükümüz ağır olanda isə hətta qoruyucu jilet geyinməkdən, başımıza dəbilqə qoymaqdan imtina edirdik ki, döyüşçülərimizi zəruri silah-sursat və ərzaqla vaxtında təmin edə bilək.

Cəsur döyüşçü Hüseyn Salmanovun işi təkcə bununla bitməyib. Taqım yoldaşları ilə Füzulidə birbaşa döyüş meydanından, Xocavənd istiqamətində gedən döyüşlər zamanı isə neytral ərazidən yaralılarımızı, şəhidlik zirvəsinə ucalmış oğullarımızı çıxartmaq üçün özləri də az qəhrəmanlıq göstərməyiblər.

Hüseyn Salmanov İkinci Qarabağ savaşında əsgəri borcunu layiqincə yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medallarına layiq görülüb.



Samir Vadim oğlu Abbasov



“Cəbrayılın azad olunmasına görə” medalı

“Xocavəndin azad olunmasına görə” medalı

Qələbə qoxusunu hiss edəndə dayanmaq istəməyiblər

"Müharibədə asan heç nə olmur və heç nə asan qazanılmır. Amma irəli getdikcə, çətinlikləri daha az hiss edirsən. Qələbə qoxusunu hiss edəndə isə dayanmaq istəmirsən. Qollarına, dizlərinə qeyri-adi güc gəlir."

Bu sözləri "ASCO Mühafizə" MMC-də çalışan və İkinci Qarabağ savaşının odundan-alovundan keçən Samir Abbasov cəbhə təəssüratlarından danışarkən deyib.

Samir Vadim oğlu Abbasov 1993-cü il dekabrın 24-də Bakı şəhərində anadan olub.

2011-ci ildə Bakının Nərimanov rayonundakı Milli Qəhrəman Gültəkin Əsgərova adına 200 nömrəli tam orta məktəbi bitirib.

2011–2015-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında təhsil alıb.

2017-ci ildən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin tabeliyində olan "ASCO Mühafizə" MMC-də işləyir.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda çox götür-qoy etməyib. İdmançı olduğu üçün belə günlərdə Vətənə daha faydalı ola biləcəyini düşünüb. Sentyabrın 29-da Ordu sıralarına qatılıb. Sıravi əsgər kimi Cəbrayıl və Zəngilan rayonları uğrunda gedən döyüşlərdə iştirak edib.

Ordu sıralarından 2020-ci il dekabrın 28-də tərxis olunub.

– Erməni işğalı altında olan əzəli torpaqlarımız uğrunda gedən haqq savaşımız parlaq Qələbəmizlə başa çatdı, – deyir Samir Abbasov. – Bu Qələbə ilk növbədə Xalq–Prezident–Ordu birliyinin Qələbəsi idi. Tarixin səhifələrinə qızıl hərflərlə yazılan Zəfərimiz məkrli düşmənlə yanaşı, bütün dünya dövlətlərinə Azərbaycanın və onun şanlı Ordusunun qüdrətini göstərdi. Azərbaycanı sevənlər xalqımızla bir sevindi, sevməyənlərin də bağrı çatladı...

Böyük Vətən eşqi ilə döyüş əməliyyatlarında şücaət göstərən Samir Abbasov ölkə rəhbəri cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.



Rəşad Hümbət oğlu Xanlarzadə

Yaralılarını da atıb qaçan düşmən bizə düşmən olmağa da layiq deyil

“Qorxu hissi əsgər və zabitlərimizə yad idi. Qalib gələcəyimizə də əmin idik. Rəşadətli Ordumuz düşmənin hər bir həmləsini qətiyyətlə dəf edib irəlilədikcə, qarşı tərəf də yaralılarını və şəhidlərini belə savaş meydanında atıb qaçırdı. Hətta yaralı ermənilər qaçan silahdaşlarına yalvarırdılar ki, onları atmasınlar.”

Bu sözləri həmin mənzərənin şahidi olan mühafizəçi Rəşad Xanlarzadə söyləyib.

Rəşad Hümbət oğlu Xanlarzadə 1996-cı il iyunun 17-də Bakı şəhərində dünyaya göz açıb.

Əhmədli qəsəbəsində 245 saylı orta məktəbi bitirdikdən sonra ADDY liseyinə daxil olub.

"ASCO Mühafizə" MMC-nin 1 saylı mühafizə komandasında mühafizəçi işləyir. Atası Hümbət Xanlar oğlu da ASCO-da çalışır. "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunun Üzən tərsanələr qrupunun rəisidir. Atası həm də Birinci Qarabağ müharibəsi veteranıdır. Vətənpərvərlik ruhunda böyüdüyündən ailənin yeganə oğlu olmasına baxmayaraq Rəşad da İkinci Qarabağ müharibəsi başlayan gün cəbhəyə yollanıb.

Cəbrayıl, Füzuli, Hadrut, Xocavənd və Xankəndi istiqamətlərində gedən döyüşlərdə iştirak edib.

Rəşad Xanlarzadə deyir ki, hər dəfə radio vasitəsilə ölkə başçısı cənab İlham Əliyevin çağırışlarını eşidəndə bütün yorğunluğumuz canımızdan çıxırdı. Onun müdrik siyasəti nəticəsində biz bütün dünyaya həm də nə qədər böyük xalq olduğumuzu göstərdik. Vətən müharibəsində Ali Baş Komandan, Azərbaycan xalqı və Azərbaycan əsgəri yeni tarix yazdılar. Bu tarixin şahidi və iştirakçısı olmaqdan böyük qürur hissi keçirirəm.



Paşa Niyaməddin oğlu Paşazadə



“Füzulinin azad olunmasına görə” medalı

“Qubadlının azad olunmasına görə” medalı

“Laçının azad olunmasına görə” medalı

Birliyimiz, həmrəyliyimiz, bütövlüyümüz əbədi olsun!

Paşa Paşazadə İkinci Qarabağ savaşında cəbhəyə könüllü gedib. Manqa komandiri olub. Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının azad edilməsi uğrunda igidliklə vuruşub.

Döyüş əməliyyatları zamanı göstərdiyi şəxsi igidlik və şücaət Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə","Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə qiymətləndirilib.

Kiçik çavuş deyir ki, Böyük Qələbəni ölkə başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin müdrik siyasəti və müzəffər Ordumuzun qüdrəti ilə qazandıq. Qələbə həm də bizim birliyimizin nəticəsi idi. Məhz bu birlik sayəsində riyakar qonşularımızın keçən əsrin doxsanıncı illərindən xalqımıza qarşı apardıqları soyqırımı siyasətinə son qoya bildik. Birliyimiz, həmrəyliyimiz, bütövlüyümüz əbədi olsun!

Paşa Niyaməddin oğlu Paşazadə 1994-cü il iyulun 22-də Sumqayıt şəhərində hərbçi ailəsində doğulub. Vətən sevgisi də ona qanla keçib.

Bakı şəhərində 177 saylı orta məktəbi bitirib.

2012–2016-cı illərdə Azərbaycan Texniki Universitetinin "Avtomatika və kompüter texnologiyaları" fakültəsində bakalavr pilləsi üzrə təhsil alıb.

2016–2017-ci illərdə müddətli həqiqi hərbi xidmətdə olub.

2018-ci ilin iyununda ASCO-nun Xəzər Dəniz Neft Donanmasında ekspeditor kimi işə qəbul edilib. 2019-cu ilin mayından 2021-ci ilin martınadək "ASCO Mühafizə" MMC-də Mülki Müdafiə Qərargahının rəisi vəzifəsində çalışıb. Hazırda ASCO-nun Məxfi rejim və hərbi səfərbərlik şöbəsində aparıcı mütəxəssis işləyir.

Paşa Paşazadə həm də xoşbəxt atadır. İki qız övladı böyüdür.



Nəsib Adil oğlu Baxışov

Biz birlikdə güclüyük!

– Hələ beş il əvvəl Aprel döyüşləri düşmənə rəşadətli Azərbaycan Ordusunun gücü, döyüş qabiliyyəti haqqında çox şey söyləyirdi, – deyir Nəsib Baxışov. – 2016-cı ildə yenilməz Ordumuz işğalçıların keçilməz hesab etdiyi müdafiə xətlərini bir həmlə ilə yardı. Xalqımızın birliyi və torpaqlarımızın qaytarılması ilə bağlı qətiyyətimizdən də xəbərdar olan yağı hələ onda dilini yox, ağlını işlətsəydi – işğalçılıq siyasətindən əl çəksəydi, sərvətlərimizi talamağa, əzəli torpaqlarımızda məskunlaşmağa son qoysaydı, şübhəsiz ki, Vətən müharibəsində belə rəzil, rüsvayçı duruma düşməzdi.

Nəsib Adil oğlu Baxışov 1989-cu il fevralın 12-də Cəbrayıl rayonunun Niyazqullar kəndində doğulub.

Bakıda qərarlaşmış Cəbrayıl rayonu 3 saylı tam orta məktəbində təhsil alıb.

Bakı Biznes və Kooperasiya Kollecində "Hüquqşünaslıq" fakültəsini bitirib.

2014-cü ildən "ASCO Mühafizə" MMC-də mühafizəçi işləyir.

2020-ci il noyabrın 5-də Ordu sıralarına çağırılıb.

Nəsib Baxışov deyir:

– Əminəm ki, uzaqgörənliyinə, cəsarətinə bütün dünyanın heyran qaldığı müdrik dövlət başçımız cənab İlham Əliyevin xalqımıza yaşadacağı daha gözəl günlər qabaqdadır. Əlimizin o günlərə daha tez çatması üçün isə bizdən çox şey tələb olunmur. Sadəcə, heç vaxt unutmamalıyıq ki: "Biz birlikdə güclüyük!"



Emin Əbdülzaq oğlu Səlimov

Ali Baş Komandanımızın "dəmir yumruğu" yəqin ki, heç vaxt düşmənin yadından çıxmayacaq

Vətənin çətin günündə səsinə hay verməyi müqəddəs borcu hesab edən, torpaqlarımızın xilası üçün əlinə silah almaqdan iftixar duyan gənclərimizdən biri də Emin Səlimovdur.

Emin Əbdülzaq oğlu Səlimov 1992-ci il iyulun 21-də Bakı şəhərində anadan olub.

2016-cı ildən taleyini Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi ilə bağlayıb. "ASCO Nəqliyyat" MMC-nin Təmir emalatxanasında işləyir.

İkinci Qarabağ savaşı başlayanda ona çağırış gəlib. Müharibənin qanlı-qadalı olduğunu bilsə də, ölkəmizin ərazi bütövlüyünün bərpası üçün canından keçməyə hazır olduğundan işğalçının Vətən torpağına dikilən gözlərini oyuq-oyuq etməyə tələsib. Bir neçə gün operativ təlimlərdə iştirak edəndən sonra sorağı Tərtər və Ağdam ətrafında gedən döyüşlərdən gəlib.

– Müzəffər Ordumuz erməni faşistlərinə sözün əsl mənasında qan uddurdu, – deyir Emin Səlimov. – İşğaldan azad edilmiş ərazilərə daxil olanda bizim səsimizi eşidib fəryad edə-edə qaçırdılar. 30 illik həsrətdən sonra əzəli torpaqlarımızda Azərbaycan bayrağı qaldırılanda bütün vücudumuzu təsəvvürəgəlməz fərəh hissi bürüyürdü. Tanrı Ali Baş Komandanımıza yar olsun! Onun "dəmir yumruğu" yəqin ki, heç vaxt düşmənin yadından çıxmayacaq.



Teymur Məmmədhüseyn oğlu Məlikov



“Ağdamın azad olunmasına görə” medalı

Yağının gücü yalnız əliyalın dinc əhaliyə çatırmış...

"Qarabağ işğal olunanda bizim nəsil uşaq idi. Qarabağın necə işğal olunduğunu əsasən valideynlərimizin söz-söhbətlərindən öyrəndik. Vacib olduğu qədər də ağrılı söhbətlər idi. Biz isə böyük fərəhlə gələcək nəslə dahi sərkərdəmiz İlham Əliyevin komandanlığı ilə əzəli torpaqlarımızı erməni işğalçılarından 44 günə necə təmizlədiyimizdən danışacağıq."

Bu sözləri xalqımızın yurd həsrəti ilə bağlı bütün ağrı-acılarına birdəfəlik son qoyan Böyük Qələbəmizdən danışarkən otuz yaşlı Teymur Məlikov deyib.

Teymur Məmmədhüseyn oğlu Məlikov 1990-cı il sentyabrın 17-də Bakı şəhərində anadan olub.

Paytaxtın 139 nömrəli məktəbində orta təhsil alıb.

2016-cı ildən ASCO-da sürücü işləyir.

Vətən müharibəsi başlayanda könüllü cəbhəyə yollanıb.

Ağdamda gedən döyüşlərdə minaatan bölüyündə baş tuşlayıcı əsgər kimi iştirak edib. Ölkə rəhbəri cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə təltif edildiyi "Ağdamın azad olunmasına görə" medalı o günlərdən xatirədir.

– Vətən müharibəsində işğal altında olan yaşayış məskənlərimiz yenilməz Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatları nəticəsində bir-birinin ardınca azad edildikcə bəlli oldu ki, ermənilərin döyüş ruhu haqqında söylənilənlər də cəfəngiyyat imiş, – deyir Teymur Məlikov. – Gücləri yalnız əliyalın, dinc əhaliyə çatırmış. Pulsuz əldə etdikləri müxtəlif silahlar da onların köməyinə çatmadı. Ali Baş Komandanımızın tapşırıqlarını peşəkarcasına yerinə yetirən müzəffər Ordumuz tərəfindən ağır itkilərə məruz qalan düşmən silah-sursatını da döyüş meydanında qoyub qaçırdı. Amma bizə yaradı. Onlara müftə verilən silahları deyirəm. Bəziləri lap təzə idi...



“ÖNCƏ VƏTƏN!”– DEDİLƏR



Ruslan Ramiz oğlu Əlicanov



“Xocavəndin azad olunmasına görə” medalı

“Füzulinin azad olunmasına görə” medalı

“Zəngilanın azad olunmasına görə” medalı

“Qubadlının azad olunmasına görə” medalı

Nə şirin imiş Qələbə!

"Dünyada şirin çox şey var. Gərək dadasan ki, nə qədər şirin olduğunu da biləsən. İkinci Qarabağ savaşında Qələbə sevincini yaşamasaydıq, bu qədər şirin olduğunu hardan bilərdik?!"

Vətən müharibəsində düşmənə qan udduran igid döyüşçü Ruslan Əlicanov da bu fikirlə razıdır.

Ruslan Ramiz oğlu Əlicanov 1995-ci il sentyabrın 19-da Ağstafa rayonunun Soyuqbulaq qəsəbəsində dünyaya göz açıb.

2013-cü ildə Soyuqbulaq qəsəbəsindəki Məmməd Omarov adına tam orta məktəbi bitirib.

Həmin ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının "Elektrik mühəndisliyi" ixtisasına daxil olub.

2017-ci ildə ADDA-nın bakalavr pilləsini bitirən Ruslan sonra təhsilini magistraturada davam etdirib. Magistraturada oxuduğu müddətdə ADDA-nın "Gəmi mexanikası və elektromexanikası" fakültəsində tyutor (akademik məsləhətçi) vəzifəsində çalışıb.

2020-ci ildə bu təhsil pilləsini də uğurla bitirdikdən sonra müddətli həqiqi hərbi xidmətə yollanıb.

Beyləqanda xidmət edən Ruslan Vətən müharibəsinin ilk günündən döyüşlərə qatılıb. Artilleriya qoşunlarında əzəli yurd yerlərimiz uğrunda qəhrəman kimi vuruşub.

Sinəsini bəzəyən "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları Ruslanın İkinci Qarabağ savaşında göstərdiyi şücaəti bir daha təsdiqləyir.

– Qələbə qazanacağımıza əmin olsaq, hər gün ona doğru irəliləsək də, Zəfər sevincindən bizim də gözlərimiz yaşardı, – deyir Ruslan Əlicanov. – Nə şirin imiş Qələbə! Uca Yaradan xalqımıza hər sahədə yalnız qələbə nəsib etsin.



Sadiq Elşad oğlu Osmanlı



“Xocavəndin azad olunmasına görə” medalı

“Füzulinin azad olunmasına görə” medalı

“Zəngilanın azad olunmasına görə” medalı

“Qubadlının azad olunmasına görə” medalı

Uca Yaradan düşmənə göz dağı olan Sadiq kimi igidləri xalqımıza çox görməsin!

Sadiq Elşad oğlu Osmanlı 1996-cı il dekabrın 22-də Astaranın Pensər kəndində doğulub.

2003–2014-cü illərdə Zülfüqar Əhmədzadə adına Pensər kənd 2 nömrəli tam orta məktəb-liseydə təhsil alıb.

Həmin ildə daxil olduğu Azərbaycan Dövlət Dəniz Akademiyasında "Gəmi energetik qurğularının istismarı mühəndisliyi" ixtisasına yiyələnib.

2018-ci ildə ADDA-nı bitirən Sadiq müddətli həqiqi hərbi xidmətə yollanıb. Goranboyda xidmət edib.

Vətən müharibəsi başlayanda Sadiq yenidən silaha sarılıb. Döyüş yolu Füzulidən başlayan igid gəncin sorağı sonradan işğaldan azad olunan əksər rayonlardan gəlib. 2020-ci il dekabrın 31-də tərxis olunub.

– 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi şanlı Qələbəmizlə başa çatdı, – deyir Sadiq Osmanlı. – Rəşadətli Ordumuz qısa zamanda işğalçı Ermənistanın silahlı qüvvələrini darmadağın edərək, Böyük Zəfərə imza atdı. Ölkəmizin ərazi bütövlüyünü təmin edən bu misilsiz Qələbə həm də xalqımızın nəyə qadir olduğunu bir daha bütün dünyaya nümayiş etdirdi.

Sadiq Osmanlı Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medallarına layiq görülüb.

Onunla döyüşənlər deyirlər ki, bu mükafatlar İkinci Qarabağ savaşında yağıya cəhənnəm əzabını yaşadan Sadiq Osmanlıya anasının südü kimi halaldır!

Biz də deyirik ki, Uca Yaradan düşmənə göz dağı olan belə igidləri xalqımıza çox görməsin!



İdris Mahir oğlu Muradzadə



“Cəbrayılın azad olunmasına görə” medalı

“Füzulinin azad olunmasına görə” medalı

“Qubadlının azad olunmasına görə” medalı

Hesablamaları sayəsində şanlı Ordumuzun artilleriya zərbələrinin bircəsi də hədəfdən yayınmırdı

– İkinci Qarabağ savaşında sərhədi bəlli Vətənimizə sevgisi sərhəd tanımayan gənclərimizin igidliyi sayəsində qalib gəldik, – deyir İdris Muradzadə. – Tarixi torpaqlarımızı yağılardan xilas etmək müqəddəs iş idi. Bütün xalqımız kimi mən də bu müqəddəs işin öhdəsindən layiqincə gələn rəşadətli Ordumuzla qürur duyuram.

İdris Mahir oglu Muradzadə 1994-cü il yanvarın 28-də Beyləqan rayonunun Kəbirli kəndində doğulub.

2013-cü ildə Kəbirli kənd 1 saylı tam orta məktəbini bitirib.

2013–2017-ci illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasında "Gəmiqayırma və gəmi təmiri mühəndisliyi" ixtisasına yiyələnib.

ADDA-nı bitirdikdən sonra müddətli həqiqi hərbi xidmətini Dövlət Sərhəd Xidmətinin xüsusi təyinatlı bölməsində keçib.

2020-ci ilin yayında general-mayor Polad Həşimov şəhidlik zirvəsinə ucalandan sonra İdris hərbçi olmaq qərarına gəlir.

Müddətdən artıq hərbi xidmət etmək üçün sənədlərini təqdim edir və qəbul olunur. Müəyyən hazırlıq kursları keçdikdən sonra artilleriya divizionunda hesablayıcı kimi xidmətə başlayır.

Vətən müharibəsinin ilk günündən Füzulidən Şuşaya qədər döyüş yolu keçən İdrisin dəqiq hesablamaları sayəsində şanlı Ordumuzun artilleriya zərbələrinin bircəsi də hədəfdən yayınmır.

İgid döyüşçü İdris Muradzadənin Vətən müharibəsində göstərdiyi şücaət dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Sinəsini "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları bəzəyir.



Fərhad Hidayət oğlu Abbasov



“Cəbrayılın azad olunmasına görə” medalı

“Füzulinin azad olunmasına görə” medalı

“Kəlbəcərin azad olunmasına görə” medalı

Bu savaş içimizdə yatmış aslanı necə oyatdısa...

Fərhad Hidayət oğlu Abbasov 1996-cı il sentyabrın 25-də Ağstafa rayonunun Eynallı kəndində doğulub.

2014-ci ildə orta məktəbi bitirdikdən sonra daxil olduğu Azərbaycan Dövlət Dəniz Akademiyasında "Dəniz naviqasiyası mühəndisliyi" ixtisası üzrə bakalavr təhsili alıb.

2018-ci ildən ADDA-nın magistr pilləsində təhsilini qiyabi formada davam etdirib.

2020-ci ildə Vətən müharibəsi başlayanda Fərhad həqiqi hərbi xidmətdə olub və bir çox əsgər yoldaşları kimi ilk gündən işğalçılara qarşı döyüşlərə atılıb.

Döyüş yolu Murovdağdan başlayıb. Sonra Füzuli, Xocavənd və Şuşa istiqamətində gedən döyüşlərdə igidlik göstərib. Döyüşlərin birində yaralanan Fərhad sağaldıqdan sonra yenə silaha sarılıb.

Ölkə başçısı İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medallarına layiq görülüb.

Xalqımızın igid oğlu Fərhad Abbasov deyir ki, Odlar yurdu aslan ürəkli babalarımızın bizə əmanətidir. Kim olduğumuzu unutmamalıyıq:

– Bir vaxtlar Azərbaycanı yatmış aslana bənzədənlərin nə dərəcədə haqlı olduğunu Qələbəmizlə başa çatan Vətən müharibəsi də sübut etdi. Bu savaş igidlərimizin içində yatmış aslanı necə oyatdısa, 30 il məğlubedilməzliyindən dəm vuran mənfur düşmən bütün gücünü ayaqlarına verdi... Biz də o savaşdan sonra üçrəngli bayrağımızın tarixi torpaqlarımızda yenidən dalğalanmasının qürurunu yaşayırıq.



Xubyar Xəyyam oğlu Aydınov



“Xocavəndin azad olunmasına görə” medalı

“Füzulinin azad olunmasına görə” medalı

Yağı torpaqlarımızı işğal altında saxlamağın onun üçün ağır nəticələnəcəyini anlamalıydı

Xain qonşularımız arxalı köpəklərə oxşayır. Hürürlər də, qapırlar da. Amma nə qədər ki, Xubyar Aydınov kimi igidlərimiz var, arxalı köpəklər qapa bilməyəcəklər. Uzağı, hürə bilərlər.

Xubyar Xəyyam oğlu Aydınov 1999-cu il mayın 1-də Salyan rayonunun Kürsəngi kəndində dünyaya göz açıb.

2016-cı ildə Azərbaycan Dövlət Dəniz Akademiyasına daxil olub.

2020-ci ildə ADDA-nı "Elektrik mühəndisliyi" ixtisası üzrə bitirdikdən sonra müddətli həqiqi hərbi xidmətə yollanıb.

Vətən müharibəsində şərəfli döyüş yolu keçib.

O günləri xatırlayan Xubyar Aydınov deyir ki, dövlətimizin dayağı, xalqımızın güvənc yeri olan rəşadətli Ordumuzun ərazi bütövlüyümüzü bərpa etmək gücündə və qüdrətində olduğunu bütün dünya, o cümlədən işğalçı Ermənistanın rəhbərliyi də yaxşı bilirdi. Ona görə əzəli torpaqlarımızı işğal altda saxlamaqda davam etdirməsinin ölkəsi üçün ağır nəticələnəcəyini anlamalıydı və nə qədər tez anlasaydı, onun üçün bir o qədər yaxşı olardı. Azərbaycan hələ 2016-cı ildə Aprel döyüşləri zamanı bütün dünyaya bildirdi ki, danışıqlar yolu ilə torpaqlarımız geri qaytarılmasa, güc yolu ilə özümüz alacağıq.

Xubyar Aydınovun Vətən müharibəsində göstərdiyi şücaət yüksək qiymətləndirilib. "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları igid döyüşçüyə o günlərdən xatirədir.



Zabil Zahid oğlu Əliyev



“Cəbrayılın azad olunmasına görə” medalı

“Xocavəndin azad olunmasına görə” medalı

“Füzulinin azad olunmasına görə” medalı

“Kəlbəcərin azad olunmasına görə” medalı

Ali Baş Komandan bütün dünyanı xəbərdar etmişdi ki, Azərbaycan əsgəri işğalçıları əzəli torpaqlarımızdan qovub çıxaracaq

Erməni silahlı birləşmələri 2020-ci ilin iyul və avqust aylarında ölkəmizə qarşı növbəti hərbi təxribat törədəndə dövlətimizin başçısı BMT kürsüsündən Ermənistanın yeni ərazilərimizin işğalı həvəsində olduğunu bildirmişdi. Onu da demişdi ki, bu işlə məşğul olası güclər işğalçını dayandırmasa, Azərbaycan əsgəri dayandıracaqdır.

Məkrli düşmən də bizim səbrimizi sınağa çəkirmiş kimi 2020-ci il sentyabrın 27-də növbəti təxribata yol verdi. Və bu dəfə Azərbaycan əsgəri işğalçıları təkcə dayandırmadı, əks-hücuma keçərək əzəli torpaqlarımızdan qovub çıxartdı.

– Biz Böyük Qələbəyə ilk növbədə xalqımızı bir məqsəd uğrunda yumruq kimi birləşdirməyi bacaran Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müdrikliyi və uzaqgörən siyasəti sayəsində nail olduq, – deyir Zabil Əliyev. – Vətən müharibəsində şanlı Ordumuzda ruh yüksəkliyini, əsgər və zabitlərimizdə Qələbəyə inamı, düşmənə nifrəti sözlə ifadə etmək çətindir. Təbii ki, Qələbəni qansız qazanmaq mümkün deyil. Şücaətlə döyüşərək şəhid olan igidlərimizin hər birinin ruhu qarşısında baş əyirəm. Çünki bu şanlı tarix ilk növbədə onların qanı ilə yazıldı. İnanıram ki, Azərbaycan var olduqca, ərazi bütövlüyü uğrunda canından keçən oğullarımız unudulmayacaq, qədirbilən xalqımızın qəlbində daim yaşayacaqlar.

Zabil Zahid oğlu Əliyev 1996-cı il iyunun 11-də Masallı rayonunun Köhnə Alvadı kəndində dünyaya gəlib.

2016-cı ildə Azərbaycan Dövlət Dəniz Akademiyasına daxil olub.

2020-ci ildə ADDA-nı "Dəniz naviqasiyası mühəndisliyi" ixtisası üzrə bitirdikdən sonra hərbi xidmətə yollanıb.

Xüsusi Təyinatlı Qüvvələrdə xidmət edən Zabil Vətən müharibəsinin ilk günündən savaşa atılıb. Şuşa uğrunda gedən döyüşlərdə ayağından 2 güllə yarası alıb.

Xalqımızın igid oğlu – Vətən müharibəsində şərəfli döyüş yolu keçən Zabil Əliyev Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.



Oruc Bayram oğlu Əzizov



“Cəsur döyüçşü” medalı

“Xocavəndin azad olunmasına görə” medalı

“Füzulinin azad olunmasına görə” medalı

“Şuşanın azad olunmasına görə” medalı

Səhvləri böyük olan düşmənin məğlubiyyəti də o qədər ağrılı olmalı idi

"Xalqımızın belə bir məsəli var: "Nə tökərsən aşına, o da çıxar qaşığına". Bu baxımdan, əzəli torpaqlarımızı uzun illər işğal altında saxlayan xain, məkrli qonşularımızın etdikləri səhvlər nə qədər böyük idisə, dəmir yumruğumuz işə düşəndən sonra yaşadıqları məğlubiyyət də onlar üçün o qədər ağrılı olmalı idi və belə də oldu."

Bu sözlər hələ tələbəlik illərində ASCO-nun doğma sulardan uzaqlarda üzən gəmilərində yerə-göyə meydan oxuyan dalğalarla "döyüşdən" qələbə ilə çıxmağı bacaran Oruc Əzizov söyləyib.

Oruc Bayram oğlu Əzizov 1998-ci il yanvarın 26-da Oğuz rayonunun Filfilli kəndində doğulub.

2015-ci ildə şəhid Altay Çiyniyev adına Filfilli kənd tam orta məktəbini bitirib.

Həmin ildə Azərbaycan Dövlət Dəniz Akademiyasına daxil olaraq "Dəniz naviqasiyası mühəndisliyi" ixtisasının sirlərinə yiyələnməyə başlayıb.

Təhsil illərində də başqalarından seçilməyi bacarıb. Əla qiymətlərlə oxuduğu, ingilis dilini yaxşı bildiyi üçün istehsalat təcrübəsini ASCO-nun Aralıq və Qara dənizlərində üzən gəmilərində keçib.

2019-cu ildə Azərbaycan Dövlət Dəniz Akademiyasını fərqlənmə diplomu ilə bitirib.

2020-ci ilin yanvarında müddətli həqiqi hərbi xidmətə çağırılıb.

Vətən müharibəsi başlayan zaman xidmətdə olan Oruc Əzizov ilk gündən sinəsini qalxana çevirib.

Döyüşə Füzulidən qatılıb. Horadiz, Alxanlı istiqamətində gedən döyüşlərdə fərqlənib. Sonra Xocavənd və Şuşa uğrunda döyüşlərdə düşməni peşman edən oğullarımızla çiyin-çiyinə verib.

Ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüşlərdə göstərdiyi şücaətə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə Oruc Əzizov "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medallarına layiq görülüb.

İgid döyüşçü Oruc Əzizov yenilməz Ordumuzun tarixi Qələbəsinin möhtəşəmliyini onda hər kəsin payının olması ilə izah edir. O, deyir:

– Böyükdən-kiçiyə bütün xalqımız 44 gün davam edən Vətən müharibəsinin hər gününü, hər saatını, hər dəqiqəsini Zəfər yürüşünə çıxan əsgər və zabitlərimizlə birgə yaşadı. Ona görə belə möhtəşəm alındı!



Hikmət Sərxan oğlu Fətəliyev



“Füzulinin azad olunmasına görə” medalı

“Qubadlının azad olunmasına görə” medalı

“Şuşanın azad olunmasına görə” medalı

Hikmət Fətəliyev:"Biz ölkəmizin ərazi bütövlüyünü təmin etməli idik. Onu da etdik"

"Sülhsevər Azərbaycan xalqı istəyirdi ki, Ermənistan silahlı qüvvələrinin işğal etdiyi torpaqlarımız dinc yolla qaytarılsın. Namərd qonşularımız sülh danışıqlarını lağa çevirdi. Azərbaycan xalqı ümid edirdi ki, dünyanın ən ali beynəlxalq orqanı olan BMT-nin Təhlükəsizlik Şurası öz qətnamələrinin yerinə yetirilməsi üçün səy göstərəcək. Göstərmədi. BMT-nin qətnamələri 27 il kağız üzərində qaldı. Bu, təcavüzkarı daha da azğınlaşdırdı. İşğalçılar həyasızcasına bəyan etdilər ki, bir qarış torpağımızı da qaytarmayacaqlar. Kimin nə deməyindən, nə düşünməyindən, kimin kimə güvənməyindən asılı olmayaraq, biz ölkəmizin ərazi bütövlüyünü təmin etməli idik. Onu da etdik."

Bu kəlmələr Vətən sevgisindən qürur duyduğumuz gənclərdən birinin – Hikmət Fətəliyevin dilində səslənib. Yağını əzəli torpaqlarımızdan qovub çıxaranda o da ön sırada olub.

Hikmət Sərxan oğlu Fətəliyev 1998-ci il dekabrın 9-da Astara rayonunun Siyaku kəndində dünyaya göz açıb.

2016-cı ildə Siyaku kənd tam orta məktəbini bitirib.

2016–2020-ci illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasında "Dəniz naviqasiyası mühəndisliyi" ixtisası üzrə təhsil alıb. Akademiyanı bitirdikdən sonra həqiqi hərbi xidmətə yollanıb.

İkinci Qarabağ savaşında düşmənə göz açmağa imkan verməyən igidlərimizdən olub. Füzuli, Xocavənd, Laçın və Şuşa uğrunda gedən döyüşlərdə şücaət göstərib.

– 44 günlük Vətən müharibəsində sadəcə qalib gəlmədik, – deyir Hikmət Fətəliyev. – İşğalçı ordunu darmadağın etdik, yağını əzəli torpaqlarımızdan Ali Baş Komandanımızın dediyi kimi, "İti qovan kimi" qovduq. Mən də fəxr edirəm ki, belə yenilməz, qüdrətli Orduda xidmət etmişəm.

Cəsur döyüşçü Hikmət Fətəliyev ölkə başçısı İlham Əliyevin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.



Əbil Əflatun oğlu Xanışov



“Xocavəndin azad olunmasına görə” medalı

“Füzulinin azad olunmasına görə” medalı

“Şuşanın azad olunmasına görə” medalı

“Erməni faşizmi çox böyük bəladır. Biz bu qorxunc bəlaya qalib gəldik”

İxtisasca dənizçi olan və Vətən müharibəsində şərəfli döyüş yolu keçən igidlərimizdən biri də Əbil Xanışovdur.

Əbil Əflatun oğlu Xanışov 1996-cı il fevralın 1-də Biləsuvar şəhərində doğulub.

Şəhid Kəmaləddin Ağayev adına Biləsuvar şəhər texniki fənlər təmayüllü internat tipli məktəb-liseyi bitirib.

2013-cü ildə Azərbaycan Dövlət Dəniz Akademiyasına daxil olub. “Elektrik mühəndisliyi” ixtisasını seçib. Lakin ailə vəziyyəti ilə əlaqədar təhsilini yarımçıq saxlamağa məcbur olub.

2017-ci ildə Azərbaycan Ordusu sıralarına müddətli həqiqi hərbi xidmətə çağırılıb. Xidmət dövründə Naxçıvanın Günnüt kəndinin azad olunması uğrunda gedən döyüşlərdə fəal iştirakına görə mükafatlandırılıb.

Hərbi xidməti başa vurduqdan sonra Azərbaycan Dövlət Dəniz Akademiyasında təhsilini davam etdirib.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsinin başladığını eşidən kimi Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə müraciət edərək, könüllü olaraq ön cəbhəyə getmək istədiyini bildirib.

Döyüş yolu Füzulidən başlayıb. Sonra Xocavənd, Cəbrayıl, Zəngilan, Qubadlı və Şuşa uğrunda igidliklə vuruşub. Bir neçə dəfə isə həyatını təhlükəyə ataraq mühasirədə qalan döyüşçü yoldaşlarını xilas edib.

Azadlıq və müstəqillik rəmzi olan bayrağımızı yağı tapdağından azad etdiyimiz müqəddəs torpaqlarımızda dalğalandırdıqca, qəlbimiz fərəhdən dağa dönürdü, – deyir Əbil Xanışov. – Erməni faşizmi çox böyük bəladır. Şükür Allaha ki, bu qorxunc, təhlükəli bəlaya şərəflə qalib gəldik.

İgid döyüşçü Əbil Xanışov Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə “Xocavəndin azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə” və “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edilib.



İbrahim Fuad oğlu İbrahimov



“Cəbrayılın azad olunmasına görə” medalı

“Füzulinin azad olunmasına görə” medalı

“Kəlbəcərin azad olunmasına görə” medalı

Alnımıza yazılan savaşı gələcək nəslə saxlaya bilməzdik

Vətən müharibəsində düşməni torpaqlarımızı işğal altında saxlamağına peşman edən igidlərimizdən biri də İbrahim İbrahimovdur. İyirmi iki yaşlı gəncin düşüncəsinə görə, doğulanda onun və yaşıdlarının alnına yazılan bu savaşı gələcək nəslə saxlamaq olmazdı.

İbrahim Fuad oğlu İbrahimov 1998-ci il yanvarın 8-də Sumqayıt şəhərində dünyaya gəlib.

2015-ci ildə Sumqayıt şəhərindəki 25 saylı orta məktəbi bitirib.

Həmin ildə "Gəmi energetik qurğularının istismarı mühəndisliyi" ixtisasına yiyələnmək arzusu ilə Azərbaycan Dövlət Dəniz Akademiyasına daxil olub.

2019-cu ildə təhsilini başa vuraraq həqiqi hərbi xidmətə yollanıb və Xüsusi Təyinatlı Qüvvələrin "N"saylı hərbi hissəsində xidmət edib. Vətən müharibəsinin ilk günündən döyüşlərə atılıb.

Cəbrayıl–Füzuli istiqamətində gedən qızğın döyüşlərdə silahdaşı ağır yaralanır. Bunu görən İbrahim dərhal köməyinə tələsir. Düşmənin fasiləsiz artilleriya atəşi altında ona tibbi yardım edərkən özü də ayağından qəlpə yarası alır. Buna baxmayaraq bütün gücünü toplayıb, yaralı əsgər yoldaşını döyüş meydanından çıxara bilir.

– Bizim dağı yerindən oynada bilən Ordumuz var, – deyir İbrahim İbrahimov. – Dünyanın ən güclü ordularından biri Azərbaycan Ordusudur! Elə buna görə biz təkcə ərazi bütövlüyümüzü təmin etmək yox, yağıya heç vaxt unutmayacağı dərs vermək, işğal etdiyi bütün torpaqlarımızı son qarışına kimi geri qaytarmaqla Qarabağ həsrəti ilə dünyadan köçənlərimizin hamısının ruhunu şad etmək istəyirdik. İstəyimizə də nail olduq.

Xalqımızın igid oğlu İbrahim İbrahimov dövlət başçısı cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.



Pənah Xansuvar oğlu Məhəmmədəli



“Cəbrayılın azad olunmasına görə” medalı



“Zəngilanın azad olunmasına görə” medalı

Savaşın ilk günündən yağıya qan uddururdu

Ana Vətənimiz üçün hər cür fədakarlığa hazır olan və bundan şərəf duyan oğullarımızdan biri də Pənah Məhəmmədəlidir. Əzəli torpaqlarımızın işğaldan azad edildiyi İkinci Qarabağ savaşının ilk günündən ön cəbhədə olub, igidlərimizlə birgə yağıya qan uddurub.

İşğaldan azad edilən hər yaşayış məntəqəsində, hər yüksəklikdə müstəqil Azərbaycanın üçrəngli bayrağı dalğalandıqca bir əsgər kimi rəşadətli Ordumuzla fəxr edib. Haqqın nazilsə də, üzülməyəcəyinə həmişə əmin olan bu gənc Qarabağ uğrunda mübarizədə təkcə faşist Ermənistanına deyil, həm də havadarlarına ədalətin gücünü göstərdiyimizi düşünür.

Pənah Xansuvar oğlu Məhəmmədəli 1999-cu il yanvarın 22-də İsmayıllı rayonunun Aşıqbayramlı kəndində anadan olub.

Cəbrayıl rayonunun Şıxlar kəndindən olan məcburi köçkün ailəsində böyüyən Pənah 2016-cı ildə Aşıqbayramlı kənd tam orta məktəbini bitirib.

2016-cı ildə Azərbaycan Dövlət Dəniz Akademiyasına daxil olub. 2020-ci ildə ADDA-nı "Gəmi energetik qurğularının istismarı mühəndisliyi" ixtisası üzrə bitirdikdən sonra hərbi xidmətə yollanan Pənahın taleyinə Vətən müharibəsinin iştirakçısı olmaq yazılır.

Pənah Məhəmmədəli deyir ki, İkinci Qarabağ müharibəsində Azərbaycanın Silahlı Qüvvələri işğalçı ölkənin təkcə ordusunu deyil, ümumiyyətlə erməni mifini darmadağın etdi.

Cəsur döyüşçü Pənah Məhəmmədəli Vətən müharibəsində göstərdiyi igidliyə və şücaətə görə dövlət başçımızın müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edilib.



Şahməmməd Şakir oğlu Məmmədov



“Cəsur döyüşçü” medalı

“Cəbrayılın azad olunmasına görə” medalı

“Xocavəndin azad olunmasına görə” medalı

Rəşadətli Ordumuz hər döyüşdə düşmənin əsas hərbi texnikasını gərəksiz metal parçasına çevirirdi

İkinci Qarabağ savaşında Şahməmməd Məmmədov kimi qəhrəman oğullarımız "böyük Ermənistan" xülyası ilə yaşayan və bu xəstəliyinə görə işğalçılıq siyasətindən əl çəkməyən düşmənin sinəsinə dağ çəkməsəydilər, bu gün də torpaqlarımızın 20 faizi düşmən tapdağı altında olardı.

Şahməmməd Şakir oğlu Məmmədov 1998-ci il iyulun 17-də Astara rayonunun Şiyəkəran kəndində dünyaya göz açıb.

2004–2015-ci illərdə O.Yəhyayev adına Şiyəkəran kənd 2 saylı tam orta məktəbində təhsil alıb.

2015–2019-cu illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasında "Elektrik mühəndisliyi" ixtisası üzrə təhsil alıb.

2019-cu ildə ADDA-nı bitirdikdən sonra müddətli həqiqi hərbi xidmətə yollanıb.

Vətən müharibəsinin ilk günündən döyüşlərdə iştirak edib. İki dəfə üzündən yaralanıb. Müalicə olunduqdan sonra yenidən cəbhəyə qayıdıb.

– Ordumuzun döyüş qabiliyyətinin gücləndirilməsi istiqamətində atılan davamlı addımların bəhrəsini biz İkinci Qarabağ savaşında gördük, – deyir Şahməmməd Məmmədov. – Ən müasir silahlardan istifadə edən rəşadətli Ordumuz qısa müddətdə düşmənin əsas hərbi texnikasını gərəksiz metal parçasına çevirdi, xeyli canlı qüvvəsini məhv etdi. Aldığı ciddi zərbələrdən özünə gələ bilməyən düşmən müharibənin 44-cü günü kapitulyasiya aktını imzalamaq məcburiyyətində qaldı.

Vətən müharibəsində şərəfli döyüş yolu keçmiş Şahməmməd Məmmədov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.



Abduləziz Əzizağa oğlu Səmədov



“Cəbrayılın azad olunmasına görə” medalı

“Qubadlının azad olunmasına görə” medalı

Hələ 2016-cı ildə xalqımız əsgər və zabitlərimizin bəxş edəcəyi Böyük Qələbənin uzaqda olmadığına qəti şəkildə inanmışdı

"Hələ 2016-cı ildə xalqımız Ordumuzun yenilməzliyinə, əsgər və zabitlərimizin bəxş edəcəyi Böyük Qələbənin uzaqda olmadığına qəti şəkildə inanmışdı. Cəmi dörd gün çəkən Aprel döyüşlərində rəşadətli Azərbaycan Ordusu işğalçılara yaxşı qulaqburması vermişdi. Belə ki, sürətli əks-hücum əməliyyatı ilə Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsi azad edilmişdi. 320-dən artıq erməni yaraqlısı qətlə yetirilmiş, düşmənin 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarılmışdı."

İkinci Qarabağ savaşının igid döyüşçüsü Abduləziz Səmədov bu sözləri xalqımızın qəhrəman əsgər və zabitlərimizə inamını ifadə edərkən söyləyib.

Abduləziz Əzizağa oğlu Səmədov 1997-ci il mayın 1-də Nefçalanın Xol Qarabucaq kəndində dünyaya göz açıb.

2014-cü ildə Faiq Həziyev adına Xol Qarabucaq kənd tam orta məktəbini bitirib.

Həmin ildə "Gəmiqayırma və gəmi təmiri" ixtisasına yiyələnmək arzusu ilə Azərbaycan Dövlət Dəniz Akademiyasına qəbul olub.

2018–2019-cu illərdə Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

Vətən müharibəsi başlayanda könüllü kimi döyüşlərə qatılıb. Cəbrayıl, Qubadlı uğrunda igidliklə vuruşub.

İkinci Qarabağ savaşında əsgəri borcunu layiqincə yetirən Abduləziz Səmədovun sinəsini ölkə başçısı cənab İlham Əliyevin müvafiq sərəncamları ilə təltif edildiyi "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları bəzəyir.



Şəhriyar Bəxtiyar oğlu Ağasıyev



“Xocavəndin azad olunmasına görə” medalı

“Şuşanın azad olunmasına görə” medalı

Bu Qələbə ədalətin Qələbəsi idi

Vətən müharibəsi başlayanda ərazi bütövlüyümüz təmin olunmayanadək kimsə bizim uğurlu əks-hücum əməliyyatımızın dayandırılmasını istəmirdi. Hamı ədalətsizliyə, otuz ilə yaxın davam edən işğala birdəfəlik son qoyulmasını istəyirdi. Rəşadətli Ordumuzun düşməni dizi üstə çökdürən Zəfər yürüşü 44 gün çəkdi. Məkrli qonşularımızın xislətinə, riyakarlığına azdan-çoxdan bələd olanların hamısı haqqın nahaq, ədalətin ədalətsizlik üzərində Qələbəsinə bizimlə bir sevindi.

Bu möhtəşəm Qələbənin qazanılmasına öz töhfəsini verən gənclərimizdən biri də hələ ASCO-nun Azərbaycan Dövlət Dəniz Akademiyasında təhsil aldığı illərdə həm də vətənpərvərliyi ilə seçilən Şəhriyar Ağasıyevdir.

Şəhriyar Bəxtiyar oğlu Ağasıyev 1994-cü il sentyabrın 9-da Siyəzən rayonunun Yenikənd kəndində dünyaya göz açıb.

2011-ci ildə Siyəzən rayonunun Vüqar Qasımov adına Yenikənd tam orta məktəbini bitirib. 2011–2012-ci illərdə Bakıda 6 saylı peşə liseyində oxuyub.

2012–2016-cı illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasında "Gəmiqayırma və gəmi təmiri mühəndisliyi" ixtisasına yiyələnib.

Akademiyanı bitirdikdən sonra müddətli həqiqi hərbi xidmətə yollanıb. 2018-ci ildə tərxis olunan Şəhriyar həyatını Azərbaycan Silahlı Qüvvələrindən kənarda təsəvvür edə bilməyib. 2019-cu ildə ehtiyat zabit kurslarında zəruri hərbi biliklərə yiyələnib və Hərbi Dəniz Qüvvələrində müxtəlif vəzifələrdə çalışıb.

Vətən müharibəsi başlayanda ön cəbhəyə yollanan Şəhriyar Ağasıyev Xocavənd, Şuşaətrafı kəndlər və Şuşa şəhəri uğrunda qəhrəmancasına vuruşub.

– Ölkəmizin İkinci Qarabağ savaşında tətbiq etdiyi strategiya dünya hərb tarixində yeni səhifə açdı, – deyir cəsur zabit. – Bu strategiya rəşadətli Ordumuza qısa vaxtda və minimal itkilərlə Zəfər çalmasına imkan verdi. Havadarlarına arxayın olub 30 il haqq səsimizi eşitmək belə istəməyən düşmən Vətən müharibəsində burnu ovulan kimi daha ağır itkilərindən qaçmaq üçün Azərbaycanın şərtlərini qeyd-şərtsiz qəbul etdi.

İgid leytenant Şəhriyar Ağasıyev ölkə başçısı cənab İlham Əliyevin sərəncamları ilə "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.



Eldar Əskərəli oğlu Həmidli



“Xocavəndin azad olunmasına görə” medalı

Özləri kimi igid, qəhrəman oğullar şəhidlərin qanını yerdə qoymadılar

Faşist Ermənistanının xam xəyallarından əl çəkməyəcəyi təqdirdə, rəşadətli Ordumuzun Zəfər yürüşünə çıxacağına və üçrəngli bayrağımızı işğal altında olan bütün torpaqlarımızda dalğalandıracağına zərrəcə şübhəsi olmayıb Eldarın. Bunun nə vaxt baş verəcəyini dəqiq bilməsə də, özü bu müqəddəs yürüşə həmişə hazır olub.

Eldar Əskərəli oğlu Həmidli 1999-cu il iyunun 22-də Masallı rayonunun Binə Xocavar kəndində dünyaya göz açıb.

2016-cı ildə Sumqayıt şəhərində 32 saylı tam orta məktəbi bitirib.

2016–2020-ci illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasında "Dəniz naviqasiyası mühəndisliyi" ixtisasına yiyələnib.

Müddətli həqiqi hərbi xidmət keçdiyi dövrdə Vətən müharibəsi başlayıb və Eldar da minaatan kimi savaşa qatılıb.

Döyüş yolu Füzulidən başlayıb. Qəhrəman kimi vuruşub. Hər gün Qələbənin yaxında olduğuna daha çox inanıb. Xocavənd uğrunda gedən döyüşlərdə ayaqlarından və çiynindən yaralanıb.

– Yaralanmağıma baxmayaraq sevinirəm ki, torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə iştirak etmək mənə də nəsib oldu, – deyir Eldar Həmidli. – Xidmət etdiyim ərazidən döyüş bölgəsinə yola düşəndə çox duyğulandım. Ətrafdakı insanların bizi cəbhəyə necə böyük coşqu ilə yola saldıqlarını unuda bilmirəm. Onların üzündəki ifadədən bizə nə qədər inandıqlarını hiss etmək çətin deyildi. Biz də bu inamı doğrultmalı idik. Uca Yaradana çox şükür ki, tarixə qızıl hərflərlə yazılan möhtəşəm Qələbə qazandıq və xalqımızın 30 illik yurd həsrətinə son qoyduq. Çox təəssüf ki, şəhadətə ucaldıqları üçün bəzi əsgər yoldaşlarımız Qələbəni görmədilər. Amma əminəm ki, indi onların ruhu şaddır. Çünki qanları yerdə qalmadı. Özləri kimi igid, qəhrəman oğullar qoymadılar…

Cəsur döyüşçü Eldar Həmidli Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilib.



Ülvi Eyvaz oğlu Məlikov



“Cəsur döyüşçü” medalı

“Suqovuşanın azad olunmasına görə” medalı

Himayədarları işğalçılara "yel də vermişdilər, bel də"

Ülvi Eyvaz oğlu Məlikov 1997-ci il oktyabrın 27-də Salyan rayonunun Noxudlu kəndində dünyaya göz açıb.

Yuxarı Noxudlu kənd tam orta məktəbini əla qiymətlərlə bitirən Ülvi 2015–2020-ci illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasında "Gəmi energetik qurğularının istismarı mühəndisliyi" ixtisası üzrə təhsil alıb.

2018-ci ildə müddətli həqiqi hərbi xidmətə yollanıb.

Vətən müharibəsinin ilk günündən döyüşlərə qatılıb.

Ülvi Məlikov Talış–Suqovuşan istiqamətində gedən döyüşlərdə minaatan mərmisinin qəlpəsi ilə ayağından yaralanıb. Yaralı vəziyyətdə döyüşü davam etdirib və bütün qüvvəsini toplayaraq şəhid olmuş əsgər yoldaşının nəşini də döyüş meydanından çıxara bilib. Şəmkir hərbi hospitalında əməliyyat olunub. Müalicə aldıqdan sonra yenidən ön cəbhəyə qayıdıb. Kəşfiyyat bölüyünün tərkibində 7 postun, Suqovuşanın alınmasında iştirak edib.

– Yenilməz Ordumuzun qarşısında tab gətirəcək gücə malik olmayan işğalçı ölkə niyə başa düşmürdü ki, Azərbaycan istənilən vaxt ərazi bütövlüyünü təmin edəcək, – deyir Ülvi Məlikov. – Himayədarlarına, onlara müftə silah-sursat verənlərə arxayın idilər? Şuşada yallı getməyi də onlara məsləhət görmüşdülər? Belə məsləhətlər onlara baha başa gəldi. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə həyata keçirilən və 44 gün davam edən hərbi əməliyyatlar yenilməz Ordumuzun tam Qələbəsi ilə bitdi.

Xalqımızın igid oğlu Ülvi Məlikov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medallarına layiq görülüb.



Cavad Cavid oğlu Məmmədzadə



“Cəsur döyüşçü” medalı

“Suqovuşanın azad olunmasına görə” medalı

Yaralı olanda da döyüşə can atıb

Böyük də, kiçik də Qələbədən sonra ay-ulduzlu dövlət bayrağımızın bir vaxtlar işğal altında olan yaşayış məntəqələrimizdə dalğalanmasının, Azərbaycanımızın bütövlüyünün qürurunu yaşayır. Bundan gözəl nə var?!

Bu sevinci bizə bəxş edən igidlərimizdən biri də uşaqlıqdan qəhrəman Azərbaycan əsgərinin bir gün erməni əsarətində olan əzəli torpaqlarımızı xilas etməklə belə şanlı tarix yazacağına əmin olan Cavad Məmmədzadədir.

Cavad Cavid oğlu Məmmədzadə 1999-cu il yanvarın 29-da Lənkəran rayonunda dünyaya göz açıb.

Bakının Xətai rayonundakı 165 saylı tam orta məktəbdə təhsil alıb.

2016-cı ildə "Gəmiqayırma və gəmi təmiri mühəndisliyi" ixtisasına yiyələnmək arzusu ilə ASCO-nun Azərbaycan Dövlət Dəniz Akademiyasına qəbul olub.

2020-ci ilin iyulunda müddətli həqiqi hərbi xidmətə çağırılıb.

Vətən müharibəsi başlayanda Cavad hərbi xidmətinin 3-cü ayında olmasına baxmayaraq, öz istəyi ilə cəbhə bölgəsinə göndərilib. Bir çox döyüşlərdə igidlik göstərib.

Ağdərə istiqamətində gedən döyüşlərdə qəlpə yarası alıb. Xəstəxanada müalicə olunarkən həkimlərə deyirmiş ki, onu bir az tez ayağa qaldırsınlar, çünki yenidən cəbhədə düşmənə qan udduran silahdaşlarına qoşulmalıdır.

– İkinci Qarabağ savaşından qabaq Silahlı Qüvvələrimizin qüdrətlənməsi üçün lazım olan hər bir iş görülmüşdü, – deyir Cavad Məmmədzadə. – Bircə qalırdı rəşadətli Ordumuzun dünyanın ən güclü ordularından biri olduğunu təsdiq etməsi, onu da Vətən müharibəsində Böyük Qələbəsi ilə sübuta yetirdi.

Xalqımızın igid oğlu Cavad Məmmədzadə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medallarına layiq görülüb.



Fərid Ələvsət oğlu Abuşov

Vətən müharibəsində iştirakından böyük qürur duyur

Fərid Əlövsət oglu Abuşov 1996-cı il noyabrın 22-də Bakı şəhərində dünyaya göz açıb.

2013-cü ildə S.C.Pişəvəri adına Respublika humanitar fənlər gimnaziyasını bitirib.

2013–2017-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetində təhsil alıb.

2017-ci ildə bu ali təhsil ocağını bitirdikdən sonra müddətli həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına çağırılıb.

Tərxis olunduqdan sonra özünü bir müddət sahibkarlıq sahəsində sınayıb.

Dənizçi ailəsində böyüyən Fəridin bu şərəfli peşəyə marağı onu 2019-cu ildə Azərbaycan Dövlət Dəniz Akademiyasına gətirib çıxarır. Ölkəmizdə yüksəkixtisaslı dənizçi kadrlar hazırlayan yeganə ali təhsil ocağında "Dəniz naviqasiyası mühəndisliyi" ixtisasına yiyələnir.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda qismən səfərbərliyə cəlb olunan Fərid təlim keçdikdən sonra cəbhə bölgəsinə yola düşür.

Füzuli, Cəbrayıl və Qubadlı istiqamətində gedən döyüşlərdə iştirak edib.

Və bu gün də Vətən müharibəsində iştirakını böyük qürur hissi ilə xatırlayır. Fərid Abuşov deyir:

– Bütün xalqımız kimi, mən də Zəfər gününün sevincini yaşayacağımıza inanırdım. İnanırdım ki, 30 illik yurd həsrətimizə birdəfəlik son qoyulacaq. İstəyim bu idi ki, Uca Yaradan o günü xalqımıza nəsib edəndə, mənim əlimdə də silah olsun! Etiraf edim ki, arzum çin olandan özümü dünyanın ən xoşbəxt insanı sayıram.



Cahad Feyzulla oğlu Ağazadə

Xalqımız dahi sərkərdəmiz İlham Əliyevin Azərbaycan üçün gördüyü böyük işləri heç vaxt unutmayacaq

"Əminəm ki, tarixi Qələbə xalqımızın gələcəyini əbədi nura boyayacaq. Ərazi bütövlüyümüzün bərpasının xalqımız üçün nə demək olduğunu isə bu fakt daha aydın göstərir. Haqq savaşında hamı bir nəfər kimi cəbhəyə yollanıb torpaqlarımızı azad etmək istəyirdi."

Bu sözləri İlham Əliyev kimi Ali Baş Komandanı olan xalqın heç vaxt yenilməyəcəyinə əmin olan Cahad Agazadə söyləyib.

Cahad Feyzulla oglu Agazadə 1997-ci il dekabrın 31-də Salyan rayonunda doğulub.

2015-ci ildə Salyan rayonunun Kürsəngi kənd orta məktəbini bitirib.

Həmin ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının "Gəmi təmiri və gəmiqayırma" ixtisasına daxil olub.

2019-cu ildə ADDA-nı bitirdikdən sonra həqiqi hərbi xidmətə yollanıb.

Ordu sıralarında xidmət edərkən Vətən müharibəsi başlayıb.

Cahad Agazadə Xocavənd uğrunda gedən döyüşlərdə iştirak edib.

– Vətən müharibəsinin ilk günündən hər kəs anladı ki, "Hər şey cəbhə üçün, hər şey Qələbə üçün!" olmalıdır, – deyir Cahad Agazadə. – Hər kəs rəşadətli Ordumuza dayaq durdu. Elə bu birlik, bu anlaşma xalqımızın yurd həsrətinə son qoydu, ölkəmizin ərazi bütövlüyünü təmin etdi. Uca Yaradan bu birliyimizi bizə çox görməsin!



Bəxtiyar İlqar oğlu Əhmədov



“Laçının azad olunmasına görə” medalı

Qələbəmiz Qarabağ düyününün açılmaması üçün min hiyləyə əl atan işğalçını və himayədarlarını eyni dərəcədə üzdü

"Vətən müharibəsində qazandığı parlaq Qələbə ilə rəşadətli Ordumuz yeni tarix yazdı. Azərbaycan xalqı da bu tarixi Qələbəni ona bəxş edən qəhrəmanların adlarını böyük sevgi və ehtiramla qəlbinə əbədi həkk etdi."

Bu sözlər Vətən müharibəsinin ilk günündən cəbhəyə yollanan Bəxtiyar Əhmədova məxsusdur.

Bəxtiyar İlqar oğlu Əhmədov 1989-cu il mayın 8-də Ucar rayonunda dənizçi ailəsində dünyaya göz açıb.

Bakıda Fizika, riyaziyyat və informatika təmayüllü liseyi bitirdikdən sonra Odessa Milli Dəniz Universitetinə daxil olub.

2010-cu ildə bu təhsil ocağının "Gəmilər və okean texnikası" ixtisası üzrə bakalavr və daha sonra magistr pilləsini bitirib.

Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra Ukrayna, Rusiya və Azərbaycanda müxtəlif gəmi təmiri və tikintisi zavodlarında çalışıb.

2019-cu ildə Azərbaycan Dövlət Dəniz Akademiyasında "Gəmi energetik qurğularının istismarı mühəndisliyi" ixtisası üzrə təkrar ali təhsil almaq qərarına gəlir.

2020-ci ildə Vətən müharibəsi başlayanda Ordu sıralarına çağırılıb. Bir müddət təlim keçdikdən sonra manqa komandiri kimi ön cəbhəyə yollanıb. Və 44 günlük ölüm-dirim savaşında çətin olduğu qədər də şərəfli döyüş yolu keçib.

İgid döyüşçünün Vətənə övladlıq borcunu layiqincə yerinə yetirdiyini Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə təltif edildiyi "Laçının azad olunmasına görə" medalı təsdiqləyir.

Bəxtiyar Əhmədov deyir ki, rəşadətli Azərbaycan Ordusunun Zəfər yürüşü xalqımızı sevindirdiyi qədər də, uzun illər Qarabağ düyününün açılmaması üçün min hiyləyə əl atan işğalçını və himayədarlarını eyni dərəcədə üzdü. Allah bütün işğalçılara və işğalçılıq siyasətini dəstəkləyənlərə həmişə belə üzüntülər nəsib etsin!



Elvin Seymur oğlu Əsədov



“Cəbrayılın azad olunmasına görə” medalı

“Füzulinin azad olunmasına görə” medalı

“Kəlbəcərin azad olunmasına görə” medalı

Azərbaycanlı olmağının qürurunu yaşayır

İkinci Qarabağ savaşının qəhrəmanlarından olan Elvin Əsədov deyir ki, bizə inanan xalqımız qarşısında alnımız açıqdır. Çünki təkcə ərazi bütövlüyümüzü təmin etmədik, uzun illər xalqımıza qarşı edilən haqsızlığın, ədalətsizliyin qisasını aldıq. Böyük Zəfərimizdən sonra hər bir soydaşımız Azərbaycanlı olmağının qürurunu yaşayır.

Elvin Seymur oğlu Əsədov 1998-ci il oktyabrın 27-də Rusiya Federasiyasının Tatarıstan Respublikasının Almetyevsk şəhərində doğulub.

Bir müddət sonra ailəsi Azərbaycana köçüb.

Elvin Neftçala şəhərində Samir İmanov adına 1 saylı tam orta məktəbdə təhsil alıb.

2016–2020-ci illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasında "Dəniz naviqasiyası mühəndisliyi" ixtisasına yiyələnib.

2020-ci ildə ADDA-nı bitirən Elvin Əsədov həqiqi hərbi xidmət keçmək üçün Ordu sıralarına yollanıb. Xidmət zamanı öz arzusu ilə Xüsusi Təyinatlı Qüvvələrə qəbul olunub.

Vətən müharibəsi başlayan gündən Füzulu, Cəbrayıl, Kəlbəcər və Şuşa istiqamətlərində gedən döyüşlərdə özü kimi igidlərlə məkrli düşmənə qan uddurub.

Ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüşlərdə göstərdiyi igidlik və şücaətə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medallarına layiq görülüb.

– Şanlı Ordumuzun rəşadəti sayəsində Vətənimizin bütövlüyü təmin olundu, – deyir Elvin Əsədov. – İndi qolunu çırmalamaq növbəsi mülki əhalinindir. İşğal altında olanda ermənilərin vəhşiliyi nəticəsində daşı-daş üstündə qalmayan məskənlərimizi bərpa edərək yenidən dünyanın ən gözəl məkanlarına çevirmək də asan deyil. Amma bu arzumuz da çin olacaq, inşallah!



Şahin Tofiq oğlu Hüseynzadə



“Qubadlının azad olunmasına görə” medalı

2020-ci ilin payızına neçə bahar sığar

Baharı həmişə çox sevmişik. Sevəcəyik də. Çünki sevməyə neçə səbəb var. Bəs 2020-ci ilin payızına neçə bahar sığar? Bizə Böyük Zəfər bəxş edən payızı deyirəm...

Vətənin bütövlüyü üçün canından keçməyə hazır olan Şahin Hüseynzadə kimi nər oğulların 2020-ci ilin payızından sonra ilin bu fəslini niyə çox sevdiklərini anlamaq da çətin deyil.

Şahin Tofiq oğlu Hüseynzadə 1995-ci il aprelin 5-də Bakı şəhərində dünyaya göz açıb.

2013-cü ildə 129 saylı orta məktəbi bitirib.

2013–2017-ci illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasında "Su nəqliyyatının tikinti mühəndisliyi" ixtisasına yiyələnib.

2017–2018-ci illərdə Azərbaycan Ordusunun sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

Vətən müharibəsi başlayanda könüllü olaraq cəbhəyə yollanıb. Cəbrayıl və Qubadlı rayonları istiqamətində gedən döyüşlərdə qumbaraatan köməkçisi və artilleriya qurğularının baş tuşlayıcısı kimi iştirak edib.

Sahin Hüseynzadənin İkinci Qarabağ savaşında şərəfli döyüş yolu keçdiyini ölkə başçısı İlham Əliyevin Sərəncamı ilə təltif edildiyi "Qubadlının azad olunmasına görə" medalı təsdiqləyir.

– Payızı çox sevirəm deyir, – deyir Şahin Hüseynzadə. – Xalqımız çoxdan gözlədiyi Zəfər sevincini 2020-ci ilin payızında yaşadı. 44 gün davam edən hərbi əməliyyatlar yenilməz Ordumuzun tam Qələbəsi ilə başa çatdı. İşğalçı Ermənistanın silahlı qüvvələrindən qırılan qırıldı, qırılmayanları da qaçıb güclə canını qurtardı.



İsmayıl Həsən oğlu İsmayılzadə

Vətənimizin ərazi bütövlüyü təmin olunandan sonra biz hamımız başıuca gəzirik

"Vətən müharibəsində Azərbaycan əsgəri həqiqətən misilsiz şücaət göstərdi. Bəlkə də tarixdə belə qəhrəmanlıq, rəşadət nümunələrinə rast gəlinməyib. Yağının üzərinə cəngavər kimi atılanda, qabağına qatıb qovanda, düşmənin 30 ildə qurduğu nəhəng istehkamları darmadağın edəndə... görəydiniz. Azərbaycan əsgərinin döyüş ruhu, düşməndən qisas almaq yanğısı Qələbənin qazanılmasında mühüm rol oynadı."

Bu sözlər özü də dediyi igidlərdən geri qalmayan İsmayıl İsmayılzadəyə məxsusdur.

İsmayıl Həsən oğlu İsmayılzadə 1996-cı il oktyabrın 29-da Göyçay rayonunun Bəydövül kəndində dünyaya göz açıb.

2014-cü ildə Bəydövül kənd tam orta məktəbini bitirib.

Həmin ildə Azərbaycan Dövlət Dəniz Akademiyasına daxil olub. Bu təhsil ocağında "Gəmiqayırma və gəmi təmiri" ixtisasının sirlərinə yiyələnib.

2019-cu ildə ADDA-da təhsilini bitirdikdən sonra müddətli həqiqi hərbi xidmətə gedib.

2020-ci ildə tərxis olunduqdan az sonra Vətən müharibəsi başlayıb və İsmayıl da yenidən rəşadətli Ordumuzun sıralarına qatılıb.

Ağdam, Ağdərə və Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak edib.

Yağı tapdağı altında olan torpaqlarımızın xilasına qalxan minlərlə gəncin sıralarına qoşulmaqdan iftixar duyduğunu gizlətməyən igid döyüşçü İsmayıl İsmayılzadə Vətən müharibəsində parlaq Qələbədən sonra başıuca gəzdiyini söyləyir.

Amma ətrafına diqqətlə baxsa görər ki, doğma Azərbaycanın ərazi bütövlüyü təmin olunandan sonra biz hamımız başıuca gəzirik. Buna görə, İsmayıl İsmayılzadə kimi igidlərimizə borclu olduğumuzu da unutmuruq. Unutmarıq da!



Bəşir Baqdan oğlu Kazımov



“Laçının azad olunmasına görə” medalı

Vətən müharibəsinin sınağından uğurla çıxan gənci qarşıda dənizlərin sınağı gözləyir

Ürəyi Azərbaycanla döyünən hər kəsə sonsuz sevinc bəxş edən Böyük Qələbənin əldə edilməsində payı olan igid dənizçilərdən biri də müharibənin ilk günündən cəbhəyə yollanan Bəşir Kazımovdur.

Bəşir Baqdan oğlu Kazımov 1996-cı il oktyabrın 18-də Bakı şəhərində anadan olub.

2014-cü ildə paytaxtın Xətai rayonundakı 245 saylı tam orta məktəbi bitirib.

2014–2018-ci illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasında "Gəmi energetik qurğularının istismarı mühəndisliyi" ixtisasına yiyələnib.

Akademiyanı bitirdikdən sonra 2018–2019-cu illərdə Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

2020-ci ildə Vətən müharibəsi başlayanda könüllü olaraq cəbhə bölgəsinə yollanıb.

Füzuli, Xocavənd, Qubadlı, Zəngilan, Kəlbəcər və Laçın istiqamətində gedən döyüşlərdə iştirak edib.

Cəsur əsgər ölkə rəhbəri cənab İlham Əliyevin Sərəncamı ilə "Laçının azad olunmasına görə" medalına layiq görülüb.

Bəşir Kazımov deyir ki, Vətən müharibəsi hamımız üçün böyük bir sınaq oldu. Sevinirəm ki, bu sınaqdan üzüağ çıxdıq. Qazanılan Qələbə ölkəmizin ərazi bütövlüyünü təmin etməklə yanaşı, müstəqil dövlətimizin nüfuzunu da qat-qat yüksəltdi.



Cavidan Vahid oğlu Qasımlı



“Xocavəndin azad olunmasına görə” medalı

“Xalqımızın birliyindən güc aldığımızdan işğalçını ağ bayraq qaldırana kimi qovmaq çətin olmadı”

Məcburi köçkün ailəsindən olan Cavidan Qasımlı ağlı söz kəsəndən tez böyüməyini arzulayıb. Namərd ermənilərin xalqımıza qarşı törətdiyi vəhşiliklərin canlı şahidi olan ailəsindən eşitdikləri, doğmalarının yaşadıqları ağrı-acılar təkcə düşmənə nifrətini artırmayıb, insanlığa sığmayan bəd əməllərinə görə bir gün cavab verəcəklərini düşünüb. Qisas vaxtı gələndə ön sırada olmaq istəyib.

Cavidan Vahid oğlu Qasımlı 1993-cü il oktyabrın 7-də Bakı şəhərində dünyaya göz açıb.

Tale elə gətirib ki, orta məktəbin ilk siniflərini İsmayıllıda oxuyub. Sonra ailəsi Bakıya köçüb.

2011-ci ildə Bakının Xocasən qəsəbəsindəki 103 saylı orta məktəbi bitirib.

2011–2015-ci illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasının “Dəniz naviqasiyası mühəndisliyi“ ixtisasına yiyələnib.

Akademiyanı bitirdikdən sonra müddətli həqiqi hərbi xidmətə yollanıb. Hələ onda ön xətdə xidmət etmək istəyib. Bəxti gətirib. Ən çətin postlardan sayılan, kifayət qədər yüksəklikdə yerləşən və general-mayor Polad Həşimov tərəfindən azad olunan postda xidmət edib. Sağlığında xalqımızın qəlbində özünə abidə ucaldan qəhrəman generalımızı da o vaxt tanıyıb.

Cavidan müddətli həqiqi hərbi xidmətdən qayıtdıqdan sonra gəmidə kapitan köməkçisi kimi çalışıb. Qara dənizdə səfərdə olarkən general Polad Həşimovun şəhid olduğunu eşidib. Dünya gözündə qaralıb, içi qisas hissi ilə alışıb-yanıb. Bakıya qayıtdıqdan az sonra Vətən müharibəsi başlayıb. Bütün işlərini sonraya saxlayıb və könüllü olaraq cəbhəyə yollanıb. Xocavənd istiqamətində bir sıra yüksəkliklər uğrunda döyüşlərdə iştirak edib, özü kimi cəsurlarla düşməni darmadağın edərək postlarını nəzarətə götürüblər.

– Bu müharibə hamımız üçün bir sınaq idi, – deyir Cavidan Qasımlı. – Gücümüzün, birliyimizin sınağı. Cəbhədə xalqımızın böyük dəstəyini hiss edirdik. Elə məhz bu birlikdən güc aldığımız üçün idi ki, işğalçıları ağ bayraq qaldırana kimi qovanda, zərrəcə yorulmadıq.

Cəsur döyüşçü Cavidan Qasımlı ölkə başçısı cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə “Xocavəndin azad olunmasına görə” medalı ilə təltif olunub.



Daşqın Rəsul oğlu Quliyev

Vətən müharibəsində bütün xalqımızın qəlbi yalnız bir istəklə vururdu

"Azərbaycan xalqı İkinci Qarabağ savaşının ilk günündən rəşadətli Ordumuza dayaq oldu, ona ölçüyəgəlməz dəstək verdi. Belə dəstək görən igid əsgər və zabitləri isə Qələbə çalanadək heç nə dayandıra bilməzdi. Belə də oldu!"

Bu sözlər Vətən müharibəsinin od-alovundan keçən Daşqın Quliyevin dilində səslənib.

Daşqın Rəsul oğlu Quliyev 1997-ci il iyulun 15-də Goranboy rayonunda dünyaya göz açıb.

2014-cü ildə orta məktəbi bitirərək Azərbaycan Dövlət Dəniz Akademiyasına daxil olub. "Nəqliyyatda daşımaların və idarəetmənin təşkili mühəndisliyi" ixtisası üzrə təhsil aldığı illərdə ictimai fəallığı və vətənə sevgisi ilə seçilib.

2018-ci ildə ADDA-nı bitirdikdən sonra müddətli həqiqi hərbi xidmətə yollanıb və 2019-cu ildə ehtiyata buraxılıb.

İkinci Qarabağ savaşı başlayanda "Qanımız da Vətənə qurbandır, canımız da!" deyərək torpaqlarımızı işğaldan azad etmək üçün könüllü cəbhəyə gedib. Murov yüksəkliyi, Ağdərə, Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak edib.

– Vətən müharibəsində bütün xalqımızın qəlbi yalnız bir istəklə vururdu, – deyir Daşqın Quliyev. – Qələbə istəyi ilə! Hər kəs cəbhə üçün, Qələbə üçün əlindən gələni etməyə çalışırdı. Xalqımızın Ordumuza sonsuz inamı haqq savaşımızda bizə əlavə güc verirdi. Nə boyda xalq olduğumuzu dərk etdikcə, daha böyük ruh yüksəkliyi ilə vuruşur, belə vuruşduqca, düşmən daha aciz duruma düşürdü…



Cavid Bahadur oğlu Məhərrəmli



“Suqovuşanın azad olunmasına görə” medalı

“İrəli!” əmri veriləndən yalnız irəli getmək barədə düşünən igid döyüşçü

Silahsız da eyni vaxtda bir neçə düşmənin belini qırmağa, başını əzməyə qadirdir Cavid. Uşaqlıqdan idmanla məşğul olub. Azərbaycan Dövlət Dəniz Akademiyasında oxuduğu illərdə artıq mahir idmançı kimi tanınırdı. Buna baxmayaraq, özündən çox xalqımızın qəhrəmanlığından danışmağı xoşlayır.

– 44 günlük Vətən müharibəsində cəbhəyanı rayonların əhalisi cəsarəti, qorxmazlığı ilə bizi də heyran qoydu, – deyir Cavid Məhərrəmli. – Müzəffər Ordumuzun qarşısında aciz qalan namərd düşmən əvəzini mülki əhalimizdən çıxmağa çalışırdı. Ermənistan silahlı birləşmələrinin təxribatlarına, intensiv artilleriya atəşlərinə baxmayaraq, bir şəhər və ya kənd sakini belə yaşayış yerindən tərpənmir, öz doğma ocağını tərk etmirdi. Cəsarət budur! Qəhrəmanlıq budur! İndi təsəvvür edin, silahsız azərbaycanlı düşmənin müntəzəm atəşlərindən qorxub, bir addım geri çəkilmirsə, “İrəli!” əmri alan peşəkar əsgər və zabitlərimiz geri çəkilərmi? Yalnız irəli getməyə, hər gün daha neçə yaşayış məntəqəmizi azad etməyə çalışırdılar.

Cavid Bahadur oğlu Məhərrəmli 1999-cu il aprelin 21-də Bakı şəhərində dünyaya göz açıb.

2016-cı ildə Əhmədli qəsəbəsindəki 116 saylı məktəbi bitirib.

Həmin ildə Azərbaycan Dövlət Dəniz Akademiyasına daxil olub.

Təhsil illərində yaxşı oxumaqla yanaşı, idmana da müntəzəm vaxt ayırıb. MMA üzrə respublika çempionu olan Cavid 2020-ci ildə ADDA-nı “Gəmiqayırma və gəmi təmiri mühəndisliyi” ixtisası üzrə bitirdikdən sonra həqiqi hərbi xidmətə yollanıb. Vətən müharibəsi zamanı Tərtər, Suqovuşan, Talış kəndi və Ağdərə istiqamətlərində gedən döyüşlərdə iştirak edib.

Ölümün gözlərinə dik baxmaqdan zərrəcə çəkinməyən cəsur döyüşçü dəfələrlə yaralı əsgər və zabitləri atəş altından çıxarıb.

Döyüşlərin birində düşmənin atdığı raket nəticəsində Cavid özü də yaralanıb.

Hələ savaşın ilk günü Ali Baş Komandanımız cənab İlham Əliyev demişdi ki, Dağlıq Qarabağ məsələsi bizim milli məsələmizdir. Dağlıq Qarabağ məsələsinin həlli bizim tarixi vəzifəmizdir. Biz bu məsələni elə həll etməliyik ki, Azərbaycan xalqı bundan razı olsun. Biz bunu elə həll etməliyik ki, tarixi ədalət bərpa edilsin. Biz bunu elə etməliyik ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun.

Şükür Allaha, Cavid Məhərrəmli kimi igid oğullarımızın hesabına Vətən müharibəsi dövlət başçımızın dediyi, xalqımızın istədiyi kimi də başa çatdı.

Cəsur döyüşçünün sinəsini Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə təltif edildiyi “Suqovuşanın azad olunmasına görə” medalı bəzəyir.



Məhəmməd Ələkbər oğlu Məmmədov



“Füzulinin azad olunmasına görə” medalı

Yurdumuz bütöv, Ordumuz yenilməz! Xalqımıza xoşbəxt yaşamaq üçün daha nə lazımdır ki?!

Məhəmməd Ələkbər oğlu Məmmədov 1998-ci il fevralın 23-də Bakı şəhərində anadan olub.

2015-ci ildə paytaxtda 220 saylı orta məktəbi bitirib.

Həmin ildə Azərbaycan Dövlət Dəniz Akademiyasına daxil olub.

2019-cu ildə ADDA-nı "Gəmi energetik qurğularının istismarı mühəndisliyi" ixtisası üzrə bitirdikdən sonra müddətli həqiqi hərbi xidmətə çağırılıb.

Vətən müharibəsi başlayandan ön cəbhədə olub. Füzuli, Cəbrayıl, Zəngilan, Hadrut və Xocavənd rayonları uğrunda gedən döyüşlərdə igidlik göstərib.

Döyüşlər zamanı həm də yaralı əsgər yoldaşlarına ilkin tibbi yardım göstərməklə və ya təhlükəli ərazidən çıxartmaqla həyatlarını xilas edib.

Məhəmməd Məmmədovun döyüş meydanında göstərdiyi şücaət ölkə rəhbəri İlham Əliyevin Sərəncamı ilə "Füzulinin azad olunmasına görə" medalı ilə qiymətləndirilib.

– Vətən müharibəsində doğma məskənlərimizi işğaldan azad etdikcə, ürəyimiz dağa dönür, bütün yorğunluğumuzu unudur və dayanmadan irəli getmək istəyirdik, – deyir Məhəmməd Məmmədov. – Sevinirəm ki, Qələbəmiz yurd itkisinə görə ötən 30 ildə həmişə qüssəli olan gözlərə gülüşü əbədi qaytardı. İndi Yurdumuz bütöv, Ordumuz yenilməz! Xalqımıza xoşbəxt yaşamaq üçün daha nə lazımdır ki?!



Osman Səfər oğlu Məmmədzadə



“Xocavəndin azad olunmasına görə” medalı

Zəfər yürüşünün həm şahidi, həm də iştirakçısı olduğu üçün özünü xoşbəxt sayır

Vətənə, torpağa olan sevgisini hərə bir cür ifadə edir. Osman Məmmədzadə yurda sevgisini Vətənin ona ehtiyacı olduğunu hiss edən kimi, vaxt itirmədən köməyinə tələsməsi ilə sübut edib.

Osman Səfər oğlu Məmmədzadə 1996-cı il oktyabrın 2-də Bakı şəhərində dünyaya göz açıb.

Orta təhsilini paytaxtın Binəqədi rayonundakı Həsən Cəbrayılov adına 99 saylı məktəbdə alıb.

2013-cü ildə Azərbaycan Dövlət Dəniz Akademiyasına daxil olub. 2018-ci ildə ADDA-nı "Gəmi energetik qurğularının istismarı mühəndisliyi" ixtisası üzrə bitirib və həqiqi hərbi xidmətə yollanıb.

2019-cu ildə Ordudan tərxis edilib.

Vətən müharibəsi başlayanda yenidən Ordu sıralarına qatılıb.

Füzuli, Hadrut, Cəbrayıl, Xocavənd və Şuşa uğrunda gedən döyüşlərdə iştirak edib.

Qarabağı azadlığa qovuşduracaq Qələbəyə bütün varlığı ilə inanan və bu inamı gerçəkləşdirmək imkanı yaranan kimi, əlinə silah alan Osman Məmmədzadə deyir ki, mənsub olduğu nəsil 2020-ci ilin 27 sentyabrından başlayan və Azərbaycanı qalib ölkəyə çevirən Zəfər yürüşünün həm şahidi, həm də iştirakçısı olduğu üçün xoşbəxtdir.

Cəsur döyüşçü Osman Məmmədzadə ölkə rəhbəri cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə "Xocavəndin azad olunmasına görə" medalına layiq görülüb.



Təbriz Şahverdi oğlu Nemətli



“Zəngilanın azad olunmasına görə” medalı

“Cəbrayılın azad olunmasına görə” medalı

İndi Azərbaycan bütün dünyada Qalib ölkə kimi tanınır

"Qarabağsız Azərbaycan yarımçıq idi, tam deyildi. Qarabağsız Azərbaycan özünə oxşamırdı, Azərbaycan deyildi. Bunu hər birimiz başa düşürdük. Qarabağ düşmən tapdağı altında olanda mənən də nə qədər əzab çəkdiyimizi bircə Allah bilirdi. Tarixi ədaləti bərpa etməklə həm də xalqımızın mənəvi əzablarına birdəfəlik son qoyduq."

Bu fikirlər Vətən müharibəsinin iştirakçısı olan Təbriz Nemətlinin dilində səslənib.

Təbriz Şahverdi oğlu Nemətli 1992-ci il noyabrın 3-də İsmayıllı rayonunun Təzəkənd kəndində anadan olub.

2010-cu ildə Təzəkənddə şəhid Mirzəağa Əzimov adına tam orta məktəbi bitirib.

Həmin ildə "Elektrik mühəndisliyi" ixtisasına yiyələnmək arzusu ilə Azərbaycan Dövlət Dəniz Akademiyasına daxil olub.

2014-cü ildə həqiqi hərbi xidmətə yollanıb.

Hərbi xidmətdən sonra bir müddət fərdi sahibkarlıqla məşğul olub.

Vətən müharibəsi başlayanda könüllü silaha sarılıb, ölkəmizin ərazi bütövlüyünün təmin olunması uğrunda gedən döyüşlərdə iştirak edib.

Təbriz Nemətlinin əsgəri borcunu layiqincə yerinə yetirdiyini ölkə rəhbəri cənab İlham Əliyevin müvafiq sərəncamları ilə təltif olunduğu "Cəbrayılın azad olunmasına görə" və "Zəngilanın azad olunmasına görə" medalları təsdiqləyir.

İgid döyüşçü deyir ki, Vətən müharibəsinə qədər Azərbaycan daha çox neft ölkəsi kimi tanınırdı. Ordumuzun rəşadəti bizi otuz ilə yaxın müddətdə işğal altında olan əzəli yurd yerlərimizə qovuşdurmaqla yanaşı, həm də millətimizi Qalib xalq zirvəsinə yüksəltməklə Azərbaycanı bütün dünyaya Qalib ölkə kimi tanıtdı. Bütün dünya anladı ki, bu xalq canından keçər, bir qarış torpağından isə heç vaxt keçməz.



Elxan Mehman oğlu Osmanov



“Xocavəndin azad olunmasına görə” medalı

Əli çox uzun olan düşmənin əlini artıq olduğu yerdən kəsdik

Elxan Mehman oğlu Osmanov 1997-ci il martın 31-də Kürdəmir şəhərində dünyaya göz açıb.

2014-cü ildə Kürdəmirdə Səyavuş Paşayev adına 6 saylı şəhər orta məktəbini bitirib.

2014–2018-ci illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasında "Gəmi energetik qurğularının istismarı" ixtisasına yiyələnib.

ADDA-nı əla qiymətlərlə bitirdikdən sonra müddətli həqiqi hərbi xidmətə yollanıb və 2019-cu ildə tərxis olunub.

2020-ci ildə Vətən müharibəsi başlayanda yenidən Ordu sıralarına çağırılıb.

Döyüş yolu Füzulidən başlayan Elxan Osmanov sonra Ağdam, Xocavənd uğrunda da igidliklə vuruşub.

Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Xocavəndin azad olunmasına görə" medalına layiq görülüb.

– Mən əminəm ki, mənfur düşmən bir də heç vaxt torpaqlarımıza əl uzada bilməyəcək, – deyir Elxan Osmanov. – Əli çox uzun olan düşmənin əlini artıq olduğu yerdən kəsmişik. Allah hər qarış torpağımız üçün canlarını fəda etməyə hazır olan igid oğullarımızı Azərbaycana çox görməsin.



Hüseyn Elşad oğlu Rüstəmov



“Cəbrayılın azad olunmasına görə” medalı

İnam böyük olanda Qələbəyə aparan yol qısalır

"Hər bir gəncin borcudur ki, əzəli yurdunu düşməndən qorusun və onun uğrunda hər an savaşa hazır olsun."

Ömrünün bahar çağını yaşayan Hüseyn Rüstəmov həmişə belə düşünüb və təkcə düşünməyib. Vətənin çətin günündə bir çox gənclərimiz kimi, onun da əlində silah, qəlbində Qələbəyə sonsuz inam olub.

Hüseyn Elşad oğlu Rüstəmov 1999-cu il avqustun 31-də Yevlax şəhərində dünyaya göz açıb.

2016-cı ildə Yevlax şəhərində Nəriman Nərimanov adına 9 saylı tam orta məktəbi bitirib.

2016–2020-ci illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasında "Dəniz naviqasiyası mühəndisliyi" ixtisasına yiyələnib.

ADDA-nı bitirdikdən sonra müddətli həqiqi hərbi xidmətə yollanıb.

Vətən müharibəsi başlayandan ön cəbhədə olub. Cəbrayıl, Füzuli, Xocavənd, Zəngilan istiqamətində gedən döyüşlərdə iştirak edib.

İkinci Qarabağ savaşında göstərdiyi hünər ölkə rəhbəri cənab İlham Əliyevin Sərəncamı ilə "Cəbrayılın azad olunmasına görə" medalına layiq görülüb.

İnam böyük olanda Qələbəyə aparan yolun qısaldığına əmin olan Hüseyn Rüstəmov deyir ki, Vətən müharibəsində arxalı düşmən üzərində parlaq Qələbə ilk növbədə yumruq kimi birləşərək bir hədəfə vurmağımız sayəsində qazanıldı. Xalqımızın ən böyük arzusunu – doğma torpaqlarda yaşamaq haqqını gerçəkləşdirən bu möhtəşəm Zəfərlə yenilməz Ordumuz həm də dünya hərb tarixinə ən güclü dövlətlərin diqqətlə öyrənəcəyi yeni şanlı səhifələr yazdı.



Rəsul Rəfail oğlu Şahbazov



“Suqovuşanın azad olunmasına görə” medalı

Ümid edirik ki, işğalçılar "Qarabağ Azərbaycandır!" dərsini yaxşı mənimsədilər

"Yəqin ki, bu baxışları hər biriniz hiss etmisiniz. Vətən müharibəsindəki Qələbəmizdən sonra bizə doğma torpaqlarını mənfur düşməndən azad etmiş qəhrəman xalqın övladları kimi baxırlar. Münaqişənin ilk günündən dünyanın eşidə biləcəyi səslə "Qarabağ Azərbaycandır!" dedik və bütün təzyiqlərə, haqsızlıqlara baxmayaraq, ərazi bütövlüyümüzü bərpa etdik."

Bu sözlər Vətən müharibəsində sinəsini qalxana çevirən Rəsul Şahbazovun dilindən çıxıb.

Rəsul Rəfail oğlu Şahbazov 1998-ci il fevralın 10-da Bakının Maştağa qəsəbəsində dünyaya göz açıb.

2016-cı ildə Maştağadakı Cəfər Cabbarlı adına 187 saylı tam orta məktəbi bitirib.

Həmin ildə Azərbaycan Dövlət Dəniz Akademiyasına daxil olub.

2020-ci ildə ADDA-nı "Dəniz naviqasiyası mühəndisliyi" ixtisası üzrə bitirdikdən sonra hərbi xidmətə yollanıb.

Vətən müharibəsində Suqovuşan, Talış kəndi istiqamətində gedən döyüşlərdə iştirak edib.

Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Rəsul Şahbazov deyir ki, Vətən müharibəsində yenilməz Ordumuz işğalçılara 44 gün müddətində "Qarabağ Azərbaycandır!" adlı yaxşı dərs verdi. İnanıram ki, bu mükəmməl dərsdən sonra naxələf qonşularımızın yaddaşı bir də onları aldatmayacaq. Kim nə vaxt soruşsa, çaşmadan deyəcəklər: "Qarabağ Azərbaycandır!"



Zakir Aydın oğlu Zakirov



“Cəbrayılın azad olunmasına görə” medalı

“Xocavəndin azad olunmasına görə” medalı

“Füzulinin azad olunmasına görə” medalı

Vətən müharibəsi başlayanda təhsilini yarımçıq qoyaraq könüllü ön cəbhəyə tələsən tələbə

"Hər kəsin başa düşdüyü bir dil var. Buna görə, hər kəslə onun başa düşdüyü dildə danışmaq lazımdır. Məsələn, sözlə 30 ilə də işğalçı ermənilər kimsə başa sala bilmədi ki, Azərbaycanın əzəli torpaqlarından qeyd-şərtsiz çıxmalıdırlar. Vətən müharibəsi göstərdi ki, namərd qonşularımızın başına dəmir yumruq dəyəndə, uzağı 44 günə əməlli-başlı anlayırlar."

Bu sözlər İkinci Qarabağ savaşının ilk günündən erməni faşistlərini başa salmağa çalışan cəsur döyüşçü Zakir Zakirova məxsusdur.

Zakir Aydın oğlu Zakirov 1999-cu il dekabrın 24-də Qubada doğulub.

2017-ci ildə Quba şəhərindəki Heydər Əliyev adına 1 nömrəli tam orta məktəbi bitirib.

2018–2019-cu illərdə Füzuli rayonunda müddətli həqiqi hərbi xidmət keçib.

2020-ci ildə "Gəmi energetik qurğularının istismarı mühəndisliyi" ixtisasına yiyələnmək üçün Azərbaycan Dövlət Dəniz Akademiyasına daxil olub.

Vətən müharibəsi başlayanda təhsilini yarımçıq qoyaraq könüllü cəbhəyə yollanıb.

Füzuli, Cəbrayıl, Xocavənd və Şuşa uğrunda gedən döyüşlərdə iştirak edib.

Ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüşlərdə göstərdiyi şücaətə görə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə Zakir Zakirov "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medallarına layiq görülüb.

– Terroru və faşizmi dövlət siyasəti səviyyəsinə qaldıran, xalqımıza Xocalı soyqırımını yaşadan, ərazilərimizin beşdə birini işğal edən namərd Ermənistana "Dayan, belə olmaz!" deyə biləcək və eşitməyəcəyi təqdirdə qulaqburması verə biləcək güclərdən kimsə səsini çıxartmadı, – deyir Zakir Zakirov. – Bu "səssizliyin" mahiyyətinin nədən ibarət olduğunu yaxşı anlayan düşmən bir az da qudurdu. Otuz il tar-mar etdiyi əzəli torpaqlarımızdan çıxmayacağını bəyan etməsi az imiş kimi, yeni ərazilərimizi zəbt etmək hədəsi ilə danışmağa başladı. Və təkcə danışmadı. Son illər buna bir neçə dəfə cəhd də etdi. Bütün bunlardan sonra, işğalçı Ermənistana yerini göstərə bilən bir qüvvə qaldı: yenilməz Azərbaycan Ordusu! Azərbaycan Ordusu da müstəqilliyimizi əbədi qorumaq, ərazi bütövlüyümüzü bərpa etmək gücündə və qüdrətində olduğunu yağıya başa düşəcəyi dildə "başa saldı".



”ƏVVƏL ZƏFƏR, SONRA SƏFƏR!”



Kənan Əziz oğlu Babayev



“Cəbrayılın azad olunmasına görə” medalı

“Qubadlının azad olunmasına görə” medalı

“Laçının azad olunmasına görə” medalı

“Xalqımızın və Ali Baş Komandanımızın inamını doğrultmalıydıq”

Kənan Əziz oglu Babayev 1997-ci il mayın 28-də Neftçala rayonunda doğulub.

2003–2014-cü illərdə Nefçala rayonunun Yenikənd kənd orta məktəbində təhsil alıb.

Sirli-sehirli sular qoynunda üzmək istəyi ilə 2014-cü ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə qəbul olub.

2015–2017-ci illərdə Ordu sıralarında müddətli həqiqi hərbi xidmət keçib. Tərxis olunduqdan sonra təhsilini davam etdirib və 2020-ci ildə kolleci ”Gəmi energetik qurğularının istismarı” ixtisası üzrə bitirib.

Həyatda ən böyük arzusu mənfur düşməni əzəli torpaqlarımızdan birdəfəlik qovmaq olan Kənan Babayev İkinci Qarabağ savaşının ilk günündən döyüşlərə atılıb, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Laçın istiqamətlərində gedən uğurlu əməliyyatlarımızda igidlik göstərib, sərrast atəşləri ilə düşmənin xeyli canlı qüvvəsini məhv edib.

– İlk gündən xalqımız bizə güvənirdi, – deyir Kənan Babayev. – İnanırdı ki, rəşadətli Ordumuz Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə əzəli və əbədi torpaqlarımızı yağı tapdağından xilas edəcək, ölkəmizin ərazi bütövlüyünü bərpa edəcək. Bu inamı doğrultmamaq mümkün deyildi...

Parlaq Zəfərin qazanılmasına öz töhvəsini verən Kənan Babayev Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə “Cəbrayılın azad olunmasına görə”, “Qubadlının azad olunmasına görə” və “Laçının azad olunmasına görə” medalları ilə təltif edilib.



Elməddin Nəsrəddin oğlu Bağırov



"Xocavəndin azad olunmasına görə" medalı

"Füzulinin azad olunmasına görə" medalı

“Düşməni aman diləyənədək qovduq”

Elməddin Nəsrəddin oğlu Bağırov 1995-ci il iyulun 2-də Biləsuvar rayonunda dünyaya göz açıb.

Biləsuvar rayonunun Aşağı Cürəli kənd tam orta məktəbini bitirib.

Sular qoynunda üzmək arzusu ilə 2014-cü ildə ASCO-nun Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə qəbul olub.

2017-ci ildə müddətli həqiqi hərbi xidmətə yollanıb.

2019-cu ildə Ordu sıralarından tərxis olunduqdan sonra təhsilini davam etdirib və 2020-ci ildə kolleci “Gəmi sürücülüyü” ixtisası üzrə bitirib.

Vətən müharibəsi başlayanda üçrəngli bayrağımızın Qarabağ səmasında dalğalanması üçün könüllü Ordu sıralarına qatılıb. Füzuli, Xocavənd, Cəbrayıl rayonları uğrunda igidliklə döyüşüb.

– Biz sülhsevər xalqıq, amma bu, o demək deyil ki, namərd qonşuların işğalçılıq siyasətinə dözməliyik, – deyir Elməddin Bağırov. – Dövlətimizin başçısı dəfələrlə söyləmişdi ki, müstəqil Azərbaycanın ərazi bütövlüyü heç vaxt müzakirə mövzusu olmayıb, olmayacaq da. Bir qarış torpağımızı da kiməsə güzəştə getməyəcəyimizi bilə-bilə, havadarlarına arxayın olan Ermənistan silahlı qüvvələri yeni ərazilərimizi işğal etmək niyyəti ilə 2020-ci il sentyabrın 27-də bütün cəbhəboyu hücuma keçdi. Qüdrətli Azərbaycan Ordusu əks-hücum əməliyyatı ilə işğal altında olan yaşayış məntəqələrimizi azad etdi, yağını strateji mövqelərdən, yüksəkliklərdən vurub çıxartdı. Adətən yekə-yekə danışmağı xoşlayan düşməni bu dəfə aman diləyənədək qovduq...

Elməddin Bağırovun sinəsini Vətən müharibəsində göstərdiyi şücaəti təsdiq edən “Xocavəndin azad olunmasına görə” və “Füzulinin azad olunmasına görə” medalları bəzəyir.



İbad Sahib oğlu Mənəfov



“Cəbrayılın azad olunmasına görə” medalı

“Qubadlının azad olunmasına görə” medalı

"Düşmənə unuda bilməyəcəyi dərs verdik"

İbad Sahib oglu Mənəfov 1997-ci il fevralın 2-də Neftçala rayonunun Mürsəqulu kəndində doğulub.

2002–2013-cü illərdə Mürsəqulu kənd tam orta məktəbində oxuyub.

2013-cü ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə qəbul olub.

2015-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb.

Ordu sıralarından tərxis olunduqdan sonra təhsilini davam etdirib və 2020-ci ildə kolleci "Gəmi enerji avadanlıqlarının istismarı" ixtisası üzrə bitirib.

2020-ci il sentyabrın 27-də Ermənistan ordusunun genişmiqyaslı təxribatına qarşı əks-hücum əməliyyatı başlayanda minlərlə yaşıdı kimi, o da Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə müraciət edərək cəbhəyə getmək istədiyini bildirib. Sentyabrın 29-dan ön cəbhədə erməni işğalçılarına qarşı savaşa atılıb. Cəbrayıl, Qubadlı rayonları uğrunda gedən döyüşlərdə düşməni gözündən vuran igidlərimizdən olub.

Cəsur döyüşçü İbad Mənəfov deyir:

– Bu Qələbə ilk növbədə dövlət başçımızın müdrikliyinin, cəsarətinin Qələbəsi idi. Azərbaycan ərazilərinin bir qarışının belə düşmənə güzəştə gedilməyəcəyini qətiyyətlə bəyan edən Ali Baş Komandanımız cənab İlham Əliyevin tapşırıqlarını yüksək döyüş əzmi və dəqiqliklə yerinə yetirən şanlı Ordumuz İkinci Qarabağ savaşında erməni təxribatına layiqli cavab və istəsə də, unuda bilməyəcəyi dərs verdi. Döyüş meydanında qısa zamanda əldə etdiyimiz parlaq Qələbəmizlə məkrli düşməni həm də mənəvi, psixoloji məğlubiyyətə uğratdıq. Torpaqlarımıza göz dikən düşmənin bir də özünə gəlməsi üçün isə on illər lazım gələcək.

Böyük Vətən eşqi ilə ölüm-dirim savaşına qatılan igid döyüşçü İbad Mənəfov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.



Məhəmmədəli Tofiq oğlu Süleymanov



“Xocavəndin azad olunmasına görə” medalı

“Füzulinin azad olunmasına görə” medalı

Torpaqlarımıza göz dikən düşməni daha çox gözündən vurdu

Vətən çağıranda harayına səs verən, gələcəklə bağlı bütün planlarını sonraya saxlayaraq köməyinə tələsən, məmləkətimizin bütövlüyü uğrunda canından keçməyə hazır olanların hər biri döyüş yollarının uzun və ya qısalığından asılı olmayaraq qəhrəmandır. Məhz Ali Baş Komandanımız İlham Əliyevin yüksək sərkərdəlik məharəti və ürəyi Azərbaycanla döyünən belə övladlarımızın igidliyi hesabına torpaqlarımıza soxulan, 30 il sözlə qanmayan və ya himayədarlarına arxayın olduğu üçün qanmaq istəməyən yağını cəmi 44 günə diz çökdürdük.

Vətən müharibəsində rəşadətlə döyüşən, torpaqlarımıza göz dikən düşməni daha çox gözündən vuran cəsur dənizçilərdən biri də Məhəmmədəli Süleymanovdur. Torpaqlarımızın mənfur düşmənlərdən azad edilməsində göstərdiyi şücaət dövlət başçımızın müvafiq sərəncamları ilə "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə qiymətləndirilib.

Məhəmmədəli Tofiq oğlu Süleymanov 1996-cı il sentyabrın 3-də Bakı şəhərində dənizçi ailəsində dünyaya göz açıb.

2012-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının Dənizçilik Kollecinə daxil olub və 2016-cı ildə kolleci "Gəmi sürücülüyü" ixtisası üzrə bitirib.

Daha sonra həqiqi hərbi xidmətə yollanıb. 2018-ci ildə tərxis olunub.

2020-ci il sentyabrın 21-də Ordu sıralarına çağırılıb. 44 günlük Vətən müharibəsinin ilk günündən düşmən təxribatına əks-zərbə ilə cavab verən igidlərimizin arasında olub. Füzuli, Cəbrayıl, Xocavənd və Şuşa uğrunda şücaətlə döyüşüb.

2020-ci il dekabrın 30-dan şanlı Ordumuzun sıralarından evə buraxılıb.

Bu gün özünü xoşbəxt hiss edir. Çünki Zəfər yürüşündə düşmənə vurulan zərbələrdə onun da xidməti var. Qalib Ordunun əsgəri kimi sonsuz fəxarət hissi keçirdiyini üz-gözündən də oxumaq çətin deyil.

– Ağlım kəsəndən Vətən torpaqlarının düşmən tapdağından azad edilməsi və bu amal uğrunda başlayacaq döyüşlərdə iştirak etmək ən böyük arzum olub, – deyir Məhəmmədəli Süleymanov. – Sevinirəm ki, bu arzuma çatdım. Azərbaycanın tarixinə qızıl hərflərlə yazılan və torpaqlarımızın otuz illik işğaldan azad olunması ilə nəticələnən "Dəmir yumruq" əməliyyatında mən də iştirak etdim.



Abdulla Qəzənfər oğlu Nağıyev



“Laçının azad olunmasına görə” medalı

Valideynlərin övladlarını Vətənin dar günü üçün böyütdüklərini düşünən gəmi təmirçisi

Abdulla Qəzənfər oğlu Nağıyev 1995-ci il iyunun 14-də Bakı şəhərində dünyaya göz açıb.

2001–2012-ci illərdə Bakının Qaradağ rayonunun Sahil qəsəbəsindəki Etiraf Eyyubov adına 273 nömrəli tam orta məktəbdə təhsil alıb.

2014-cü ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə "Gəmi təmiri" ixtisası üzrə qəbul olub.

2014–2016-cı illərdə Azərbaycan Ordusu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

Tərxis olunduqdan sonra təhsilini davam etdirib və 2019-cu ildə kolleci fərqlənmə diplomu ilə bitirib.

Vətən müharibəsi başlayanda valideynlərinin onu bu gün üçün böyütdüklərini düşünən Abdulla özünə yer tapa bilməyib, ön cəbhəyə can atıb. Sentyabrın 29-da könüllü olaraq müzəffər Ordumuzun sıralarına qatılıb. Talış kəndi, Suqovuşan, Ağdərə, Qubadlı və Laçın istiqamətlərində gedən döyüşlərdə iştirak edib.

Cəsur əsgər Abdulla Nağıyevin Vətən torpağları uğrunda mübarizədə göstərdiyi hünər ölkə başçısı cənab İlham Əliyevin Sərəncamı ilə "Laçının azad olunmasına görə" medalı ilə qiymətləndirilib.

– Bəzən düşünürdüm ki, işğal altında olan torpaqlarımızın bizdən küsməyə haqqı var, – deyir Abdulla Nağıyev. – Axı torpaq müqəddəsdir. Müqəddəs hesab edilənlərə isə murdarların əl-ayağı dəyməməlidir. Əzəli torpaqları olmayan, başqalarının ərazisi hesabına özlərinə "yurd düzəldən" ermənilər nə bilir Vətən, torpaq, yurd sevgisi nədir? Yəqin ki, işğal altında olan ərazilərimizi erməni qəsbkarlarından təmizləyəndə, 30 il həsrətlə yolumuzu gözləyən ata-baba ocağımızı sevindirməklə bərabər, həm də adını çox vaxt ana kəlməsi ilə qoşa çəkdiyimiz torpaqlarımız qarşısında "günahlarımızı" yuya bildik.



Ülvi Xaləddin oğlu Yusifli



“Füzulinin azad olunmasına görə” medalı

Bədənində hələ də düşmən qəlpəsi gəzdirən qazi

Ülvi Xaləddin oğlu Yusifli 1996-cı il avqustun 13-də Biləsuvar rayonunun Bəydili kəndində dünyaya göz açıb.

2013-cü ildə Biləsuvarda texniki fənlər təmayüllü internat məktəb-liseyi bitirib.

2014–2016-cı illərdə müddətli həqiqi hərbi xidmətdə olub.

Uşaqlıqdan dənizçi olmağı arzulayıb. Bu arzu ilə də 2016-cı ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə qəbul olub və 2020-ci ildə bu təhsil ocağını "Gəmi enerji avadanlıqlarının və avtomatik vasitələrinin istismarı" ixtisası üzrə bitirib.

Vətən müharibəsi başlayanda könüllü silaha sarılıb, manqa komandiri kimi Füzuli, Xocavənd rayonları uğrunda ölüm-dirim savaşında iştirak edib. Ermənistanın təslimçilik aktına qol çəkməsinə üç gün qalmış Xocavənd istiqamətində gedən döyüşdə ağır yaralanıb.

O günləri xatırlayan Ulvi Yusifli deyir:

– Əsgər və zabitlərimiz arasında yüksək döyüş ruhu Qələbənin qazanılmasında xüsusi rol oynadı. İlk döyüşlərimiz Füzuli istiqamətində oldu. Qaraxanbəyli, Qızıl qaya, Aşagı Veysəlli, Yuxarı Veysəlli kəndlərini işğaldan azad edərkən torpaqlarımıza soxulan düşmənə qan uddurduq. Füzulini işğalçılardan təmizləyəndən sonra Xocavənd istiqamətində irəlilədik. Amma noyabrın 7-də səhər saatlarında hiyləgər düşmənin qurduğu tələyə düşdük...

Bu döyüşdə Ülvi minaatanlardan atılan atəş nəticəsində sol ayağından, hər iki əlindən agır yaralanır. Qəlpələr dərinə girdiyindən, döyüşçü yoldaşları qanaxmanı saxlamağa çalışırlar. Əlverişli mövqedə olan düşmən bizim igidlərimizi gördüyü üçün aramsız artilleriya atəşi altında saxlayır. Buna baxmayaraq, qəhrəman əsgərlərimiz yaralı Ülvini döyüş meydanından çıxara bilirlər. Füzuli hospitalında cərrahi əməliyyat olunur. Bəzi qəlpələri orda çıxarırlar. İkinci dəfə əməliyyat olunanda bədənindən daha 14 qəlpə xaric edilir. Hələ də bədənində – sol ayagında 3, sol əlində sinirə yaxın yerdə 1 qəlpə gəzdirir.

Yaralansa da, Vətən uğrunda gedən döyüşlərdə iştirak etməyin qürurverici hiss olduğunu söyləyir igid qazimiz.

Şərəfli döyüş yolu keçən Ülvi Yusifli Prezident İlham Əliyevin Sərəncamı ilə "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilib.



Samiq Valeh oğlu Əliyev



“Xocavəndin azad olunmasına görə” medalı

Üçrəngli bayrağımızın bütün torpaqlarımızda əbədi dalğalanması üçün şəhid olmağa da hazır idi

Samiq Valeh oğlu Əliyev 1996-cı il yanvarın 1-də Masallı rayonunun Hacıtəpə kəndində dünyaya göz açıb.

2001–2012-ci illərdə Zeynal Zeynalov adına Hacıtəpə kənd tam orta məktəbində təhsil alıb.

2013-cü ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə qəbul olub.

2014–2015-ci illərdə Ordu sıralarında xidmət edib. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra təhsilini davam etdirib və 2019-cu ildə kolleci "Gəmilərin təmiri" ixtisası üzrə bitirib.

Üçrəngli bayrağımızın Qarabağ səmasında dalğalanması üçün hər cür fədakarlığa hazır olduğundan Vətən müharibəsi başlayan kimi könüllü cəbhəyə yollanıb, Cəbrayıl, Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə iştirak edib.

Vətən torpaqları uğrunda aparılan ölüm-dirim mübarizəsində göstərdiyi şücaətə görə Samiq Əliyev dövlət başçısı cənab İlham Əliyevin Sərəncamı ilə "Xocavəndin azad olunmasına görə" medalına layiq görülüb.

O günləri xatırlayan Samiq Əliyev deyir:

– Xain qonşularımızın əzəli torpaqlarımızın 20 faizinin işğalına, ərazilərimizi tar-mar etmələrinə nə qədər dözməliydik? Həyatımızın düzənini pozanların ağla gələcəyinə, danışıqlar yolu ilə torpaqlarımızdan çıxacaqlarına ümid çox bəslədik. Qanımıza susayanlar və onların havadarları sülhsevərliyimizi acizlik kimi yozdular. Və biz də törətdikləri növbəti təxribat zamanı faşist ermənilərin gerçək üzünü açıb dünyaya göstərməyə məcbur olduq. Bu gün sevinirəm ki, Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli Ordumuz əks-hücum əməliyyatlarında işğalçıları diz çökdürəndə, sıralarında mən də var idim.



Nicat Hikmət oğlu Xanoğlanzadə



“Xocavəndin azad olunmasına görə” medalı

“Qubadlının azad olunmasına görə” medalı

Bu gün də sevinir ki, rəşadətli Ordumuzun Zəfər yürüşündə iştirak edib

Nicat Hikmət oğlu Xanoğlanzadə 1993-cü il martın 15-də Salyan rayonunda dünyaya göz açıb.

Y.Qasımov adına Salyan şəhər 4 saylı tam orta məktəbi bitirib.

2014-cü ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə qəbul olub. 2015-ci ildə müddətli həqiqi hərbi xidmətə yollanıb, 2017-ci ildə Ordu sıralarından tərxis olunduqdan sonra kollecdə "Gəmi energetik qurğularının istismarı" ixtisası üzrə təhsilini davam etdirib.

Bütün xalqımız kimi, Nicat Xanoğlanzadə də işğal altındakı əzəli torpaqlarımızı düşmən tapdağından azad etmək arzusu ilə yaşayıb və Azərbaycanın ərazi bütövlüyünü təmin etməyə öz töhfəsini vermək üçün imkan axtarıb. Təsadüfi deyil ki, Vətən müharibəsinin ilk günündən – sentyabrın 29-da əlində silah artıq ön cəbhədə olub. 2020-ci il dekabrın 9-dək hərbi sürücü kimi Zəngilan və Qubadlı rayonlarının müdafiə və mühafizəsində iştirak edib.

Cəbhə təəssüratlarından danışarkən igid döyüşçü Nicat Xanoğlanzadə deyib ki, faşist Ermənistanın silahlı birləşmələri sentyabrın 27-də ölkəmizə qarşı genişmiqyaslı təxribata başlayanda daha bir neçə rayonumuzu işğal edəcəklərini düşünürdülər. Müharibənin ilk günündə aldıqları ciddi zərbələr onları qəflət yuxusundan ayıltdı və əllərindən qaçmaqdan başqa bir şey gəlmədi... Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu 44 gün davam edən Vətən müharibəsində əzəli torpaqlarımızı birdəfəlik erməni faşizmindən xilas etdi.

Nicat Xanoğlanzadə bu gün də sevinir ki, İkinci Qarabağ savaşında qəhrəman əsgər və zabitlərimizin Zəfər yürüşündə iştirak edib. Xalqımızın sınaq günlərində onun da əlində silah, əynində yenilməz Azərbaycan Ordusu əsgərinin forması olub.

Ölkə rəhbəri cənab İlham Əliyevin sərəncamları ilə cəsur döyüşçü Nicat Xanoğlanzadə "Xocavəndin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.



Rəşad Rasim oğlu Əliyev



"Cəbrayılın azad olunmasına görə" medalı

"Xocavəndin azad olunmasına görə" medalı

"Füzulinin azad olunmasına görə" medalı

"Qubadlının azad olunmasına görə" medalı

Əzəli torpaqlarımız uğrunda döyüşmək gücünə güc qatırdı

Rəşad Rasim oğlu Əliyev 1996-cı il iyulun 5-də Bakı şəhərində dünyaya göz açıb.

Paytaxtdakı Albert Aqarunov adına 154 saylı tam orta məktəbi bitirib.

2014-cü ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb.

Hərbi xidmətini başa vurduqdan sonra, 2016-cı ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə "Gəmiqayırma" ixtisası üzrə qəbul olub.

Ürəyi Vətən, torpaq, millət sevgisi ilə döyünən gənclərimizdəndir Rəşad. 2020-ci il sentyabrın 28-dən könüllü olaraq Ordu sıralarına qatılıb.

– 1988–1994-cü illərdə Ermənistan məhz öz havadarlarının köməyi ilə əzəli torpaqlarımızın 20 faizini işğal etmişdi, – deyir Rəşad Əliyev. – Bir milyondan çox soydaşımızı qaçqın və məcburi köçkün vəziyyətinə salmışdı, Xocalı soyqırımı törətmişdi... O qədər qudurmuşdular ki, BMT Təhlükəsizlik Şurasının Ermənistanın işğalçılıq siyasətini pisləyən, müstəqil Azərbaycanın ərazilərindən qeyd-şərtsiz çıxmasını tələb edən 4 qətnaməsini də saya saymırdılar. Son illər isə təcavüzkarın təxribatları mütəmadi xarakter almışdı. Daha 30 il düşmənin ağla gələcəyini gözləyə bilməzdik.

Vətənpərvər gənc yağını diz çökdürməyimizin səbəblərindən danışarkən deyib ki, başqa cür ola bilməzdi. Çünki biz öz əzəli torpaqlarımız uğrunda döyüşürdük. Bu, bizə əlavə güc verirdi. Ən ağır döyüşlərdə belə, bir addım geri çəkilmədik. Yalnız irəli getmək, işğalçıları torpaqlarımızdan vurub çıxartmaq barədə düşünürdük. Uca Yaradana çox şükür ki, üzüağ – Qələbə ilə ailəmizin yanına qayıtdıq.

Böyük Vətən eşqi ilə döyüş əməliyyatlarında iştirak edən igid döyüşçü Rəşad Əliyev Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medallarına layiq görülüb.



Murad Xaqani oğlu Gəncəliyev

“Düşmən sülh danışıqlarını uzatmaqla əzəli torpaqlarımızı bizə unutdura biləcəyini düşünürdü”

Murad Xaqani oğlu Gəncəliyev 1998-ci il sentyabrın 23-də Bakı şəhərində dünyaya göz açıb.

Paytaxtdakı 36 saylı tam orta məktəbi bitirib.

2015-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə qəbul olub.

2016-cı ildə müddətli həqiqi hərbi xidmətə yollanıb, 2018-ci ildə Ordu sıralarından tərxis olunduqdan sonra kollecdə ”Gəmi energetik qurğularının istismarı” ixtisası üzrə təhsilini davam etdirib.

Vətən müharibəsi başlayanda bir çox yaşıdları kimi, Murad Gəncəliyev də Qələbəyə sonsuz inamla ön cəbhəyə can atıb və Zəngilan rayonunun müdafiə və mühafizəsində iştirak edib.

O günləri xatırlayan Murad Gəncəliyev deyir:

– Xain olduqları qədər də təkəbbürlü qonşularımız himayədarlarının maddi və mənəvi dəstəyi, bəzi hallarda isə birbaşa iştirakı ilə keçən əsrin səksəninci illərinin sonu, doxsanıncı illərinin əvvəllərində işğal etdikləri torpaqlarımızdan öz xoşu ilə çıxmaq istəmirdilər. Əksinə, sülh danışıqlarını uzatmaqla əzəli torpaqlarımızı bizə unutdura biləcəklərini düşünürdülər. Son söz Ali Baş Komandanımızın idi. Dahi sərkərdəmiz ermənilərin 2020-ci il 27 sentyabr təxribatı zamanı “İrəli!” əmri verdi. Vətən sevgisindən güc alan igid əsgər və zabitlərimiz də çiyinlərinə düşən vəzifəni şərəflə yerinə yetirdilər. Müzəffər Azərbaycan Ordusu təkcə Ermənistanın işğal altında saxladığı torpaqlarımızda qurduğu və keçilməz saydığı istehkamları deyil, düşmənin öz ordusunun basılmazlığı haqqında yaratdığı mifi də darmadağın etdi.



Əmrah Əlişad oğlu Səfərov

Keçilməz sədləri keçən cəsur gizir

"Polkovnik Faiq Rüstəmov çox təcrübəli komandir idi. Şuşaya qovuşmaq üçün texnika ilə hərəkət etməyin qeyri-mümkun olduğu yerləri arxada qoyduq, keçilməz sədləri keçdik, təkcə meşəliklə 14 km piyada yol getdik. Bəzən uzun müddət dilimizə heç su dəymədi... "

Bu sözləri cəsur gizir Əmrah Səfərov İkinci Qarabağ savaşında şərəfli döyüş yolundan danışarkən söyləyib.

Əmrah Əlişad oğlu Səfərov 1996-cı il dekabrın 18-də Hacıqabul rayonunda doğulub.

2003–2013-cü illərdə Hacıqabul rayonunun Qarasu kəndində Vüqar Mustafayev adına tam orta məktəbdə təhsil alıb.

2013-cü ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə qəbul olub. 2017-ci ildə kolleci "Gömrük işi" ixtisası üzrə bitirib.

2018-ci ilin yanvarında çağırıldığı müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra da Azərbaycan Silahlı Qüvvələrində xidmət etmək istəyi onu Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarına gətirib çıxarıb.

Gizir Əmrah Səfərov Vətən müharibəsinin ilk günündən ön cəbhədə olub, Füzuli, Cəbrayıl rayonları, Şuşa uğrunda gedən döyüşlərdə, Şuşanın müdafiə və mühafizəsində iştirak edib.

Cəsur gizirin dediklərindən: "Sentyabrın 27-si telefonuma zəng gəldi. Komandirimiz idi: "Səfərov... toplanış!!!". Döyüş yolumuz Cəbrayıldan başladı. Sonra Füzuliyə üz tutduq. Daxili İşlər Nazirliyinin xüsusi təyinatlıları ilə birgə irəliləyirdik. Düşmən hər addımda bizi ən müasir silahlarla atəşə tuturdu. Buna baxmayaraq, işğalçıları 27–28 ildə möhkəmləndikləri postlardan vurub çıxarırdıq.

Gözümüz önündə şəhidlik zirvəsinə yüksələn Azərbaycanın mərd oğulları – leytenant Qəzənfər Məmmədov, Cahangir Surxayzadə, Orxan Mirzəyev kimi hərbçi yoldaşlarımızın igidliyi, qəhrəmanlığı hesabına düşməni qabağımıza qatıb əzəli torpaqlarımızdan qova bildik."



İsgəndər Abil oğlu Məmmədli



“Cəbrayılın azad olunmasına görə” medalı

“Zəngilanın azad olunmasına görə” medalı

Şəhidlikdən saniyələrin ayırdığı vətənpərvər

"Vətən müharibəsi başlayandan hər kəsin ürəyi müzəffər Ordumuzla bir döyünürdü. Bunu hər birimiz ön cəbhədə hiss edirdik. Elə ona görə, Ali Baş Komandanımızın rəhbərliyi ilə ərazi bütövlüyümüzü bərpa edə, xalqımıza soyqırımları yaşadanları cəzalandıra bildik."

Bu sözlər İkinci Qarabağ savaşında ölümün gözlərinə dik baxmağı bacaran İsgəndər Məmmədlinin dilindən çıxıb.

İsgəndər Abil oğlu Məmmədli 1998-ci il iyunun 3-də İsmayıllı rayonunda dünyaya göz açıb.

İsmayıllı rayonunun Xankəndi kənd tam orta məktəbini bitirib.

2015-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə qəbul olub.

2017-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. Ordu sıralarından tərxis olunduqdan sonra təhsilini davam etdirib və 2020-ci ildə kolleci "Gəmiqayırma" ixtisası üzrə bitirib.

Vətən müharibəsi başlayanda könüllü Ordu sıralarına qatılıb, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüşlərdə əsgəri borcunu layiqincə yerinə yetirib.

Cəbrayıl və Zəngilan rayonları uğrunda gedən döyüşlərdə göstərdiyi şücaətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Əsgər İsgəndər Məmmədli deyir ki, Vətən uğrunda ölümdən qorxmasa da, ağır keçən döyüşlərdə demək olar ki, möcüzə nəticəsində sağ qalıb. Bəzən onu şəhidlik zirvəsinə ucalmaqdan saniyələr ayırıb və ya sadəcə bəxti gətirib. Buna baxmayaraq, Vətənin çətin günündə silaha sarıldığı, rəşadətli Azərbaycan Ordusu tarix yazarkən sıralarında olduğu üçün özünü bəxtəvər sayır.



Aydın Dadaş oğlu Abasov



“Zəngilanın azad olunmasına görə” medalı

“Qubadlının azad olunmasına görə” medalı

Çempion

Aydın Dadaş oğlu Abasov 1997-ci il dekabrın 9-da Salyan rayonunun Arbatan kəndində dünyaya göz açıb. Salyan şəhərindəki 4 saylı tam orta məktəbi bitirib. İki il ardıcıl "İlin ən yaxşı şagirdi" müsabiqəsinin qalibi olub. Yaxşı oxumaqla yanaşı, kikboksinqə maraq göstərib. Yox, təkcə maraq göstərməyib. İdmanın bu növü üzrə ikiqat Azərbaycan çempionu olmağın sevincini yaşayıb, Türkiyədə keçirilən Avropa çempionatından Vətənə qalib kimi qayıdıb, Gürcüstanda təşkil olunan Qafqaz ölkələri arasında beynəlxalq turnirdə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb...

2015-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə qəbul olub və 2018-ci ildə kolleci "Gəmiqayırma" ixtisası üzrə bitirib. Sonra müddətli həqiqi hərbi xidmətə çağırılıb və 2020-ci ildə tərxis olunub.

İkinci Qarabağ savaşının dördüncü günü könüllü olaraq ön cəbhədəki igidlərimizə qatılıb, Qubadlı, Zəngilan rayonları uğrunda gedən döyüşlərdə, Laçının mühafizə və müdafiəsində iştirak edib.

İgid döyüşçü Aydın Abasovun Vətən müharibəsində göstərdiyi şücaət dövlət başçımız cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Zəngilanın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə qiymətləndirilib.

– Sentyabrın 27-də rəşadətli Ordumuz ermənilərin növbəti təxribatına əks-hücumla cavab verdi, – deyir Aydın Abasov. – Və işğalçılara təkcə həddini göstərmədi, çox ağır məğlubiyyətə uğratdı. Heç vaxt, heç yerdə görünməmiş Dövlət–Xalq–Ordu birliyi torpaqlarımızın işğalına birdəfəlik son qoydu. Hələ müharibənin ilk günündə müdrik dövlət başçımız İlham Əliyev əminliklə deyirdi: "Bu işğala son qoyulmalıdır və qoyulacaq! Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!". Ali Baş Komandanımız həmişə sözünün sahibi olub. Onun rəhbərliyi ilə həm Zəfər çaldıq, həm də bütün dünyada qanmayanlara bir daha anlatdıq ki, "Qarabağ Azərbaycandır!"



Kamran Alim oğlu Hüseynov

Bir ildə iki sınaqdan üzüağ çıxdı

Kamran Alim oğlu Hüseynov 1999-cu il noyabrın 20-də Gədəbəy rayonunun Novoivanovka kəndində dünyaya göz açıb.

2017-ci ildə Novoivanovka kənd tam orta məktəbini bitirib.

2017–2019-cu illərdə Azərbaycan Ordusu sıralarında müddətli həqiqi hərbi xidmət keçib.

Uşaqlıqdan dənizçi peşəsinə böyük marağı olub. Fədakar dənizçilərin həyatından bəhs edən filmlərə baxmağı, kitabları mütaliə etməyi xoşlayıb. Elə bu maraq da onu Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə gətirib çıxarıb. 2020-ci ildə "Gəmi energetik qurğularının istismarı" ixtisası üzrə qəbul olub. Amma həmin il qəbul imtahanından daha böyük bir sınaqdan da keçməli olur Kamran. Vətən müharibəsi sınağından!

Kamran Hüseynov deyir:

– Müharibədən əvvəl tez-tez düşünürdüm ki, dünya Qarabağın Azərbaycanın ayrılmaz parçası olduğunu bildiyi halda, niyə riyakarlıq edir, ermənilərin işğalçılıq siyasətinə susur? Və nə vaxta kimi susacaq? Bu susqunluğun ermənilərin işinə yaradığını yaxşı bilirdilər. Bilmədikləri bir şey vardı: "Torpaqdan pay olmaz!". Sözümün canı budur ki, ərazi bütövlüyümüzün bərpası şərəf işimiz idi və hər bir azərbaycanlı torpaqlarımızın işğaldan azad edilməsi üçün canından keçməyə hazır idi.

Məhz belə düşündüyü üçün Kamran Hüseynov da Vətən müharibəsi başlayandan ön cəbhəyə can atıb, Murov, Kəlbəcər, Daşkəsənin müdafiəsində iştirak edib.



İlham Mahir oğlu Atamalıyev



“Cəbrayılın azad olunmasına görə” medalı

“Xocavəndin azad olunmasına görə” medalı

“Füzulinin azad olunmasına görə” medalı

Düşmənin bizə "təklif etdiyi yol" bizi Qələbəyə, onları isə ağır məğlubiyyətə aparıb çıxartdı

"Dövlətimizin başçısı, Ali Baş Komandanımız cənab İlham Əliyev dəfələrlə demişdi ki, biz əzəli torpaqlarımızı ya hərb, ya da sülh yolu ilə geri alacağıq. Buna heç kəsin şübhəsi olmasın. Sülh yolu "dənizdən dənizə" xülyası ilə yaşadıqları üçün öz işğalçılıq siyasətindən əl çəkmək istəməyən namərd qonşularımızın ürəyincə olmadı. Bizi hərb yolu ilə getməyə məcbur etdilər. Bu yol bizi Qələbəyə, düşməni isə ağır məğlubiyyətə aparıb çıxartdı."

Bu kəlmələr Vətən müharibəsində kəşfiyyatçı-mühəndis kimi keçdiyi şərəfli döyüş yolu ilə haqlı olaraq fəxr edən İlham Atamalıyevin dilində səslənib.

İlham Mahir oğlu Atamalıyev 2000-ci il avqustun 28-də Hacıqabul rayonunun Qubalı kəndində doğulub.

2017-ci ildə Hacıqabul rayonunda Rahim Abdullayev adına Qubalıbalaoğlan kənd tam orta məktəbini bitirib.

2017–2019-cu illərdə Ordu sıralarında əsgəri borcunu layiqincə yerinə yetirib.

2020-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə "Gəmi enerji avadanlıqlarının və avtomatik vasitələrinin istismarı" ixtisası üzrə qəbul olub.

Vətən müharibəsi başlayanda İlham Atamalıyev "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Qanuna əsasən qismən səfərbərliyə cəlb olunub, Cəbrayıl, Füzuli, Xocavənd və Şuşa rayonları istiqamətlərində gedən döyüşlərdə iştirak edib.

Cəsur döyüşçü İlham Atamalıyev deyir:

– 2020-ci il sentyabrın 27-də yenilməz Ordumuz Ermənistan silahlı qüvvələrinin növbəti hərbi təcavüzünə əks-hücumla cavab verdi və dayanmadan bir-birinin ardınca doğma məskənlərimizi işğaldan azad etdi. Döyüş meydanında biabırçı məğlubiyyətə uğrayan uşaq, qoca, qadın qatillərinin gücü isə həmişəki kimi cəbhə xəttindən çox uzaqda yerləşən yaşayış məntəqələrimizi atəşə tutmağa – dinc əhalimizi qətlə yetirməyə çatdı. Şükürlər olsun ki, bütün şəhidlərimizin qisasını ala bildik.

Vətən torpaqları uğrunda aparılan döyüşlərdə göstərdiyi şücaətə görə İlham Atamalıyev ölkə rəhbəri cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medallarına layiq görülüb.



Sənan Güloglan oğlu Əhmədli

Ordumuz düşməni verdiyi "məsləhət"ə görə peşman edəndə ön sıralarda olan dənizçi

– Keçən əsrin axırlarından torpaqlarımızın böyük bir hissəsi Ermənistanın işğalı altında idi, – deyir Sənan Əhmədli. – Təbiət etibarı ilə sülhsevər xalq olduğumuz üçün bu işğala dinc yolla – Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası və ATƏT-in qərarlarına uyğun olaraq danışıqlar yolu ilə son qoyulmasını istəyirdik. Xain qonşularımız isə guya güclü olduqları üçün ərazilərimizin 20 faizini işğal edə bildiklərini, bir qarış torpağımızı da geri qaytarmayacaqlarını söyləyirdilər. Yəni, "Gücünüz varsa, siz də eyni qaydada geri alın", – deyirdilər. Düşmən olsalar da, bu dəfə onların "məsləhət"inə qulaq asdıq və peşman deyilik. Əksinə, bizə verdikləri "məsləhət" işğalçıların özlərinə çox baha başa gəldi.

Sənan Güloglan oğlu Əhmədli 1996-cı il yanvarın 23-də Sabirabad rayonunun Qarağac kəndində dünyaya göz açıb.

2002-ci ildə Şirvan şəhərindəki 3 saylı tam orta məktəbi bitirib.

2013-cü ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə qəbul olub.

2014–2015-ci illərdə müddətli həqiqi hərbi xidmət keçib. Ordu sıralarından tərxis olunduqdan sonra təhsilini davam etdirib və kolleci "Gəmi sürücülüyü" ixtisası üzrə bitirib.

Vətən müharibəsi başlayanda Sənan Əhmədli də torpaqlarımızı erməni işğalından azad etmək arzusu ilə silaha sarılıb, Suqovuşan, Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edib.

Sənan Əhmədli 2021-ci ilin aprelindən ASCO-nun Xəzər Dəniz Neft Donanmasında matros işləyir.



Ərəstun Dilqəm oğlu Tağıyev



“Suqovuşanın azad olunmasına görə” medalı

Mənfur yağının fikri torpaqlarımızı zorla mənimsəmək idi

Ərəstun Dilqəm oğlu Tağıyev 1998-ci il aprelin 23-də Tovuz rayonunun Bayramlı kəndində anadan olub.

2004–2015-ci illərdə Bakının Binəqədi rayonundakı Əsəd Ələskərov adına 244 nömrəli tam orta məktəbdə təhsil alıb.

2015-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə qəbul olub.

2017-ci ildə Ordu sıralarına həqiqi hərbi xidmətə çağırılıb, 2019-cu ildə tərxis olunduqdan sonra təhsilini davam etdirib və 2020-ci ildə kolleci "Gəmi enerji avadanlıqlarının və avtomatik vasitələrinin istismarı" ixtisası üzrə bitirib.

Ərəstun Tağıyev Vətən müharibəsinin ilk günündən – sentyabrın 30-dan silaha sarılıb, Talış kəndi, Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak edib. İgid əsgərin sinəsini dövlət başçımız cənab İlham Əliyevin Sərəncamı ilə təltif edildiyi "Suqovuşanın azad olunmasına görə" medalı bəzəyir.

– Möhtərəm prezidentimiz İlham Əliyev erməni işğalı altında olan Azərbaycan ərazilərinin sülh yolu ilə qaytarılması üçün əlindən gələni əsirgəmədi, – deyir Ərəstun Tağıyev. – Lakin mənfur yağının fikri torpaqlarımızı zorla mənimsəmək idi. Elə bu səhv də işğalçı ermənilərə çox baha başa gəldi... Ali Baş Komandanımızın əks-hücum əmrindən cəmi 44 gün sonra Qarabağ həsrətimizə birdəfəlik son qoyuldu: düşmən təslim oldu.

Allah müdrik Prezidentimizi, rəşadətli Ordumuzu xalqımıza çox görməsin!



Nihad Rufulla oğlu Həsənov

“Otuz illik yurd həsrətimizə 44 günə son qoyduq”

Nihad Rufulla oğlu Həsənov 1998-ci il dekabrın 21-də Neftçala şəhərində dünyaya göz açıb.

2004–2015-ci illərdə Neftçala şəhərindəki Elton Həbibov adına 4 saylı tam orta məktəbdə təhsil alıb.

2015-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə qəbul olub.

2017-ci ildə Ordu sıralarına müddətli həqiqi hərbi xidmətə çağırılıb, 2019-cu ildə tərxis olunduqdan sonra təhsilini davam etdirib. 2020-ci ildə kolleci ”Gəmi enerji avadanlıqlarının və avtomatik vasitələrinin istismarı” ixtisası üzrə bitirib.

2020-ci il sentyabrın 30-da könüllü olaraq şanlı Azərbaycan Ordusu sıralarına qatılıb, Füzuli, Xocavənd rayonları uğrunda gedən döyüşlərdə iştirak edib.

Nihad Həsənov müzəffər Ordumuzun Zəfər yürüşü günlərini qürurla xatırlayır:

– Təxminən otuz il yağı tapdağı altında olan ərazilərimiz yolumuzu gözləyirdi. Elə biz də əzəli torpaqlarımız üçün az darıxmamışdıq. Düşmən isə səbrimizin sonsuz olmadığını bilsə də, işğalçılıq siyasətini davam etdirirdi. Kimə güvənirdi, niyə güvənirdi, nəyə güvənirdi? Havadarları baxa-baxa düşmənin belini qırdıq. İşğal altında olan əzəli ərazilərimiz dövlət başçımızın müdrik siyasəti, Ordumuzun qüdrəti və xalqımızın dəstəyi sayəsində 44 günə azad edildi.



Cəlal Bayram oğlu Quliyev



“Laçının azad olunmasına görə” medalı

Xalqımızın Qələbə sevincini yaşayacağına inanırdı

"Azərbaycan Silahlı Qüvvələri hər gün yeni-yeni qalibiyyətlərə imza atırdı, biz də fəxr edirdik ki, belə güclü Ordumuz var. Düşmən tapdağından azad etdiyimiz məskənlərimizdə üçrəngli bayrağımızı dalğalandırdıqca qəlbimiz dağa dönürdü. İnanırdıq ki, tezliklə müqəddəs bayrağımızı Şuşada, Cıdır düzündə dalğalandıracağıq. Şükürlər olsun ki, xalqımıza arzu etdiyi Qələbə sevincini yaşada bildik."

Bu sözlər İkinci Qarabağ savaşında hər döyüşə Qələbə əzmi ilə atılan Cəlal Quliyevə məxsusdur.

Cəlal Bayram oğlu Quliyev 1997-ci il oktyabrın 2-də Sumqayıt şəhərində dünyaya göz açıb.

Sumqayıt şəhərində qərarlaşmış Qubadlı rayonunun İşıqlı kənd tam orta məktəbində təhsil alıb.

2015-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə qəbul olub.

2015-ci ildə Ordu sıralarına müddətli həqiqi hərbi xidmətə çağırılıb, 2017-ci ildə tərxis olunduqdan sonra təhsilini davam etdirib və 2020-ci ildə kolleci "Gəmi energetik qurğularının istismarı" ixtisası üzrə bitirib.

Vətən müharibəsinin ilk günündən erməni işğalçılarını qabağına qatıb qovan igidlərimizin sıralarında yer alıb, Füzuli, Xocavənd rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

İkinci Qarabağ savaşında əsgəri borcunu layiqincə yerinə yetirən Cəlal Quliyevin sinəsini ölkə başçısı cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə təltif edildiyi "Laçının azad olunmasına görə" medalı bəzəyir.

– Vətən müharibəsi bir daha sübut etdi ki, biz birlikdə olanda düşmənlərimizdən də, "dəliyə yel, əlinə bel verənlər"dən də güclü oluruq, – deyir Cəlal Quliyev. – İşğalçı ermənilərin bir daha sərsəm fikirlərə düşməmələri üçün biz birlikdə güclü olduğumuzu heç vaxt unutmamalıyıq.

Unutqanlıq həmişə bizə baha başa gəlib. Unutmarıq, inşallah!



Əhmədxan Hökümağa oğlu Zərbalıyev



"Zəngilanın azad olunmasına görə" medalı

"Qubadlının azad olunmasına görə" medalı

"Laçının azad olunmasına görə" medalı

Savaşa həm də düşməni söylədiyi bütün hədyanlara görə cəzalandırmaq istəyi ilə qatılan dənizçi

Əhmədxan Hökümağa oğlu Zərbalıyev 1998-ci il martın 4-də Hacıqabul rayonunun Atbulaq kəndində dünyaya göz açıb.

2004–2015-ci illərdə Bakının Qaradağ rayonunun Qobustan qəsəbəsindəki Yusif Əliyev adına 195 nömrəli tam orta məktəbində təhsil alıb.

2015-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə qəbul olub.

2016-cı ildə müddətli həqiqi hərbi xidmətə yollanıb, 2018-ci ildə Ordudan tərxis olunduqdan sonra təhsilini davam etdirib və 2020-ci ildə Azərbaycan Dənizçilik Kollecini "Gəmi energetik qurğularının istismarı" ixtisası üzrə bitirib.

Vətən müharibəsinin ilk günündən ön cəbhəyə can atıb. 2020-ci il sentyabrın 29-dan Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın istiqamətində gedən döyüşlərdə iştirak edib.

– Kimsə bu müharibəyə sadəcə torpaq davası kimi baxa bilər, mənimlə çiyin-çiyinə döyüşənlərin hər biri üçün Vətən müharibəsi həm də namus, qeyrət davası idi, – deyir Əhmədxan Zərbalıyev. – Sevinirəm ki, bu qeyrət davasında ləyaqətin nə olduğunu anlamayan düşmənə yerini göstərdik, yağını söylədiyi bütün hədyanlara görə layiqincə cəzalandıra bildik. Torpaqlarımızı azad etməklə həm Vətən, həm də şəhidlərimizin ruhu qarşısında borcumuzu ödədik. Bunlar müqəddəs hislərdir.

Ərazi bütövlüyümüzün təmin edilməsi uğrunda döyüşlərdə göstərdiyi şücaətə görə igid döyüşçü Əhmədxan Zərbalıyev Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medallarına layiq görülüb.



Aydın Akifoviç Ağabalayev



“Cəbrayılın azad olunmasına görə” medalı

“Xocavəndin azad olunmasına görə” medalı

“Füzulinin azad olunmasına görə” medalı

Zəfər yürüşümüzün başlayacağı vaxtı növbəti təxribatları ilə məhz erməni işğalçıları "təyin etdilər"

Vətən müharibəsində cəngavər kimi döyüşən cavanlarımızdan biri də ixtisasca dənizçi olan Aydın Ağabalayev idi.

– Azərbaycan coğrafi baxımdan kiçik ölkə olsa da, hələ Vətən müharibəsindən xeyli əvvəl dünyanın ən güclü 50 ordusundan biri bizim Ordumuz idi, – deyir Aydın Ağabalayev. – 2016-cı ilin Aprel döyüşləri isə həm də şanlı Ordumuzun Qələbə əzminin və döyüş ruhunun nə qədər yüksək olduğunu nümayiş etdirdi. Onda bütün dünya anladı ki, Azərbaycan Silahlı Qüvvələrinin Zəfər yürüşü uzaqda deyil. Düşmənin ağlı olsaydı, hələ onda işğal etdiyi torpaqlarımızdan özü çıxar, "məğlubedilməz" hesab etdiyi ordusunu rəzil hala salmazdı.

Aydın Akifoviç Ağabalayev 1998-ci il iyunun 12-də Rusiya Federasiyasının Tomsk şəhərində dünyaya göz açıb.

2004–2015-ci illərdə Xaçmaz rayonunun Xudat şəhərindəki Nəriman Nərimanov adına 2 saylı tam orta məktəbində təhsil alıb.

2015-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə qəbul olub.

2016-cı ildə müddətli həqiqi hərbi xidmətə yollanıb, 2018-ci ildə Ordu sıralarından tərxis olunduqdan sonra təhsilini davam etdirib. 2020-ci ildə kolleci "Gəmi energetik qurğularının istismarı" ixtisası üzrə bitirib.

Vətən müharibəsi başlayanda çağırış gözləməyib, könüllü olaraq sinəsini qalxana çevirib. Füzuli, Cəbrayıl, Hadrud və Xocavənd uğrunda gedən döyüşlərdə neçə-neçə erməni yaraqlısını cəhənnəmə vasil edib. Hadrutda gedən şiddətli döyüş zamanı isə ayağından qəlpə yarası alıb.

Döyüş əməliyyatlarında göstərdiyi şücaətə görə Aydın Ağabalayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medallarına layiq görülüb.

İgid döyüşçü Aydın Ağabalayev deyir ki, xalqımız rəşadətli Ordumuza, Ordumuz da üçrəngli bayrağımızı işğal altında olan bütün torpaqlarımızda dalğalandıracağına inanırdı. Bircə vaxt bəlli deyildi. O günü də torpaqlarımızın 20 faizini işğal altında saxlayan namərd qonşularımız növbəti təxribata əl atmaqla özləri təyin etdilər: 2020-ci il 27 sentyabr. Beləcə, o gündən Böyük Sərkərdə İlham Əliyevin komandanlığı altında şücaətli Ordumuzun 44 günlük Zəfər yürüşü başladı. Və bu şanlı tariximizlə bu gün hamımız qürur duyuruq.



Fəhmin İlqar oğlu Əhmədli



“Ağdamın azad olunmasına görə” medalı

Yenilməz Ordumuz var

Fəhmin İlqar oğlu Əhmədli 1997-ci il aprelin 28-də Bərdə rayonunun Şahvəlilər kəndində dünyaya göz açıb.

2003–2014-cü illərdə Dilqəm Əliyev adına tam orta məktəbdə təhsil alıb, 2014-cü ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə qəbul olub.

2015–2016-cı illərdə Füzuli rayonunda müddətli həqiqi hərbi xidmət keçib. Aprel döyüşlərində iştirak edib və ailəsi hərbi hissə komandirindən təşəkkür məktubu alıb.

Ordudan tərxis olunduqdan sonra təhsilini davam etdirib və Azərbaycan Dənizçilik Kollecini "Gəmi sürücülüyü" ixtisası üzrə bitirib.

Vətən müharibəsinin ilk günündən torpaqlarımızın müdafiəsinə qalxıb, Ağdam, Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak edib. Döyüş tapşırıqlarının icrasında fərqləndiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə "Ağdamın azad olunmasına görə" medalı ilə təltif olunub.

İgid döyüşçü Fəhmin Əhmədli deyir:

– 2020-ci il iyunun 25-də Prezident İlham Əliyev Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışında bildirmişdi ki, "Biz hər sahədə, beynəlxalq müstəvidə güclənirik, güclənməliyik – ölkə daxilində sabitlik, iqtisadi sahədə islahatlar, sosial problemlərin həlli, regionların inkişafı və nəhayət, ordu quruculuğu. Ona görə bu yolla biz gedəcəyik, ordumuzu bundan sonra da gücləndirəcəyik, nə qədər lazımdırsa, orduya o qədər vəsait ayıracağıq". Bu, o demək idi ki, ölkəmizin ərazi bütövlüyünün bərpası məsələsində arxalana biləcəyimiz yeganə güc məhz Azərbaycan Ordusudur. Yenilməz Ordumuz da ona bəslənilən etimadı Vətən müharibəsində şərəflə doğrultdu. Qarabağı qısa müddətdə işğalçılardan azad etdi. Azərbaycan tarixinə qızıl hərflərlə yazılan bu parlaq Qələbənin memarı Ali Baş Komandanımız idi. İkinci Qarabağ savaşında biz təkcə müasir Ordumuzla deyil, həm də onun yaradıcısı – dahi sərkərdəmiz İlham Əliyevlə fəxr edirdik.



Taleh İlqar oğlu Ələkbərli

Müharibənin başladığını eşitdiyi andan əli silahlı igidlərimizə qoşulmaq üçün Vətənə tələsən vətənpərvər

Təkcə bu fakt ömrünün baharını yaşayan bu gəncin Vətən sevgisi haqqında çox şey deyir. İkinci Qarabağ savaşı başlayanda Taleh Ələkbərli Türkiyə Respublikasında imiş. Eşidən andan Qarabağ adlı cənnətimizi yağı tapdağından xilas edəcək igidlərə qoşulmaq üçün Vətənə tələsib. Gələn gün də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə üz tutub, könüllü olaraq cəbhəyə getmək istədiyini bildirib. Arzusu yerinə yetirilib.

Taleh İlqar oğlu Ələkbərli 1997-ci il aprelin 8-də Qəbələ rayonunun Vəndam qəsəbəsində dünyaya göz açıb.

2003–2015-ci illərdə Vəndamda Hikmət Rəşidov adına 2 saylı tam orta məktəbdə təhsil alıb.

2014-cü ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Dənizçilik Kollecinə qəbul olub.

2015-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb, 2016-cı ilin Aprel döyüşlərində ön cəbhədə xidmət edib. Nümunəvi xidməti 2 dəfə tərifnamə ilə qiymətləndirilib.

Ordudan ehtiyata buraxıldıqdan sonra təhsilini davam etdirib və 2019-cu ildə kolleci ”Gəmi enerji avadanlıqlarının və avtomatik vasitələrinin istismarı” ixtisası üzrə bitirib.

Vətən müharibəsində Ağdam rayonunun müdafiə və mühafizəsində iştirak edən Taleh Ələkbərli deyir:

– Sevinirəm ki, Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunun yenilməzliyi barədə illərlə yaradılmış mifi darmadağın edəndə mən də ön cəbhədə idim. Şanlı Qələbəmiz tariximizə qızıl hərflərlə əbədi həkk olundu. Rəşadətli Ordumuz təkcə müstəqil Azərbaycanın ərazi bütövlüyünü bərpa etmədi. Müqəddəs torpaqlarımızı iblis xislətli erməni faşizmindən təmizlədi. Əminəm ki, həmişəlik!

MÜNDƏRİCAT

ÖN SÖZ ƏVƏZİ 8

9

VƏTƏN CANDAN ŞİRİNDİR

Zeynal Zülfüqarlı 12
Vətən üçün doğulmuşdu 13

İnqilab Qədirbəyli 14
Zəfərə saatlar qalanda şəhadətə qovuşan qəhrəman 15

Bayrı İmanov 16
Nə sudan uzaq tuta biliblər, nə oddan 17

Səxavət Talıbzadə 18
Öz qisasını özü öncədən almışdı 19

Mirsafa Rzayev 20
Ən çətin döyüşlərə də gülə-gülə gedirmiş 21

Ələkbər Ələsgərov 22
“Öncə Vətən!” deyən oğul 23

Əfqan Axundov 24
Vətən sevgisi ilə döyünən ürəyinin üstündə üçrəngli bayrağımızı gəzdirən igid 25

Allahverdi Novruzov 26
Ölməzliyə qovuşmağa tələsirmiş... 27

Kamil Kamilov 28
Hər şeyin sərhədini bilən Kamilin Vətən sevgisi sərhəd tanımırdı 29

MÜNDƏRİCAT

DÜŞMƏNƏ QAN UDDURAN DƏNİZÇİLƏR

Nəzrəddin Əhmədzadə 32
"11 yaşımda ayrıldığım evimizə qayıtmaq möcüzə kimi gəlirdi" 33

Rəşad Hüseynov 34
Müdrik dövlət başçımız daha qüdrətli və daha təhlükəsiz bir Azərbaycan inşa edir 35

Emin Əlizadə 36
Nə qədər ki, Vətən uğrunda canından keçməyə hazır igidlərimiz var, düşmənimiz də "Qarabağ Azərbaycandır!" deyəcək 37

Oyrad Abdullayev 38
Dar günündə Vətənə lazım olduğuna sevinən direktor 39

Atabala Kərimli 40
Müharibəyə gedəndə də, vuruşanda da yalnız Qələbə haqqında düşünən mühəndis-konstruktor 41

Dəryanur Heybətov 42
Düşmən əsgər və zabitlərimizin Vətən sevgisindən qaynaqlanan yüksək döyüş ruhundan daha çox qorxurdu 43

Nəbi Qurbanlı 44
"Düşmənin atıb qaçdığı silahların sayı-hesabı yox idi..." 45

Toğrul Hüseynzadə 46
Bu savaş Qələbəmizlə bitməli idi... 47

Vüsal Məlikov 48
"Özgə torpaqlarının dəlisi olan düşməni bu sevgisinə görə peşman etdik" 49

Anar Behbudov 50
Bir-birindən cəsur övladları olan Vətən basılmaz! 51

Namiq Mövsümov 52
Xain qonşularımızın çirkin niyyətləri çirkli ürəklərində də qalacaq 53

MÜNDƏRİCAT

Şükür Mahmudzadə 54
"Bu gün təkcə şəhidlərin deyil, Qarabağ həsrəti ilə dünyasını dəyişmiş bütün azərbaycanlıların ruhları şaddır" 55

Cəfər Səfərli 56
Bəzi döyüşlərdən sağ çıxdığına bu gün də inana bilmir 57

Zaur Əskərov 58
Azərbaycan əsgəri bir, Ali Baş Komandanı isə eyni vaxtda bir neçə cəbhədə, həm də çox uğurla vuruşurdu 59

Qabil Sadıqov 60
Ərazi bütövlüyümüzü ən böyük mükafatımız sayan qəhrəman dənizçi 61

Nadir Qasımov 62
İkinci Qarabağ savaşında yağı havadarlarına, xalqımız isə Ordumuzun yenilməzliyinə arxalanırdı 63

Ağahüseyn Məmmədov 64
Dənizçi Ağahüseyn də özünü həmişə Zəfər yürüşünə çıxacaq igidlərin sırasında təsəvvür edib 65

Ərəstun Əbilzadə 66
Qismən səfərbərlik elan ediləndə həyatında ilk dəfə dənizdə olmadığına sevinən kapitan köməkçisi 67

Vüqar Əhmədov 68
Rəşadətli Ordumuzun 44 gündə verdiyi dərsi işğalçılar 44 ildən sonra da unuda bilməyəcəklər 69

Səbuhi Kazımov 70
Qələbə inamı ilə silaha sarılan mühəndis-dispetçer 71

Vüsal Mikayılov 72
Müstəqil Azərbaycanın ərazisi daha heç vaxt işğalçıların təcavüzünə məruz qalmayacaq .. 73

Rüfəf Bağırov 74
"Torpaqlarımıza göz dikənin gözünü ovcuna tökərik" 75

Namiq Hüseynov 76
“Özləri haqqında mif yaradan düşmən nəyi vardısa, atıb gedirdi” 77

MÜNDƏRİCAT

Nicat Babayev 78
İgid döyüşçülərimizlə qürur duyan igid dənizçi 79

Xəyyam Köçəriyev 80
Qətiyyətli Ali Baş Komandanımız və rəşadətli Ordumuzla fəxr edən motorçu 81

Ceyhun Əhmədov 82
Ərazi bütövlüyümüz üçün canından keçməyə hazır olan baş istehkamçı 83

Ziya Əliyev 84
Erməni terrorçularının xalqımıza qarşı törətdiyi vəhşiliklərin qisasının alındığını düşünən kranmeyster 85

Nəbi Hacıyev 86
Torpaqlarımız işğal altında olanda özünü günahkar sayan gəmi təmirçisi 87

Ramiz Qocayev 88
Yağı əzəli ərazilərimizi bizə unutdura biləcəyini düşünürdü 89

Mahmud Məmmədov 90
Ön cəbhəyə göndərilməsi üçün inadkarlıq göstərən gəmi təmirçisi 91

Kənan Haqverdiyev 92
Qarabağı yenə cənnətə döndərəcəyik 93

Tural Fətəliyev 94
Ön cəbhədə olan heç bir dənizçinin gözləri arxada qalmadı 95

Vəfadar İbrahimov 96
Hospitalda müalicə olunanda da bütün fikri cəbhədə idi 97

Araz İslamov 98
Hər qarış torpağın azad edilməsinin öz sevinci vardı 99

Rais Teyyublu 100
İlk gündən yağını qabağına qatıb qovanlarla çiyin-çiyinə vermişdi 101

MÜNDƏRİCAT

Elçin Abbaszadə 102
Laçını anasının qucağında tərk etmişdi 103

Ramil Bədəlov 104
“Düşmənin qurduğu maneə və istehkamları başlarına uçura-uçura irəliləyirdik” 105

Kamal Hətəmov 106
Ali Baş Komandanımızın “İrəli!” əmrini sevinclə qarşılayan igid qaynaqçı 107

Elməddin Fərmanov 108
"Xalqımıza yalnız Qələbə yaraşır. Həm də belə Qələbə!" 109

Ramazan İslamov 110
İgid qumbaraatan da xalqımızın birliyi ilə əsgərlərin döyüş ruhunun Qələbəni daha tez əldə etməyə imkan verdiyini düşünür 111

Elşən Əlisoltanov 112
Vətən sevgisi çox şeyi həll etdi 113

Pünhan Əhədov 114
Bütün döyüşlərə Vətən sevgisi ilə atılan cəsur çavuş 115

Yusif Spaysuk 116
Xalqımıza Qələbə sevincini yaşadanların sırasında olmaqdan bu gün də qürur duyur..... 117

Marat Akçurin 118
Odlar yurdunun övladı olması ilə həmişə fəxr edib 119

Rəşid Abdullazadə 120
Xalqımıza yaraşan Zəfərin qazanılmasında payı olan qumbaraatan 121

Bəxtiyar Əliyev 122
“Elə bir gün olmayıb ki, doğmalarımın qayğıları ilə maraqlanmasınlar” 123

Bəhlul Rəsulov 124
Azərbaycan əsgər və zabitlərinin döyüş ruhu ən uca zirvələri əliyalın fəth etməyə də kifayət edərdi 125

MÜNDƏRİCAT

Ötərxan Rüstəmli 126
Qeyrətli, cəsur oğulların sayəsində Qələbə sevincini yaşadıq 127

Cavid Böyükzadə 128
Azərbaycan əsgəri yağının "Dənizdən dənizə" xam xəyalını quruda basdırdı 129

Cavid Qəndilov 130
Vətənin çətin günündə silaha sarılmağı müqəddəs borcu hesab edən sistem inzibatçısı ... 131

Elvin Hüseynov 132
Ata-baba ocağını məcburi tərk edəndə uşaq, qayıdanda rəşadətli Ordumuzun zabiti idi ... 133

Hüseyn Salmanov 134
Cəsur döyüşçü 135

Samir Abbasov 136
Qələbə qoxusunu hiss edəndə dayanmaq istəməyiblər 137

Rəşad Xanlarzadə 138
Yaralılarını da atıb qaçan düşmən bizə düşmən olmağa da layiq deyil 139

Paşa Paşazadə 140
Birliyimiz, həmrəyliyimiz, bütövlüyümüz əbədi olsun! 141

Nəsib Baxışov 142
Biz birlikdə güclüyük! 143

Emin Səlimov 144
Ali Baş Komandanımızın "dəmir yumruğu" yəqin ki, heç vaxt düşmənin yadından çıxmayacaq 145

Teymur Məlikov 146
Yağının gücü yalnız əliyalın dinc əhaliyə çatırmış... 147

MÜNDƏRİCAT

“ÖNCƏ VƏTƏN!”- DEDİLƏR

Ruslan Əlicanov 150
Nə şirin imiş Qələbə! 151

Sadiq Osmanlı 152
Uca Yaradan düşmənə göz dağı olan Sadiq kimi igidləri xalqımıza çox görməsin! 153

İdris Muradzadə 154
Hesablamaları sayəsində şanlı Ordumuzun artilleriya zərbələrinin bircəsi də hədəfdən yayınmırdı 155

Fərhad Abbasov 156
Bu savaş içimizdə yatmış aslanı necə oyatdısa... 157

Xubyar Aydınov 158
Yağı torpaqlarımızı işğal altında saxlamağın onun üçün ağır nəticələnəcəyini anlamalıydı 159

Zabil Əliyev 160
Ali Baş Komandan bütün dünyanı xəbərdar etmişdi ki, Azərbaycan əsgəri işğalçıları əzəli torpaqlarımızdan qovub çıxaracaq 161

Oruc Əzizov 162
Səhvləri böyük olan düşmənin məğlubiyyəti də o qədər ağrılı olmalı idi 163

Hikmət Fətəliyev 164
Hikmət Fətəliyev: “Biz ölkəmizin ərazi bütövlüyünü təmin etməli idik. Onu da etdik” 165

Əbil Xanışov 166
“Erməni faşizmi çox böyük bəladır. Biz bu qorxunc bəlaya qalib gəldik” 167

İbrahim İbrahimov 168
Alnımıza yazılan savaşı gələcək nəslə saxlaya bilməzdik 169

Pənah Məhəmmədəli 170
Savaşın ilk günündən yağıya qan uddururdu 171

MÜNDƏRİCAT

Şahməmməd Məmmədov 172
Rəşadətli Ordumuz hər döyüşdə düşmənin əsas hərbi texnikasını gərəksiz metal parçasına çevirirdi 173

Abduləziz Səmədov 174
Hələ 2016-cı ildə xalqımız əsgər və zabitlərimizin bəxş edəcəyi Böyük Qələbənin uzaqda olmadığına qəti şəkildə inanmışdı 175

Şəhriyar Ağasıyev 176
Bu Qələbə ədalətin Qələbəsi idi 177

Eldar Həmidli 178
Özləri kimi igid, qəhrəman oğullar şəhidlərin qanını yerdə qoymadılar..... 179

Ülvi Məlikov 180
Himayədarları işğalçılara “yel də vermişdilər, bel də” 181

Cavad Məmmədzadə 182
Yaralı olanda da döyüşə can atıb 183

Fərid Abuşov 184
Vətən müharibəsində iştirakından böyük qürur duyur 185

Cahad Ağazadə 186
Xalqımız dahi sərkərdəmiz İlham Əliyevin Azərbaycan üçün gördüyü böyük işləri heç vaxt unutmayacaq 187

Bəxtiyar Əhmədov 188
Qələbəmiz Qarabağ düyününün açılmaması üçün min hiyləyə əl atan işğalçını və himayədarlarını eyni dərəcədə üzdü 189

Elvin Əsədov 190
Azərbaycanlı olmağının qürurunu yaşayır 191

Şahin Hüseynzadə 192
2020-ci ilin payızına neçə bahar sığar 193

İsmayıl İsmayılzadə 194
Vətənimizin ərazi bütövlüyü təmin olunandan sonra biz hamımız başıuca gəzirik 195

MÜNDƏRİCAT

Bəşir Kazımov 196
Vətən müharibəsinin sınağından uğurla çıxan gənci qarşıda dənizlərin sınağı gözləyir 197

Cavidan Qasımlı 198
“Xalqımızın birliyindən güc aldığımızdan işğalçını ağ bayraq qaldırana kimi qovmaq çətin olmadı” 199

Daşqın Quliyev 200
Vətən müharibəsində bütün xalqımızın qəlbi yalnız bir istəklə vururdu 201

Cavid Məhərrəmli 202
“İrəli!” əmri veriləndən yalnız irəli getmək barədə düşünən igid döyüşçü 203

Məhəmməd Məmmədov 204
Yurdumuz bütöv, Ordumuz yenilməz! Xalqımıza xoşbəxt yaşamaq üçün daha nə lazımdır ki?! 205

Osman Məmmədzadə 206
Zəfər yürüşünün həm şahidi, həm də iştirakçısı olduğu üçün özünü xoşbəxt sayır 207

Təbriz Nemətli 208
İndi Azərbaycan bütün dünyada Qalib ölkə kimi tanınır 209

Elxan Osmanov 210
Əli çox uzun olan düşmənin əlini artıq olduğu yerdən kəsdik 211

Hüseyn Rüstəmov 212
İnam böyük olanda Qələbəyə aparan yol qısalır 213

Rəsul Şahbazov 214
Ümid edirik ki, işğalçılar “Qarabağ Azərbaycandır!” dərsini yaxşı mənimsədilər 215

Zakir Zakirov 216
Vətən müharibəsi başlayanda təhsilini yarımçıq qoyaraq könüllü ön cəbhəyə tələsən tələbə 217

MÜNDƏRİCAT

ƏVVƏL ZƏFƏR, SONRA SƏFƏR!

Kənan Babayev 220
“Xalqımızın və Ali Baş Komandanımızın inamını doğrultmalıydıq” 221

Elməddin Bağırov 222
“Düşməni aman diləyənədək qovduq” 223

İbad Mənəfov 224
“Düşmənə unuda bilməyəcəyi dərs verdik” 225

Məhəmmədəli Süleymanov 226
Torpaqlarımıza göz dikən düşməni daha çox gözündən vururdu 227

Abdulla Nağıyev 228
Valideynlərin övladlarını Vətənin dar günü üçün böyütdüklərini düşünən gəmi təmirçisi ... 229

Ülvi Yusifli 230
Bədənində hələ də düşmən qəlpəsi gəzdirən qazı 231

Samiq Əliyev 232
Üçrəngli bayrağımızın bütün torpaqlarımızda əbədi dalğalanması üçün şəhid olmağa da hazır idi 233

Nicat Xanoğlanzadə 234
Bu gün də sevinir ki, rəşadətli Ordumuzun Zəfər yürüşündə iştirak edib 235

Rəşad Əliyev 236
Əzəli torpaqlarımız uğrunda döyüşmək gücünə güc qatırdı 237

Murad Gəncəliyev 238
“Düşmən sülh danışıqlarını uzatmaqla əzəli torpaqlarımızı bizə unutdura biləcəyini düşünürdü”..... 239

Əmrah Səfərov 240
Keçilməz sədləri keçən cəsur gizir 241

MÜNDƏRİCAT

İsgəndər Məmmədli 242
Şəhidlikdən saniyələrin ayırdığı vətənpərvər 243

Aydın Abasov 244
Çempion 245

Kamran Hüseynov 246
Bir ildə iki sınaqdan üzüağ çıxdı 247

İlham Atamalıyev 248
Düşmənin bizə "təklif etdiyi yol" bizi Qələbəyə, onları isə ağır məğlubiyyətə aparıb çıxartdı 249

Sənan Əhmədli 250
Ordumuz düşməni verdiyi "məsləhət"ə görə peşman edəndə ön sıralarda olan dənizçi ... 251

Ərəstun Tağıyev 252
Mənfur yağının fikri torpaqlarımızı zorla mənimsəmək idi 253

Nihad Həsənov 254
"Otuz illik yurd həsrətimizə 44 günə son qoyduq" 255

Cəlal Quliyev 256
Xalqımızın Qələbə sevincini yaşayacağına inanırdı 257

Əhmədxan Zərbalıyev 258
Savaşa həm də düşməni söylədiyi bütün hədyanlara görə cəzalandırmaq istəyi ilə qatılan dənizçi 259

Aydın Ağabalayev 260
Zəfər yürüşümüzün başlayacağı vaxtı növbəti təxribatları ilə məhz erməni işğalçıları "təyin etdilər" 261

Fəhmin Əhmədli 262
Yenilməz Ordumuz var 263

Taleh Ələkbərli 264
Müharibənin başladığını eşitdiyi andan əli silahlı igidlərimizə qoşulmaq üçün Vətənə tələsən vətənpərvər 265

Kitabı hazırlayanlar

Mehman Mehdiyev
Rasif Tahirov
Sevda Abdullayeva
Gülşən Nəbiyeva
Musa Əliyev
Rövşən Abdurəhmanov
İlqar Quliyev
Tural İbrahimov

Redaktor Rasif İmanoğlu

Dizayner Hüseyn Rzazadə